# Saylar

*Kitabı*

**Giriş**

*«Saylar»* Kitabı İsrail xalqının Sina dağını tərk etdiyi vaxtdan Allahın onlara və'd etdiyi ölkənin şərq sərhədinə çatdıqları vaxta qədər qırx illik tarixi əhatə edir. Kitab İsraillilərin bir mühüm işinin adı ilə bağlıdır: Musa peyğəmbərin İsrail xalqı ilə yola düşməzdən əvvəl Sina dağında İsrail xalqının siyahıyaalması və İordanın şərqində Moavda bir nəsil böyüdükdən sonra yenə də İsrail xalqının siyahıyaalması. İki siyahıyaalma dövrü arasında İsraillilər Kən'anın cənub sərhədinə – Qadeşə getdilər, amma və'd olunmuş ölkəyə girə bilmədilər. Onlar həmin ərazidə uzun illər qaldıqdan sonra İordan çayının şərqinə getdilər. Xalqın bir hissəsi burada məskunlaşdı, qalan hissəsi isə Kən'ana daxil olmaq üçün İordan çayını keçməyə hazırlaşdı. *«Saylar»* Kitabı çətinliklər qarşısında ruhdan düşən və qorxan, Allaha və Onun göndərdiyi elçiyə – Musaya qarşı asi olan xalqın salnaməsidir. Xalq dəfələrlə Allaha zəif iman və itaətsizlik göstərməsinə baxmayaraq, O Öz xalqına sədaqətli olmuş və ona davamlı qayğı göstərmişdir.

***Kitabın məzmunu:***

İsraillilərin Sina dağını tərk etməyə hazırlaşması 1:1-9:23
- Birinci siyahıyaalma 1:1-4:49
- Müxtəlif qanun və qaydalar 5:1-8:26
- İkinci Pasxa 9:1-14

Sina dağından Moava 9:15-21:35

Moavda baş vermiş hadisələr 22:1-32:42

Misirdən Moava səyahətin yekunu 33:1-49

İordan çayını keçməzdən əvvəl Rəbbin verdiyi öyüd-nəsihətlər 33:50-36:13

## *İsrail övladlarının ilk dəfə siyahıya alınması*

**1** 1 İsrail övladlarının Misirdən
çıxmasının ikinci ilində, ikinci ayın
birinci günü Sina səhrasında, Hüzur çadırında
Rəbb Musaya belə dedi: 2 «Bütün İsrail
övladları icmasını, nəsilləri və ailələri ilə
birlikdə siyahıya alın. Bütün kişiləri ayrı-ayrı
sayıb adlarını yazın. 3 İsraildə iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişini sən
və Harun siyahıya alıb dəstələrə ayıracaqsınız.
4 Sizinlə bərabər hər qəbilədən bir kişi olsun;
bu adamlar ailə başçısı olmalıdır. 5 Sizə
kömək edəcək adamlar bunlardır:

Ruven qəbiləsindən: Şedeur oğlu Elisur;
6 Şimeondan: Surişadday oğlu Şelumiel;
7 Yəhudadan: Amminadav oğlu Naxşon;
8 İssakardan: Suar oğlu Netanel;
9 Zevulundan: Xelon oğlu Eliav;
10 Yusif övladlarından:
Efrayimdən: Ammihud oğlu Elişama;
Menaşşedən: Pedahsur oğlu Qamliel;
11 Binyamindən: Gidoni oğlu Avidan;
12 Dandan: Ammişadday oğlu Axiezer;
13 Aşerdən: Okran oğlu Pagiel;
14 Qaddan: Deuel oğlu Elyasaf;
15 Naftalidən: Enan oğlu Axira».

16 Bunlar icmadan tə'yin edilmiş adamlar,
öz ata-babalarının qəbilə rəhbərləri və İsrailin
tayfa başçıları idilər. 17 Musa ilə Harun adları
göstərilən bu adamları apardılar. 18 İkinci ayın
birinci günündə bütün icmanı topladılar;
nəsillərinə və ailələrinə görə adlarının siyahısı
ilə iyirmi və ondan yuxarı yaşda olanlar ayrı-
ayrı yazıldılar. 19 Rəbbin Musaya əmr etdiyi
kimi onlar Sina səhrasında xalqı elə də
siyahıya aldılar.

20 İsrailin ilk oğlu Ruvenin övladlarından
iyirmi və ondan yuxarı yaşda döyüşə qabil
olan hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına ayrı-ayrı qeyd edildi.
21 Ruven qəbiləsindən sayılanlar 46 500 nəfər
siyahıya alındı.

22 Şimeon övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına ayrı-ayrı qeyd edildi. 23 Şimeon
qəbiləsindən 59 300 nəfər siyahıya alındı.

24 Qad övladlarından iyirmi və ondan yuxarı
yaşda döyüşə qabil olan hər kişi mənsub
olduğu nəsil və ailəyə görə adlar siyahısına
qeyd edildi. 25 Qad qəbiləsindən 45 650 nəfər
siyahıya alındı.

26 Yəhuda övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 27 Yəhuda qəbiləsindən
74 600 nəfər siyahıya alındı.

***1:1-46*** *– Say. 26:1-51*

28 İssakar övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 29 İssakar qəbiləsindən
54 400 nəfər siyahıya alındı.
30 Zevulun övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 31 Zevulun
qəbiləsindən 57 400 nəfər siyahıya alındı.
32 Yusif nəslindən – Efrayim övladlarından
iyirmi və ondan yuxarı yaşda döyüşə qabil
olan hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına qeyd edildi. 33 Efrayim
qəbiləsindən 40 500 nəfər siyahıya alındı.
34 Menaşşe övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 35 Menaşşe
qəbiləsindən 32 200 nəfər siyahıya alındı.
36 Binyamin övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 37 Binyamin
qəbiləsindən 35 400 nəfər siyahıya alındı.
38 Dan övladlarından iyirmi və ondan yuxarı
yaşda döyüşə qabil olan hər kişi mənsub
olduğu nəsil və ailəyə görə adlar siyahısına
qeyd edildi. 39 Dan qəbiləsindən 62 700 nəfər
siyahıya alındı.
40 Aşer övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adlar
siyahısına qeyd edildi. 41 Aşer qəbiləsindən 41
500 nəfər siyahıya alındı.
42 Naftali övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə adların
siyahısına qeyd edildi. 43 Naftali qəbiləsindən
53 400 nəfər siyahıya alındı.
44 Musa, Harun və İsrailin on iki rəhbəri
tərəfindən bunlar siyahıya alındı; hər biri
mənsub olduqları ailəni təmsil edirdi.
45 İsraildə iyirmi və ondan yuxarı yaşda
döyüşə qabil olan kişilərin hamısı mənsub
olduqları ailəyə görə siyahıya alındılar.
46 Siyahıya alınanlar cəmi 603 550 nəfər idi.
47 Lakin onların arasında Levililər ailələrinə
görə siyahıya alınmadı. 48 Çünki Rəbb
Musaya demişdi: 49 «Ancaq Levi qəbiləsini
siyahıya alma və digər İsrail övladlarını
aldığın siyahıya daxil etmə. 50 Şəhadət
məskəni ilə onun bütün avadanlığı və
məskənə aid olan hər şey üçün məs'uliyyəti
Levililərin üzərinə qoy. Məskəni və onun
bütün avadanlığını onlar daşısınlar, məskənə
baxsınlar və onun ətrafında düşərgə salsınlar.
51 Məskən daşınacağı zaman Levililər onu
toplasınlar. Məskən bir yerə qoyulacağı
zaman yenə Levililər onu qursunlar. Onlardan
savayı məskənə yaxınlaşan öldürülsün.
52 İsrail övladları öz çadırlarını bölüklərinə
görə qursunlar. Hər kəs öz düşərgəsində
bayrağının altında olsun. 53 Levililər isə
Şəhadət məskəni ətrafında düşərgə salsınlar ki,
İsrail icması Rəbbin qəzəbinə düçar olmasın.
Levililər Şəhadət məskəninə cavabdeh
olsunlar».
54 İsrail övladları bütün bunları Rəbbin
Musaya əmr etdiyi kimi etdilər.

### ***Qəbilələrin düşərgə yerləri***

2 1 Rəbb Musaya və Haruna dedi:
2 «İsrail övladları Hüzur çadırını əhatə
edərək bir az kənarda hər biri öz bayrağının
altında ailələrinin nişanı ilə düşərgə salsınlar.
3 Şərq tərəfində, gündoğana tərəf Yəhuda
ordugahına aid bölüklər öz bayraqlarının
altında düşərgə salsınlar. Yəhudalıların
rəhbəri Amminadav oğlu Naxşon olsun.
4 Yəhuda ordusunda 74 600 nəfər siyahıya
alındı. 5 Onun yanında düşərgə salanlar
İssakar qəbiləsi olacaq. İssakarlıların rəhbəri
Suar oğlu Netanel olsun. 6 Onun ordusundan
54 400 nəfər siyahıya alındı. 7 Sonra Zevulun
qəbiləsi düşərgə salacaq. Zevulun övladlarının
rəhbəri Xelon oğlu Eliav olsun. 8 Onun
ordusundan 57 400 nəfər siyahıya alındı.
9 Yəhuda ordugahından bölüklərinə görə
bütün sayılanlar 186 400 nəfər idi. Onlar
birinci köçəcəklər.
10 Cənub tərəfində Ruven ordugahına aid
bölüklər öz bayraqlarının altında düşərgə
salacaqlar. Ruvenlilərin rəhbəri Şedeur oğlu
Elisur olsun. 11 Ruven ordusundan 46 500
nəfər siyahıya alındı. 12 Onun yanında düşərgə
salanlar Şimeon qəbiləsi olacaq.
Şimeonluların rəhbəri Surişadday oğlu
Şelumiel olsun. 13 Onun ordusundan 59 300
nəfər siyahıya alındı. 14 Sonra Qad qəbiləsi
düşərgə salacaq. Qadlıların rəhbəri Deuel
oğlu Elyasaf olsun. 15 Onun ordusundan 45
650 nəfər siyahıya alındı. 16 Ruven

ordugahından bölüklərinə görə sayılanların
cəmi 151 450 nəfər idi. İkinci onlar
gedəcəklər.
17 Hüzur çadırı yola düşəndə Levililərin
düşərgəsi düşərgələrin ortasında dursun. Hərə
necə düşərgə salıbsa, həmin nizamla, öz
bayrağı altında yola düşsün.
18 Qərb tərəfində Efrayim ordugahına aid
bölüklər öz bayraqlarının altında düşərgə
salacaqlar. Efrayimlilərin rəhbəri Ammihud
oğlu Elişama olsun. 19 Efrayim ordusundan 40
500 nəfər siyahıya alındı. 20 Onun yanında
düşərgə salanlar Menaşşe qəbiləsi olacaq.
Menaşşelilərin rəhbəri Pedahsur oğlu Qamliel
olsun. 21 Onun ordusundan 32 200 nəfər
siyahıya alındı. 22 Sonra Binyamin qəbiləsi
düşərgə salacaq. Binyaminlilərin rəhbəri
Gidoni oğlu Avidan olsun. 23 Onun
ordusundan 35 400 nəfər siyahıya alındı.
24 Efrayim ordugahından bölüklərinə görə
sayılanların cəmi 108 100 nəfər idi. Üçüncü
onlar gedəcəklər.
25 Şimal tərəfində Dan ordugahına aid
bölüklər öz bayraqlarının altında düşərgə
salacaqlar. Danlıların rəhbəri Ammişadday
oğlu Axiezer olsun. 26 Dan ordusundan 62 700
nəfər siyahıya alındı. 27 Onun yanında düşərgə
salanlar Aşer qəbiləsi olacaq. Aşerlilərin
rəhbəri Okran oğlu Pagiel olsun. 28 Onun
ordusundan 41 500 nəfər siyahıya alındı.
29 Sonra Naftali qəbiləsi düşərgə salacaq.
Naftalililərin rəhbəri Enan oğlu Axira olsun.
30 Onun ordusundan 53 400 nəfər siyahıya
alındı. 31 Dan ordugahından cəmi 157 600
nəfər siyahıya alındı. Öz bayraqlarının altında
ən sonuncu onlar gedəcəklər».
32 İsrail övladlarından ailələrinə görə
siyahıya alınanlar bunlardır. Ordugahlardan
bölüklərinə görə cəmi 603 550 nəfər siyahıya
alındı. 33 Ancaq Rəbbin Musaya əmr etdiyi
kimi Levililər digər İsrail övladları ilə birgə
siyahıya alınmadı. 34 İsrail övladları Rəbbin
Musaya əmr etdiyi hər şeyi yerinə yetirdilər.
Bayraqlarının altında belə düşərgə saldılar və
hər kəs nəsil və ailəsi ilə birgə belə yola
düşdü.

### *Harun oğulları*

3 1 Rəbb Sina dağında Musa ilə danışdığı
zaman Harunla Musanın nəsil tarixçəsi
belədir. 2 Harun oğullarının adları belədir: ilk
doğulan Nadav, Avihu, Eleazar və İtamar.
3 Harun oğullarının kahinlik vəzifəsinə
keçirdiyi məsh olunmuş kahinlər bunlardır.
4 Nadav ilə Avihu Sina səhrasında Rəbbin
önündə haram od təqdim edərkən oradaca
öldülər. Onların övladları yox idi. Eleazarla
İtamar ataları Harunun yanında kahinlik
etdilər.
5 Rəbb Musaya dedi: 6 «Levi qəbiləsini gətir
və kahin Harunun önündə dayandır ki, ona
kömək etsinlər. 7 Qoy Hüzur çadırında Harun
və bütün icma üçün öz vəzifələrini yerinə
yetirərək müqəddəs məskənə xidmət etsinlər.
8 Hüzur çadırının bütün avadanlığına
baxsınlar və məskənə xidmət edərək İsrail
övladları üçün vəzifələrini yerinə yetirsinlər.
9 Levililəri Harunla oğullarının ixtiyarına ver;
onlar İsrail övladları arasından tamamilə
Onun xidmətinə verilmişdir. 10 Harunla
oğullarına tapşır ki, öz kahinlik vəzifələrini
yerinə yetirsinlər; müqəddəs yerə yaxınlaşan
kənar adam isə öldürülsün».
11 Rəbb Musaya dedi: 12 «Budur, hər İsrail
qadınının doğduğu ilk oğlan uşağının əvəzinə
İsraillilər arasından Levililəri seçmişəm.
Levililər Mənimdir. 13 Çünki bütün ilk
oğlanlar Mənimdir. Misir torpağında bütün ilk
oğlanları məhv etdiyim gün İsraildə istər
insan, istərsə heyvan – erkək doğulan bütün
ilk oğlanları Özüm üçün ayırdım. Onlar
Mənim olacaq. Rəbb Mənəm».

### *Levililərin vəzifələri*

14 Rəbb Sina səhrasında Musaya belə dedi:
15 «Levililəri ailələrinə, nəsillərinə görə
siyahıya al. Bir aylıq və ondan yuxarı yaşda
olan bütün kişi cinsindən olanları siyahıya al».
16 Musa da Rəbbin sözünə görə əmr edildiyi
kimi onları siyahıya aldı. 17 Adbaad Levi
oğulları bunlardır: Gerşon, Qohat və Merari.
18 Nəsillərinə görə Gerşonun nəsil başçısı olan
oğullarının adları belədir: Livni və Şimey.
19 Qohatın nəsil başçısı olan oğulları: Amram,
İshar, Xevron və Uzziel. 20 Merarinin nəsil
başçısı olan oğulları: Maxli və Muşi.
Ailələrinə görə Levi nəsilləri bunlardır.
21 Livni və Şimey nəsilləri Gerşon
nəslindəndir. Gerşon tayfaları bunlardır. 22 Bir

---

***3:2*** *– Say. 26:60*
***3:4*** *– Lev. 10:1-2; Say. 26:61*
***3:13*** *– Çıx. 13:2*

aylıq və ondan yuxarı yaşda olan bütün kişi
cinsindən 7500 nəfər siyahıya alındı.
23 Gerşon nəsilləri qərb tərəfində məskənin
arxasında düşərgə salmalıdırlar. 24 Gerşon
nəslinə mənsub olan ailələrin rəhbəri Lael
oğlu Elyasafdır. 25 Hüzur çadırında Gerşon
övladları Müqəddəs məskən, çadır örtüklərinə,
Hüzur çadırının girişində olan arakəsməyə,
26 həyətin pərdələrinə, məskənlə qurbangahın
ətrafındakı həyətin darvazasının arakəsməsi
ilə iplərinə və bunlarla əlaqədar olan bütün
xidmətə cavabdehdirlər.

27 Amram, İshar, Xevron və Uzziel nəsilləri
Qohat nəslindəndir. Qohat nəsilləri bunlardır.
28 Bir aylıq və ondan yuxarı yaşda olan bütün
kişi cinsindən 8600 nəfər siyahıya alındı.
Onlar müqəddəs əşyalara cavabdehdirlər.
29 Qohat nəsilləri çadırın cənub tərəfində
düşərgə salmalıdırlar. 30 Qohat nəsillərinə
mənsub ailələrin rəhbəri Uzziel oğlu
Elisafandır. 31 Onlar sandığa, masaya,
çıraqdana, qurbangahlara, müqəddəs yerdə
ibadət üçün işlənən bütün əşyalara, arakəsmə
pərdəsinə və bunlarla əlaqədar olan bütün
xidmətə cavabdehdirlər. 32 Levili rəhbərlərinin
rəhbəri kahin Harun oğlu Eleazardır. O,
Müqəddəs yerə cavabdeh olanlara nəzarətçi
tə'yin edilmişdir.

33 Maxli və Muşi nəsilləri Merari
nəslindəndir. Merari nəsilləri bunlardır. 34 Bir
aylıq və ondan yuxarı yaşda olan bütün kişi
cinsindən 6200 nəfər siyahıya alındı. 35 Merari
nəsillərinə mənsub ailələrin rəhbəri Avixayil
oğlu Surieldir. Onlar məskənin şimal
tərəfində düşərgə salmalıdırlar. 36 Merarililərə
məskənin çərçivələri, şüvülləri, dirəkləri,
altlıqları, bütün avadanlığı və bunlarla
əlaqədar bütün xidmət, 37 məskənin
ətrafındakı həyətin dirəkləri ilə altlıqları,
payaları və ipləri həvalə olundu.

38 Musa və Harun ilə oğulları məskənin şərq
tərəfində, gündoğana doğru Hüzur çadırının
önündə düşərgə salmalıdırlar. Onlar İsrail
övladları üçün öz vəzifələrini yerinə yetirərək
müqəddəs məkana cavabdehdirlər. Oraya
yaxınlaşan kənar adam öldürülməlidir.

39 Rəbbin əmri ilə Musa və Harunun Levi
nəsillərindən saydıqları bir aylıq və ondan
yuxarı yaşda kişi cinsindən olanlar cəmi 22
000 nəfər idi.

40 Rəbb Musaya dedi: «Bir aylıq və ondan
yuxarı yaşda kişi cinsindən olan, ilk doğulan
bütün İsrail övladlarını adları ilə siyahıya al.
41 İsrail övladlarının bütün ilk oğlanlarının
əvəzinə Levililəri və İsraillilərin ilk doğulan
heyvanlarının əvəzinə Levililərin heyvanlarını
Mənim üçün ayır. Rəbb Mənəm». 42 Musa
Rəbbin ona əmr etdiyi kimi etdi. İsrail
övladları arasında bütün ilk doğulanları
siyahıya aldı. 43 Adları qeyd edilən, bir aylıq
və ondan yuxarı yaşda ilk doğulan kişi
cinsindən olanlar cəmi 22 273 nəfər idi.

44 Rəbb Musaya dedi: 45 «Levililəri İsrail
övladlarının ilk doğulanlarının əvəzinə və
Levililərin heyvanlarını onların heyvanları
əvəzinə ayır. Levililər Mənim olacaq; Rəbb
Mənəm». 46 İsraillilərin ilk oğlanlarından olub
Levililərin sayını aşan 273 nəfəri satın almaq
məqsədi ilə, 47 hər adam üçün hər şekeldə
iyirmi gera olan Müqəddəs yerdəki şekelə
görə beş şekel götür. 48 Onları Levililərin
sayını aşanları satın almaq haqqı olaraq
Haruna və oğullarına ver. 49 Musa Levililərlə
əvəz olanların sayını aşan İsrail övladlarından
satın almaq haqqını götürdü. 50 İsrail
övladlarının ilk oğlanlarından Müqəddəs
yerdəki şekelə görə 1365 şekel aldı. 51 Musa
Rəbbin sözünə görə, Rəbbin ona əmr etdiyi
kimi satın alma haqqını Harunla oğullarına
verdi.

### *Qohat övladlarının vəzifələri*

4 1 Rəbb Musaya və Haruna dedi:
2 «Levililər arasından Qohat övladlarına
mənsub nəsillərlə ailələri siyahıya alın.
3 Hüzur çadırında xidmət etməyə gələn otuz
yaşından əlli yaşına qədər kişilərin hamısını
hesablayın. 4 Qohatlıların Hüzur çadırında
xidməti budur: ən müqəddəs əşyalara baxmaq.
5 Düşərgə yola düşəndə Harunla oğulları içəri
girsinlər, arakəsmə pərdəsini endirərək onunla
Şəhadət sandığını örtsünlər. 6 Onun üzərinə
suiti dərisindən örtük çəkərək üstünə
büsbütün bənövşəyi kətan sərsinlər və onun
şüvüllərini yerinə qoysunlar.

7 Təqdis masası üzərinə bənövşəyi kətan
sərərək kətanın üstündə sinilər, nimçələr,
dolçalar və maye təqdimi tökmək üçün
piyalələr olmalıdır. Daimi çörək onun
üzərində qalsın. 8 Onların üzərinə al rəngli bir
kətan sərərək suiti dərisindən bir örtük
çəksinlər və onun şüvüllərini yerinə qoysunlar.

9 Bənövşəyi kətan götürüb, işıq verəcək
çıraqdanı, çıraqlarını, maşalarını,

xəkəndazlarını və çıraqdan xidmətində
işlədilən bütün zeytun yağı qablarını örtsünlər.
10 Çıraqdanı və onun bütün avadanlığını suiti
dərisindən bir örtüklə sarıyıb xərəyə
qoysunlar.

11 Qızıl qurbangahın üzərinə bənövşəyi
kətan sərərək onu suiti dərisindən bir örtüklə
örtsünlər və şüvüllərini taxsınlar. 12 Müqəddəs
yerdə ibadət zamanı işlədilən bütün əşyaları
götürərək bənövşəyi kətanla sarısınlar və suiti
dərisindən bir örtüklə örtüb xərəyə qoysunlar.
13 Qurbangahdan külü təmizləyib, üzərinə
tünd qırmızı kətan çəksinlər. 14 İbadət zamanı
işlədilən bütün əşyaları: xəkəndazı, çəngəlləri,
kürəkləri, ləyənləri, qurbangahın bütün
avadanlığını onun üzərinə qoysunlar. Sonra
bunların üstünü suiti dərisindən bir örtüklə
örtüb şüvüllərini taxsınlar.

15 Düşərgə yola düşəndə Harunla oğulları
müqəddəs əşyaları və bütün avadanlığı
örtməyi qurtarandan sonra Qohatlılar onu
daşımağa gəlsinlər. Amma müqəddəs şeylərə
toxunmamalıdırlar ki, ölməsinlər. Hüzur
çadırında olan bu şeyləri daşımaq
məs'uliyyəti Qohatlılara aiddir.

16 Kahin Harun oğlu Eleazarın işi çıraq
üçün zeytun yağına, ətirli buxura, daimi taxıl
təqdimi və məsh yağına nəzarət etməkdir. O
bütün məskənə və içində olan hər şeyə,
müqəddəs yerlə avadanlığına nəzarət
edəcəkdir».

17 Rəbb Musaya və Haruna dedi:
18 «Qoymayın ki Levililər arasından
Qohatlıların nəsilləri yox olsun. 19 Ancaq ən
müqəddəs şeylərə yaxınlaşdıqları zaman
ölməyib sağ qalsınlar deyə Harunla oğulları
içəri girib onların hərəsini öz işinin üstünə və
öz yükünün başında qoysun. 20 Lakin
Qohatlılar bir an belə, içəri girib müqəddəs
əşyalara baxmasınlar, yoxsa ölərlər».

### *Gerşon övladlarının vəzifələri*

21 Rəbb Musaya belə dedi: 22 «Gerşonluları
da mənsub olduqları ailələrə və nəsillərə görə
siyahıya al. 23 Onlardan otuz yaşından əlli
yaşına qədər olanların hamısını siyahıya al.
Qoy xidmət edib Hüzur çadırında iş görmək
üçün gəlsinlər. 24 İş görmək və yük daşımaq
xüsusunda Gerşon nəsillərinin vəzifəsi budur:
25 Müqəddəs məskənin pərdələrini, Hüzur
çadırı ilə onun örtüyünü, üzərindəki suiti
dərisindən xarici örtüyü, Hüzur çadırının
girişində olan arakəsməni, 26 həyətin
pərdələrini və qurbangahın ətrafındakı həyətin
darvazasının arakəsməsi ilə iplərini və onların
ibadət üçün işlənən bütün əşyalarını daşısınlar;
bu şeylərlə görüləcək bütün işləri Gerşonlular
görsünlər. 27 İstər yük daşımaq, istərsə başqa
iş görmək, edəcəkləri bütün xidmətlər
Harunla oğullarının rəhbərliyi ilə görülsün.
Gerşonlular daşıyacaqları hər yükə cavabdeh
olsunlar. 28 Hüzur çadırında Gerşon
nəsillərinin xidməti budur. Onların vəzifələri
kahin Harun oğlu İtamarın nəzarəti altında
olsun.

### *Merari övladlarının vəzifələri*

29 Merarililəri mənsub olduqları nəsillərə və
ailələrə görə siyahıya al. 30 Otuz yaşından əlli
yaşına qədər Hüzur çadırının işini görmək
üçün gələnlərin hamısını siyahıya al. 31 Hüzur
çadırında xidmət edərkən onların vəzifəsi
budur: məskənin çərçivələrini, şüvüllərini,
dirəklərini, altlıqlarını 32 çadırın ətrafındakı
həyətin dirəkləri ilə altlıqlarını, payalarını,
iplərini, bütün avadanlığını və işlətdikləri hər
şeyi daşımaq. Hər kəsi adbaad tə'yin et ki,
müəyyən əşyaları daşısın. 33 Hüzur çadırında
Merari nəsillərinin vəzifəsi budur. Onlar
kahin Harun oğlu İtamarın nəzarəti altında
xidmət edəcəklər».

### *Levililərin siyahıya alınması*

34 Musa ilə Harun və icma başçıları,
Qohatlılardan nəsillərə və ailələrə görə 35 otuz
yaşından əlli yaşına qədər Hüzur çadırına
xidmət edib iş görmək üçün gələn kişilərin
hamısını siyahıya aldılar. 36 Nəsillərinə görə 2
750 nəfər siyahıya alındı. 37 Hüzur çadırında
xidmət edən Qohat nəsillərinə mənsub
kişilərin cəmi bu idi. Rəbbin Musa vasitəsilə
verdiyi əmrə görə Musa ilə Harun onları
siyahıya aldılar.

38 Gerşonlulardan nəsillərinə və ailələrinə
görə 39 otuz yaşından əlli yaşına qədər Hüzur
çadırına xidmət edib iş görmək üçün gələn
kişilərin hamısı siyahıya alındı. 40 Nəsillərinə
və ailələrinə görə 2630 nəfər siyahıya alındı.
41 Gerşon nəslindən siyahıya alınan, Hüzur
çadırında xidmət edən kişilərin cəmi bu idi.
Rəbbin əmrinə görə Musa ilə Harun onları
siyahıya aldılar.

42 Merari övladlarından nəsillərinə və
ailələrinə görə 43 otuz yaşından əlli yaşına
qədər Hüzur çadırına xidmət edib iş görmək

üçün gələn kişilərin hamısı siyahıya alındı.
44 Nəsillərinə görə 3200 nəfər siyahıya alındı.
45 Hüzur çadırında xidmət edən Merari
nəsillərinə mənsub kişilərin cəmi bu idi.
Rəbbin Musa vasitəsi ilə verdiyi əmrə görə
Musa ilə Harun onları siyahıya aldılar.

46 Musa ilə Harun və İsrail rəhbərləri,
nəsillərinə və ailələrinə görə bütün Levililəri,
47 otuz yaşından əlli yaşına qədər, Hüzur
çadırında xidmət etmək və yük daşımaq üçün
gələn kişilərin hamısını siyahıya aldılar.
48 8580 nəfər siyahıya alındı. 49 Rəbbin əmrinə
görə hər biri edəcəyi xidmətə və daşıyacağı
yükə görə Musanın nəzarəti ilə siyahıya
alındılar; onlar Rəbbin Musaya əmr etdiyi
kimi siyahıya alındılar.

### *Düşərgənin paklığı*

5 1 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et ki, bütün iyrənc dəri
xəstəliyi və xəstəliyə görə bədən axıntısı olan
yaxud da meyitdən murdarlanan hər kəsi
düşərgədən çıxarsınlar. 3 Onlar istər kişi olsun,
istər qadın, arasında olduğum düşərgələrini
murdar etməsinlər, onları düşərgədən çıxarın».
4 İsrail övladları beləcə etdilər: onları
düşərgədən çıxardılar. Rəbb Musaya necə
söylədisə, İsrail övladları elə də etdilər.

### *Günah üçün ödəmə*

5 Rəbb Musaya dedi: 6 «İsrail övladlarına
söylə: "İnsanların işlətdiyi günahlardan birini
edərək Rəbbə xəyanət edən kişi yaxud qadın
təqsirkardır". 7 Qoy o işlətdiyi günahı e'tiraf
edib təqsirinin əvəzinin beşdə birini əlavə
edərək qarşısında təqsirkar olan adama ödəsin.
8 Əgər o adamın təqsirinin əvəzini ala biləcək
qohumu yoxdursa, ödənəcək əvəz Rəbb üçün
verilsin; qoy bu təqsirkar üçün verdiyi kəffarə
təkəsi ilə birlikdə kahininki olsun. 9 İsrail
övladlarının kahinə təqdim etdikləri bütün
müqəddəs ianələr kahinə məxsusdur. 10 Hər
kəsin özü üçün təqdis etdiyi əşyalar özünə
məxsusdur, amma kahinə nə verərlərsə,
kahinə aiddir».

### *Xəyanətdə ittiham edilən qadınlar*

11 Rəbb Musaya belə dedi: 12 «İsrail
övladlarına belə söylə: "Bir kişinin arvadı əyri
yola düşüb ona xəyanət etsə və 13 başqa kişi
ilə yaxınlıq edib cinsi əlaqədə olduğu ərindən
gizlədilirsə və beləcə qadının murdar işi
ortaya çıxmamışsa, heç bir şahid olmadığı
üçün günah üstündə tutulmamışsa, 14 əri
qısqanclığa qapılıb murdar iş görən
arvadından şübhələnməyə başlayarsa yaxud
arvadı murdar iş görmədiyi halda yenə
qısqanclığa qapılıb ondan şübhələnərsə, 15 kişi
arvadını kahinin yanına aparsın və arvadı
üçün təqdim olaraq istənilən efanın onda biri
qədər arpa unu gətirsin. Onun üzərinə nə
zeytun yağı töksün, nə də kündür qoysun,
çünki bu qısqanclıq üçün taxıl təqdimidir.
Təqsirkarlığı xatırladan xatirə təqdimidir.

16 Kahin qadını Rəbbin hüzuruna gətirsin;
17 gil qaba müqəddəs su alaraq müqəddəs
məskənin döşəməsindən toz götürüb suya
salsın. 18 Kahin qadını Rəbbin önündə
dayandıraraq onun saçını dağıtsın. Sonra
xatirə təqdimini onun ovuclarına qoysun. Bu,
qısqanclıq üçün taxıl təqdimidir. Kahinin
əlində isə lə'nət gətirən acı su olacaq. 19 Kahin
qadına and içdirib desin: ‹Əgər sən başqa kişi
ilə yaxınlıq etməmisənsə, ərinin nikahı altında
olaraq əyri yola düşüb murdarlıq etməmisənsə,
lə'nət gətirən bu acı su sənə zərər vurmayacaq.
20 Lakin əri ilə nikahda olaraq əyri yola
düşərək ərindən başqa bir kişi ilə yaxınlıq
edib murdar olmusansa› 21 onda kahin qadına
lə'nət andını içdirib belə desin: ‹Rəbb sənin
bətnini sonsuz edib qarnını şişirtdiyi zaman
səni xalqının içində lə'nət və töhmətə düçar
etsin. 22 Lə'nət gətirən bu su sənin qarnını
şişirtmək və bətnini sonsuz etmək üçün
bağırsaqlarına daxil olsun›. Qadın ‹Amin,
amin!› desin.

23 Kahin bu lə'nətləri bir tumara yazsın və
acı suda islatsın, 24 sonra lə'nət gətirən acı
suyu qadına içirtsin. Lə'nət gətirən su onun
bətninə girəcək və acı olacaq. 25 Kahin
qısqanclıq üçün taxıl təqdimini qadının
əlindən alsın və Rəbbin hüzurunda
yellədikdən sonra qurbangaha gətirsin.
26 Xatirə təqdimi olaraq taxıl təqdimindən
ovuc dolusu götürsün və qurbangahda
tüstülədib yandırsın, sonra qadına suyu
içirtsin. 27 Qadına suyu içirdikdən sonra əgər
qadın murdar olub ərinə xəyanət etmişsə,
lə'nət gətirən su onun bətninə girəcək və
acılıq verəcək; onun qarnı şişəcək, bətni
sonsuz olacaq və özü xalqının arasında
lə'nətlənəcəkdir. 28 Əgər qadın murdarlıq
etməmişsə və pakdırsa, su zərər vurmayacaq
və uşaq doğa biləcəkdir.

---

***5:5-8** – Lev. 6:1-7*

[29] Qısqanclığa aid olan qanun belədir: bir
qadın əri ilə nikahda olaraq əyri yola düşüb
murdar olanda [30] yaxud bir kişi qısqanclığa
qapılıb arvadından şübhələnəndə kahin qadını
Rəbbin hüzurunda qoysun və ona bütün bu
qanunu icra etsin. [31] Kişi əbəs yerə
şübhələnirsə, cəzasız qalsın, o qadın isə öz
günahının cəzasını çəksin"».

### *Nəzirilik andı*

6 [1] Rəbb Musaya belə dedi: [2] «İsrail
övladlarına söylə və onlara əmr et: "Bir
kişi və yaxud bir qadın nəzirilik əhdi edib
özünü Rəbbə həsr edərsə, [3] şərabdan və
keflləndirən içkidən çəkinsin. Hətta şərab
sirkəsi də, keflləndirən içkidən hazırlanmış
sirkə də, üzüm suyu da içməsin; nə üzüm, nə
də kişmiş yesin. [4] Nəziri olduğu müddətdə
çəyirdəkdən qabığa qədər meynədən istehsal
edilmiş heç bir şey yeməsin.

[5] Nəziri olduğu bütün müddətdə başına
ülgüc dəyməsin, saçını uzatsın; özünü Rəbbə
həsr etdiyi müddət qurtarana qədər müqəddəs
olsun.

[6] Özünü Rəbbə həsr etdiyi günlərdə meyitə
yaxınlaşmasın. [7] Atası və anası, qardaşı və
bacısı ölsə, onlara görə özünü murdar etməsin;
çünki özünü Allahına həsretmə rəmzi onun
başı üzərindədir. [8] Nəziri olduğu bütün
müddətdə o, Rəbbə həsr edilmişdir.

[9] Əgər yanında bir adam birdən-birə
qəflətən ölsə və nəzirinin saçını murdar eləsə,
o təmiz olduğu gün – yeddinci gün başını
qırxdırsın. [10] Səkkizinci gün Hüzur çadırının
girişində kahinə iki qumru quşu yaxud iki
göyərçin gətirsin. [11] Kahin birini günah
qurbanı və o birini yandırma qurbanı kimi
təqdim etsin ki, nəzirinin günahı üçün kəffarə
olsun, çünki meyitlə bir yerdə olmaqla o
günah işlətdi. Həmin gün yenidən başını
təqdis etsin. [12] Nəziri olduğu müddətdə özünü
Rəbbə yenidən həsr etsin və təqsir qurbanı
olaraq birillik erkək toğlu gətirsin. Əvvəlki
günlər isə boşa getsin, çünki nəziriliyi
murdarlanmışdır.

[13] Nəziriyə aid olan qanun budur: özünü
həsr etdiyi müddət qurtaranda nəziri Hüzur
çadırının girişinə gətirilsin. [14] Orada Rəbbə bu
təqdimləri gətirsin: yandırma qurbanı olaraq
birillik qüsursuz bir erkək toğlu, günah
qurbanı olan birillik qüsursuz bir dişi toğlu,
ünsiyyət qurbanı olan qüsursuz bir qoç, [15] bir
səbət mayasız çörək, narın undan zeytun yağı
ilə yoğrulmuş mayasız kökələrdən və üstünə
zeytun yağı sürtülmüş mayasız qoğallardan
ibarət olan taxıl təqdimləri və maye
təqdimləri. [16] Kahin Rəbbin önündə onları
təqdim etsin; günah qurbanını və yandırma
qurbanını gətirsin. [17] Mayasız çörək səbəti ilə
birgə qoçu Rəbbə ünsiyyət qurbanı kimi
gətirsin; kahin onun taxıl təqdimi ilə maye
təqdimini də gətirsin. [18] Nəziri Hüzur çadırının
girişində öz həsr etdiyi saçını qırxsın, sonra
saçını götürüb ünsiyyət qurbanının altındakı
oda qoysun. [19] Nəziri həsr etdiyi saçını
qırxdıqdan sonra kahin qoçun bişmiş bir
qolunu, səbətdən götürdüyü mayasız bir kökə
və mayasız bir qoğal ilə birgə nəzirinin
ovuclarına qoysun. [20] Sonra yellətmə təqdimi
kimi onları Rəbbin hüzurunda yellətsin. Onlar
yellədilən döş əti və qaldırılan budla birgə
müqəddəsdir, kahinə məxsusdur. Ondan sonra
nəziri şərab içə bilər.

[21] Özünü həsr etdiyinə görə Rəbbə
təqdimini və buna əlavə olaraq verə biləcəyi
başqa şeyləri əhd edən nəziri ilə əlaqədar
qanun budur. Nəzirilik qanuna görə nəziri nə
əhd etmişsə, onu icra etməlidir"».

### *Kahinlərin xeyir-duası*

[22] Rəbb Musaya dedi: [23] «Harun və
oğullarına belə de: İsrail övladlarına belə
xeyir-dua verin:

[24] "Qoy Rəbb sizə xeyir-dua verib sizi
qorusun;
[25] Rəbb Öz nurlu üzünü sizə göstərərək
lütf versin.
[26] Rəbb üzünü sizə tərəf çevirsin, sizə
sülh versin".

[27] Beləcə kahinlər Mənim adımla İsrail
övladlarına xeyir-dua verəndə Mən də onlara
xeyir-dua verəcəyəm».

### *Rəhbərlərin təqdimləri*

7 [1] Musa məskəni qurub qurtaranda onu
və bütün avadanlığını məsh və təqdis etdi.
Qurbangah və bütün avadanlığını da məsh və
təqdis etdi. [2] Sonra İsrail rəhbərləri təqdimləri
gətirdilər. Onlar nəsil başçıları, siyahıya
alınan xalqa nəzarət edən qəbilə rəhbərləri
idilər. [3] Rəbbə təqdim olaraq üstü örtülü altı
araba və on iki öküz gətirdilər; hər iki rəhbər
üçün bir araba və hər rəhbər üçün bir öküz.

---

***6:3*** *– Luk. 1:15*
***6:13-21*** *– Həv. 21:23-24*

Bu təqdimləri məskənin önünə gətirdilər.
4 Rəbb Musaya belə dedi: 5 «Onları bu
adamlardan götür ki, Hüzur çadırındakı
xidmətlərdə işlənilsin. Onları Levililərə, hər
birinin vəzifəsinə görə ver».

6 Musa arabaları və öküzləri götürüb
Levililərə verdi. 7 Gerşonlulara vəzifələrinə
görə iki araba və dörd öküz verdi;
8 Merarililərə isə vəzifələrinə görə dörd araba
və səkkiz öküz verdi. Onların hamısı kahin
Harun oğlu İtamarın nəzarəti altında idi.
9 Lakin Qohatlılara bir şey vermədi, çünki
onların vəzifəsi müqəddəs əşyaları
çiyinlərində daşımaqdır.

10 Qurbangah məsh ediləndə rəhbərlər onun
təqdisi üçün təqdimlərini gətirib qurbangahın
qabağına təqdim etdilər. 11 Çünki Rəbb
Musaya demişdi: «Qurbangahın təqdisi üçün
hər gün bir rəhbər təqdimini gətirsin».

12 Birinci gün təqdimi gətirən Yəhuda
qəbiləsindən Amminadav oğlu Naxşon oldu.
13 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın unla dolu idi;
14 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 15 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 16 günah qurbanı
olaraq bir təkə; 17 və ünsiyyət qurbanı olaraq
iki öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Amminadav oğlu Naxşonun gətirdiyi
təqdimlər bunlar idi.

18 İkinci gün İssakarlıların rəhbəri Suar oğlu
Netanel təqdimlərini gətirdi. 19 Onun
təqdimləri bunlar idi: Müqəddəs yerdəki
şekelə görə yüz otuz şekel ağırlığında bir
gümüş sini; yetmiş şekellik bir gümüş ləyən –
bunların ikisi də taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş narın unla dolu idi;
20 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 21 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 22 günah qurbanı
olaraq bir təkə; 23 qurban ediləcək ünsiyyət
qurbanı olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Suar oğlu Netanelin gətirdiyi
təqdimlər bunlar idi.

24 Üçüncü gün Zevulunluların rəhbəri Xelon
oğlu Eliav təqdimlərini gətirdi. 25 Onun
təqdimləri bunlar idi: Müqəddəs yerdəki
şekelə görə yüz otuz şekel ağırlığında bir
gümüş sini, yetmiş şekellik bir gümüş ləyən –
bunların ikisi də taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş narın unla dolu idi;
26 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 27 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 28 günah qurbanı
olaraq bir təkə; 29 qurban ediləcək ünsiyyət
qurbanı olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Xelon oğlu Eliavın gətirdiyi
təqdimlər bunlar idi.

30 Dördüncü gün Ruvenlilərin rəhbəri
Şedeur oğlu Elisur təqdimlərini gətirdi.
31 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın unla dolu idi;
32 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 33 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 34 günah qurbanı
olaraq bir təkə; 35 qurban ediləcək ünsiyyət
qurbanı olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Şedeur oğlu Elisurun gətirdiyi
təqdimlər bunlar idi.

36 Beşinci gün Şimeonluların rəhbəri
Surişadday oğlu Şelumiel təqdimlərini gətirdi.
37 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın un ilə dolu idi;
38 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 39 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 40 günah qurbanı
olaraq bir təkə; 41 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Surişadday oğlu Şelumielin gətirdiyi
təqdimlər bunlar idi.

42 Altıncı gün Qadlıların rəhbəri Deuel oğlu
Elyasaf təqdimlərini gətirdi. 43 Onun
təqdimləri bunlar idi: Müqəddəs yerdəki
şekelə görə yüz otuz şekel ağırlığında bir
gümüş sini, yetmiş şekellik bir gümüş ləyən –
bunların ikisi də taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş narın unla dolu idi;
44 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 45 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 46 günah qurbanı
olaraq bir təkə; 47 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Deuel oğlu Elyasafın gətirdiyi təqdimlər
bunlar idi.

48 Yeddinci gün Efrayimlilərin rəhbəri
Ammihud oğlu Elişama təqdimlərini gətirdi.
49 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın unla dolu idi;
50 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 51 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 52 günah qurbanı
olaraq bir təkə; 53 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Ammihud oğlu Elişamanın gətirdiyi təqdimlər
bunlar idi.

54 Səkkizinci gün Menaşşelilərin rəhbəri
Pedahsur oğlu Qamliel təqdimlərini gətirdi.
55 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın unla dolu idi;
56 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 57 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 58 günah qurbanı
olaraq bir təkə; 59 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Pedahsur oğlu Qamlielin gətirdiyi təqdimlər
bunlar idi.

60 Doqquzuncu gün Binyaminlilərin rəhbəri
Gidoni oğlu Avidan təqdimlərini gətirdi.
61 Onun təqdimləri bunlar idi: Müqəddəs
yerdəki şekelə görə yüz otuz şekel ağırlığında
bir gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş narın unla dolu idi;
62 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 63 yandırma qurbanı olaraq bir buğa,
bir qoç, bir erkək toğlu; 64 günah qurbanı
olaraq bir təkə; 65 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, beş erkək toğlu.
Gidoni oğlu Avidanın gətirdiyi təqdimlər
bunlar idi.

66 Onuncu gün Danlıların rəhbəri
Ammişadday oğlu Axiezer təqdimlərini
gətirdi. 67 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz şekel
ağırlığında bir gümüş sini, yetmiş şekellik bir
gümüş ləyən – bunların ikisi də taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş narın unla
dolu idi; 68 buxur dolu on şekel ağırlığında bir
qızıl nimçə; 69 yandırma qurbanı olaraq bir
dana, bir qoç, bir erkək toğlu; 70 günah
qurbanı olaraq bir təkə; 71 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə, beş erkək
toğlu. Ammişadday oğlu Axiezerin gətirdiyi
təqdimlər bunlar idi.

72 On birinci gün Aşerlilərin rəhbəri Okran
oğlu Pagiel təqdimlərini gətirdi. 73 Onun
təqdimləri bunlar idi: Müqəddəs yerdəki
şekelə görə yüz otuz şekel ağırlığında bir
gümüş sini, yetmiş şekellik bir gümüş ləyən –
bunların ikisi də taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş narın unla dolu idi;
74 buxur dolu on şekel ağırlığında bir qızıl
nimçə; 75 yandırma qurbanı olaraq bir dana,
bir qoç, bir erkək toğlu; 76 günah qurbanı
olaraq bir təkə; 77 ünsiyyət qurbanı olaraq iki
öküz, beş qoç, beş təkə, birillik beş erkək
toğlu. Okran oğlu Pagielin gətirdiyi təqdimlər
bunlar idi.

78 On ikinci gün Naftalililərin rəhbəri Enan
oğlu Axira təqdimlərini gətirdi. 79 Onun
təqdimləri bunlar idi: Müqəddəs yerdəki
şekelə görə yüz otuz şekel ağırlığında bir
gümüş sini, yetmiş şekellik bir gümüş ləyən –
bunların ikisi də taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş unla dolu idi; 80 buxur dolu
on şekel ağırlığında bir qızıl nimçə;
81 yandırma qurbanı olaraq bir buğa, bir qoç,
bir erkək toğlu; 82 günah qurbanı olaraq bir
təkə; 83 ünsiyyət qurbanı olaraq iki öküz, beş
qoç, beş təkə, beş erkək toğlu. Enan oğlu
Axiranın gətirdiyi hədiyyələr bunlar idi.

84 Qurbangah məsh ediləndə İsrail
rəhbərlərinin onun təqdisi üçün gətirdiyi
təqdimlər bunlardır: on iki gümüş sini, on iki
gümüş ləyən, on iki qızıl nimçə; 85 hər gümüş
nimçənin ağırlığı yüz otuz şekel və hər
ləyənin ağırlığı isə yetmiş şekel idi; bütün
gümüş qabların ağırlığı Müqəddəs yerdəki
şekelə görə iki min dörd yüz şekel idi;
86 buxurla dolu on iki qızıl nimçədən hər
birinin ağırlığı Müqəddəs yerdəki şekelə görə
on şekel olub. Beləliklə, nimçələrdəki bütün
qızılın ağırlığı yüz iyirmi şekel idi;
87 yandırma qurbanı olaraq, taxıl təqdimləri ilə
birlikdə heyvanların cəmi on iki buğa, on iki
qoç, on iki erkək toğlu və günah qurbanı
olaraq on iki təkə; 88 ünsiyyət qurbanı üçün
heyvanların cəmi iyirmi dörd buğa, altmış qoç,
altmış təkə, altmış erkək toğlu. Qurbangah
məsh ediləndən sonra onun təqdisi üçün
verilən təqdimlər bunlar idi.

89 Musa Rəbb ilə danışmaq üçün Hüzur
çadırına girdiyi zaman Şəhadət sandığında
olan kəffarə qapağının üzərindəki iki keruvun
arasından ona xitab edən Rəbbin səsini
eşidərdi. Rəbb Musa ilə danışardı.

### *Yeddi çıraq*

8 1 Rəbb Musaya belə dedi: 2 «Haruna de:
“Yeddi çırağı elə qoy ki, çıraqdanın
önünü işıqlandırsın”».
3 Harun belə etdi; Rəbbin Musaya əmr
etdiyi kimi çıraqları çıraqdanın önündə
yerləşdirdi. 4 Çıraqdanın quruluşu belə idi:
altlığından gül təsvirlərinə qədər yastılanmış
qızıldan hazırlanmışdı. Çıraqdan Rəbbin
Musaya göstərdiyi nümunəyə görə
düzəldilmişdi.

### *Levililərin tə’yin edilməsi*

5 Rəbb Musaya dedi: 6 «İsrail övladlarının
arasından Levililəri götür və onları pak et.
7 Onları pak etmək üçün belə et: paklama
suyunu üzərlərinə çilə, sonra bədənlərindəki
bütün tükləri qırxıb geyimlərini yusunlar.
Beləliklə, pak olarlar. 8 O zaman bir buğa və
onun taxıl təqdimi olan zeytun yağı ilə
yoğrulmuş narın un götürsünlər. Günah
qurbanı olaraq yenə bir buğa götür. 9 Levililəri
Hüzur çadırının önünə gətir. İsrail
övladlarının bütün icmasını da topla.
10 Levililəri Rəbbin önünə gətirdikdə qoy
İsrail övladları əllərini onların üzərinə
qoysunlar. 11 Harun yellətmə təqdimi olaraq
İsrail övladlarının arasından Levililəri Rəbbin
önünə gətirəcək ki, Rəbbə xidmət etsinlər.
12 Levililər əllərini buğaların başlarına
qoysunlar; birini günah qurbanı və o birini
yandırma qurbanı olaraq Rəbbə gətir ki,
Levililər üçün kəffarə olunsun. 13 Levililəri
Harunla oğullarının önündə dayandır. Sonra
da onları Rəbbə gətirib yellətmə təqdimi
olaraq həsr edəcəksən.
14 Levililəri İsrail övladları arasından beləcə
ayır ki, Levililər Mənim olsun. 15 Levililəri
pak edib gətirib yellətmə təqdimi olaraq həsr
edəndən sonra onlar Hüzur çadırında xidmət
etmək üçün içəri girə bilərlər. 16 Çünki İsrail
övladları arasından onlar tamamilə Mənə
verilmişdir; İsrailli qadınların doğduğu bütün
ilk oğlanların əvəzinə onları Özümə götürdüm.

***8:1-4*** *– Çıx. 25:31-40; 37:17-24*

17 İsrail övladları arasında ilk doğulan bütün
oğlanlar və bütün heyvan balaları Mənimdir;
Misir diyarında bütün ilk oğlanları məhv
etdiyim gün onları Özümə təqdis etdim.
18 Ona görə də İsrail övladları arasında bütün
ilk oğlanların yerinə Levililəri götürdüm.
19 İsrail övladları arasından Levililəri Haruna
və oğullarına hədiyyə olaraq verdim ki, Hüzur
çadırında İsrail övladları üçün xidməti yerinə
yetirib kəffarə etsinlər və beləcə Müqəddəs
yerə yaxınlaşan İsraillilləri bəlaya düçar
olmaqdan qorusunlar».
20 Musa ilə Harun və bütün İsrail icması
Levililər üçün deyilənləri etdilər. İsrail
övladları Rəbbin Levililər haqqında Musaya
əmr etdiyi hər şeyi yerinə yetirdilər.
21 Levililər özlərini pak edib geyimlərini
yudular. Harun onları Rəbbin önünə gətirib
yellədilən təqdim olaraq həsr etdi və onlar
üçün kəffarə etdi ki, pak olsunlar. 22 Ondan
sonra Levililər, Harunla oğullarının nəzarəti
altında Hüzur çadırında xidmətlərini icra
etmək üçün Rəbbin Musaya əmr etdiyini
yerinə yetirdilər.
23 Rəbb Musaya belə dedi: 24 «Bu qanun
Levililərə aiddir. İyirmi beş yaş və ondan
yuxarı olanlar Hüzur çadırının işini görmək
üçün içəri girsinlər. 25 Əlli yaşa çatanda isə
gördükləri xidmətlərini dayandırıb daha
işləməməlidirlər. 26 Hüzur çadırında öz
vəzifələrini yerinə yetirən qardaşlarına yardım
edə bilərlər, lakin özləri xidmət etməsinlər.
Levililərin vəzifələrini belə qaydaya sal».

### *Pasxa bayramının keçirilməsi*

9 1 İsrail övladları Misir torpağından
çıxdıqdan sonra ikinci ilin birinci ayında
Rəbb Sina səhrasında Musaya dedi: 2 «İsrail
övladları Pasxa bayramını tə’yin olunmuş
vaxtda qeyd etsinlər. 3 Onu ayın on dördüncü
günündə, axşamçağı, tə’yin olunmuş vaxtda
keçirin; onu bütün qaydalarına və hökmlərinə
görə qeyd edin». 4 Beləcə Musa İsrail
övladlarına əmr etdi ki, Pasxa bayramını
keçirsinlər. 5 Sina səhrasında, birinci ayın on
dördüncü günündə, axşamçağı Pasxa
bayramını keçirtdilər. İsrail övladları Rəbbin
Musaya əmr etdiyi hər şeyi yerinə yetirdilər.
6 Ölüyə toxunub murdar olan adamlar vardı
ki, o gün onlar Pasxa bayramını keçirə

***8:17*** *– Çıx. 13:2*
***9:1-5*** *– Çıx. 12:1-13*

bilmədilər. Həmin gün bu adamlar Musa və
Harunun yanına gəlib 7 belə dedilər: «Ölüyə
görə biz murdarıq, nə üçün biz başqa İsrail
övladları kimi Rəbbə qurban təqdim etmədən
məhrum olaq?» 8 Musa onlara dedi: «Dayanın,
görüm Rəbb sizin barədə nə əmr edəcək».

9 Rəbb Musaya dedi: 10 «İsrail övladlarına
belə de: “Əgər sizdən yaxud nəslinizdən bir
nəfər ölüyə toxunub murdar olarsa yaxud
uzaq yolda olarsa, yenə də Rəbbin Pasxa
bayramını keçirtsin. 11 İkinci ayın on dördüncü
günü axşamçağı Pasxa bayramını qeyd
etsinlər. Pasxa qurbanını mayasız çörək və acı
göyərti ilə yesinlər. 12 Ondan sabaha qədər heç
nə qalmasın və bir sümük belə qırılmasın.
Pasxaya aid olan bütün qanunları icra etsinlər.
13 Amma kim ki pakdır, uzaq yolda deyil və
Pasxanı keçirmirsə, öz xalqı arasından
qovulsun; çünki tə’yin olunan vaxtda Rəbbin
təqdimini gətirməmişdir, o adam günahının
cəzasını çəksin.

14 Əgər sizinlə yaşayan bir yadelli Rəbbin
Pasxa bayramını keçirmək istəyirsə, Pasxanı
qaydalarına və hökmlərinə görə keçirsin; həm
yadelli üçün, həm də yerli əhali üçün qayda
bir olsun”».

### *Məskən üzərindəki bulud*

*(Çıx. 40:34-38)*

15 Məskənin qurulduğu gün məskəni,
Şəhadət çadırını bulud bürüyərdi; axşamdan
səhərə qədər məskənin üzərindəki bulud alova
oxşayırdı. 16 Daima belə oldu. Məskəni
bürüyən bulud gecələr oda oxşayırdı. 17 Bulud
çadırın üzərindən qalxan zaman İsrail
övladları köç edərdilər; əgər bulud harada
dayanardısa, İsrail övladları da orada düşərgə
salardılar. 18 Onlar Rəbbin əmrinə görə yola
düşər və Rəbbin əmrinə görə də məskən
salardılar. Nə vaxt bulud məskənin üzərində
dayanardısa, onlar düşərgə saldıqları yerdə
qalardılar.

19 Bulud uzun müddət çadırın üzərində
dayananda İsrail övladları Rəbbin buyruğuna
riayət edərdilər. 20 Bə’zən bulud məskənin
üzərində bir neçə gün görünərdi; onlar Rəbbin
əmrinə görə düşərgə saldıqları yerdə qalar,
yenə Rəbbin əmrinə görə yola düşərdilər.
21 Bə’zən də bulud axşamdan səhərə kimi
dayanırdı; səhər erkən bulud qalxdıqda yola
düşərdilər. İstər gecə, istər gündüz bulud
qalxdıqda yola düşərdilər. 22 İstər iki gün
olsun, istər bir ay və yaxud bir il, bulud
məskən üzərində dayanıb qalanda İsrail
övladları düşərgə saldıqları yerdə qalar, köç
etməzdilər. Lakin qalxan zaman yola
düşərdilər. 23 Rəbbin əmrinə görə düşərgə
salardılar və Rəbbin əmrinə görə də yola
düşərdilər. Musa vasitəsilə verdiyi əmrə görə
Rəbbin buyruğuna riayət edərdilər.

### *İki gümüş kərənay*

10 1 Rəbb Musaya belə dedi: 2 «Özünə
yastılanmış gümüşdən iki kərənay
düzəlt. Bunları, icmanı çağırmaq və
düşərgədəkilərin köçməsi üçün işlət. 3 İki
kərənay birdən çalınarsa, bütün icma sənin
yanına, Hüzur çadırının girişinə toplansın.
4 Əgər tək biri çalınarsa, rəhbərlər, İsrailin
tayfa başçıları sənin yanına toplansınlar.
5 Yüksək səslə çalınanda, şərqi düşərgədəkilər
yola düşsünlər. 6 Yenə də yüksək səslə
çalınanda, cənubi düşərgədəkilər yola
düşsünlər. Onları yola salmaq üçün yüksək
səslə çalınsın. 7 İcmanı toplamaq lazım olanda
çalın, amma yüksək səslə çalmayın.

8 Kərənayları Harun oğulları olan kahinlər
çalsınlar. Bu, nəsildən-nəslə sizin üçün əbədi
qayda olsun. 9 Sizi torpağınızda sıxışdıran
düşmənə qarşı döyüşə çıxanda, kərənayları
yüksək səslə çalın ki, Allahınız Rəbbin yadına
düşüb düşmənlərinizdən xilas olasınız. 10 Şad
gününüzdə, bayramlarınızda və Təzə Ay
mərasimi yandırma qurbanlarınızı və ünsiyyət
qurbanınızı verərkən kərənay çalın;
Allahınızın qarşısında bu sizin üçün bir xatirə
olsun. Allahınız Rəbb Mənəm».

### *İsrail övladları Sinanı tərk edirlər*

11 İkinci ilin ikinci ayında, ayın iyirminci
günündə Şəhadət məskəninin üzərindən bulud
çəkildi. 12 İsrail övladları köçlərinə görə Sina
səhrasından yola düşdülər. Bulud Paran
səhrasında dayandı.

13 İlk dəfə olaraq Musa vasitəsilə Rəbbin
əmrinə görə yola düşdülər. 14 Öncə Yəhuda
ordu dəstələri öz bayraqları altında yola
düşdülər. Bu orduya Amminadav oğlu
Naxşon rəhbərlik edirdi. 15 İssakar qəbiləsinin
ordusuna Suar oğlu Netanel rəhbərlik edirdi.
16 Zevulun qəbiləsinin ordusuna isə Xelon
oğlu Eliav rəhbərlik edirdi.

---

***9:12*** *– Çıx. 12:46; Zəb. 34:20; Yəh. 19:36*
***9:17*** *– Çıx. 40:36*

17 Məskən söküləndə məskəni daşıyan
Gerşon övladları və Merari övladları yola
düşdülər.
18 Ruven ordu dəstələri öz bayraqları altında
yola düşdülər. Onlara Şedeur oğlu Elisur
rəhbərlik edirdi. 19 Şimeon qəbiləsinin
ordusuna Surişadday oğlu Şelumiel rəhbərlik
edirdi. 20 Qad qəbiləsinin ordusuna Deuel oğlu
Elyasaf rəhbərlik edirdi. 21 Müqəddəs əşyaları
daşıyan Qohatlılar yola düşdülər; onlar
gələnədək o birilər məskəni qurardılar.
22 Efrayim ordu dəstələri öz bayraqları
altında yola düşdülər. Onlara Ammihud oğlu
Elişama rəhbərlik edirdi. 23 Menaşşe
qəbiləsinin ordusuna Pedahsur oğlu Qamliel
rəhbərlik edirdi. 24 Binyamin qəbiləsinin
ordusuna isə Gidoni oğlu Avidan rəhbərlik
edirdi.
25 Ən axırda isə Dan ordu dəstələri öz
bayraqları altında yola düşdülər. Bu orduya
Ammişadday oğlu Axiezer rəhbərlik edirdi.
26 Aşer qəbiləsinin ordusuna Okran oğlu
Pagiel, 27 Naftali qəbiləsinin ordusuna Enan
oğlu Axira rəhbərlik edirdi.
28 İsrail ordu dəstələri bu nizamla yola
düşərdilər.
29 Musa qayınatası Midyanlı Reuel oğlu
Xovava dedi: «Rəbbin "sizə verəcəyəm"
dediyi yerə yola düşürük, bizimlə gəl, biz
sənə yaxşılıq edərik. Çünki Rəbb İsrailə
yaxşılıq edəcəyinə söz verib». 30 Xovav ona
dedi: «Gedə bilmərəm. Mən öz torpağıma və
qohum-əqrəbamın yanına gedəcəyəm».
31 Musa dedi: «Xahiş edirəm, bizi tərk etmə,
çünki səhrada düşərgə salacağımız yerləri sən
bilirsən. Bizə bələdçilik et. 32 Bizimlə getsən,
Rəbbin bizə edəcəyi yaxşılığı biz də sənə
edərik».
33 İsrail övladları Rəbbin dağından ayrılıb
üç gün yol getdilər. Rəbbin Əhd sandığı da üç
gün onların önündə getdi ki, dincələcəkləri
yeri onlara göstərsin. 34 Düşərgə saldıqları
yerdən yola düşdükləri vaxt Rəbbin buludu
gündüz onların üzərində idi.
35 Sandıq yola düşəndə Musa deyirdi:
«Ya Rəbb qalx!
Qoy düşmənlərin dağılsın,
Sənə nifrət edənlər Sənin hüzurundan
qaçsın».

---

***10:35** – Zəb. 68:1*

36 Sandıq dayananda belə deyirdi:
«Ya Rəbb, İsrail tayfalarının on
minlərinin yanına qayıt».

### *Rəbbin göndərdiyi od və bildirçinlər*

11 1 Camaat çəkdiyi sıxıntıdan Rəbbə
şikayət etdi. Rəbb bunu eşidəndə
qəzəbi alovlandı. Rəbbin odu onların arasında
yandı və düşərgə ətrafındakıların bə'zilərini
məhv etdi. 2 Camaat Musaya fəryad etdi.
Musa Rəbbə yalvardı və od söndü. 3 O yerin
adı Tavera[1] qoyuldu, çünki onların arasında
Rəbbin odu yanırdı.
4 Xalqın arasında olan alçaq yadellilərin
iştahası ifrat dərəcədə artdı. İsrail övladları da
yenə ağlayıb dedilər: «Kaş ki yeməyə ətimiz
olaydı! 5 Misirdə müftə yediyimiz balıqları,
xiyarları, qarpızları, kəvərləri, soğanları və
sarımsaqları yadımıza salırıq. 6 Ancaq indi
iştahamız küsüb, yeməyə mannadan başqa bir
şey görmürük».
7 Manna görünüşcə keşniş toxumu kimi idi,
rəngi də mirvari rəngində idi. 8 Camaat
dolaşar və onu yığıb dəyirmanda üyüdər
yaxud da həvəngdəstə ilə döyərdilər. Qazanda
qaynadaraq kökə düzəldərdilər. Onun dadı
zeytun yağı ilə bişirilmiş yeməklərə oxşayırdı.
9 Manna gecə düşərgə üzərinə düşən şehlə
bərabər düşərdi.
10 Musa xalqın, hər ailənin çadırının
qarşısında ağlamaqlarını eşitdi və Rəbbin
qəzəbi çox alovlandı. Musa da narazı idi.
11 Ona görə Rəbbə dedi: «Sən nə üçün quluna
əzab verdin? Sənin gözündə lütf tapmadığım
üçün bu xalqın bütün yükünü mənim
üzəriməmi qoyursan? 12 Bütün bu xalqa
mənmi hamilə olmuşam? Bunları mənmi
doğmuşam? Məgər Sən istəyirsən ki, südəmər
uşağı gəzdirən dayə kimi atalarına and içib
söz verdiyin torpağa onları qucağımda mən
aparım? 13 Bütün bu xalqa yedirtmək üçün əti
mən haradan tapım? Çünki onlar mənim
qarşımda ağlayaraq "bizə ət ver yeyək"
deyirlər. 14 Bu xalqı mən təkbaşına daşıya
bilmərəm, çünki bu mənim üçün çox ağırdır.
15 Əgər mənimlə bu cür davranacaqsansa,
gözündə lütf tapdımsa, onda nə olar, məni
öldür ki, belə əzabı görməyim».

---

[1] **11:3** *Tavera* – ibrani dilində *yanğın.*
***11:4** – 1Ko. 10:6*
***11:7-8** – Çıx. 16:31*
***11:9** – Çıx. 16:13-15*

16 Rəbb Musaya dedi: «Mənə xalq arasında
rəhbər və mö'təbər saydığın İsrail
ağsaqqallarından yetmiş nəfər topla. Onları
Hüzur çadırına gətir və qoy səninlə dursunlar.
17 Mən enərək orada səninlə danışacağam.
Səndə olan Ruhdan götürüb onlara verəcəyəm
ki, xalqın yükünü səninlə bərabər çəksinlər.
Bununla da bu yükü təkbaşına
daşımayacaqsan. 18 Xalqa de ki, sabah üçün
özlərini pak etsinlər, çünki ət yeyəcəklər.
"Kaş ki ətimiz olaydı! Misirdə halımız yaxşı
idi" deyərək bərkdən ağladınız. Bunu Rəbb
eşitdi. Ona görə Rəbb sizə ət verəcək,
yeyəcəksiniz. 19 Nə bir gün, nə iki gün, nə beş
gün, nə on gün, nə də iyirmi gün yeyəcəksiniz.
20 Düz bir ay, burnunuzdan gələnə qədər,
iyrənənə qədər yeyəcəksiniz; çünki aranızda
olan Rəbbi rədd etdiniz və Onun qarşısında
"nə üçün Misirdən çıxdıq?" deyərək
ağladınız». 21 Musa dedi: «Arasında olduğum
bu xalqda altı yüz min piyada vardır və Sən
deyirsən: "Mən onlara bir aylıq yemək üçün
ət verəcəyəm". 22 Bütün qoyun-keçi və mal-
qara kəsilərsə, onlar doyarmı? Dənizin bütün
balıqları tutularsa, onlar doyarmı?» 23 Rəbb
Musaya dedi: «Məgər Rəbbin əli qısaldımı?
İndi görəcəksən sənə dediklərim yerinə yetir
ya yox».

24 Musa çıxdı və Rəbbin sözünü xalqa
çatdırdı. Xalqın ağsaqqallarından yetmiş
nəfəri topladı və çadırın ətrafında dayandırdı.
25 Rəbb buludda endi və Musa ilə danışdı.
Ondakı Ruhdan götürüb yetmiş nəfər
ağsaqqallara verdi; onların üzərinə Ruh çökən
zaman peyğəmbərlik etdilər, amma sonra
etmədilər.

26 Düşərgədə iki adam qalmışdı, birinin adı
Eldad və o birinin adı Medad idi. Onlar
yazılan yetmiş nəfər arasında idilər, lakin
çadıra getməmişdilər. Ruh onların da üzərinə
çökdü və onlar düşərgədə peyğəmbərlik
edirdilər. 27 Bir gənc qaçaraq Musaya xəbər
verib dedi: «Eldad və Medad düşərgədə
peyğəmbərlik edirlər». 28 Gəncliyindən bəri
Musanınköməkçisi olan Nun oğlu Yeşua
«ağam Musa, onlara qadağan et» deyib fikrini
bildirdi. 29 Musa ona cavab verdi: «Sən mənə
görəmi qısqanırsan? Kaş Rəbbin bütün xalqı
peyğəmbər olaydı və Rəbb onlara Ruhunu
verəydi!» 30 Sonra Musa və İsrail ağsaqqalları
düşərgəyə qayıtdılar.

31 Rəbb dənizdən bildirçin gətirən bir külək
əsdirdi. Külək bildirçinləri düşərgənin hər
istiqamətindən bir günlük yol qədər uzaqlığa,
yerin üzərindən iki qulac qədər hündürlüyə
saldı. 32 Bütün o gün, o gecə və ertəsi gün
camaat çıxıb bildirçinləri yığdı. Ən az yığan
on xomer yığdı. Bildirçinləri özləri üçün
düşərgənin ətrafına sərirdilər. 33 Amma əti
hələ dişləri arasında çeynəməmişdən əvvəl
xalqa qarşı Rəbbin qəzəbi alovlandı, Rəbb
onları şiddətli vəba ilə cəzalandırdı. 34 O yerin
adı Qivrot-Hattaava[2] qoyuldu, çünki iştahaları
başqa yeməklər çəkənlər orada basdırıldı.
35 Camaat Qivrot-Hattaavadan Xaserota köçüb
orada qaldı.

### *Məryəmin cəzalanması*

12 1 Məryəm ilə Harun Kuşlu qadından
ötrü Musadan giley edirdilər. Çünki
Musa özünə arvad olaraq həmin Kuşlu qadını
almışdı. 2 Onlar dedilər: «Rəbb yalnız Musa
vasitəsiləmi danışdı? Bizim vasitəmizlə də
danışmadımı?» Rəbb bunu eşitdi. 3 Musa yer
üzündə yaşayan bütün adamlardan daha
təvazökar bir insan idi.

4 Rəbb bir anlıq Musaya, Haruna və
Məryəmə dedi: «Üçünüz də Hüzur çadırına
gəlin». Üçü də oraya getdilər. 5 O zaman Rəbb
bulud dirəyində endi və çadırın girişində
durub Harunla Məryəmi çağırdı; hər ikisi önə
çıxanda 6 Rəbb onlara dedi: «İndi sözlərimi
dinləyin; əgər aranızda bir peyğəmbər varsa,
Mən Rəbb görüntüdə ona Özümü
bildirəcəyəm, yuxuda onunla danışacağam.
7 Qulum Musa elə deyil; bütün evimdə
sadiqdir. 8 Mən onunla müəmmalarla deyil,
üzbəüz açıq danışacağam və o Rəbbin surətini
görəcək. Nə üçün qorxmayaraq qulum
Musadan gileyləndiniz?»

9 Rəbb onlara bərk qəzəbləndi və oradan
getdi. 10 Bulud çadırın üzərindən çəkiləndə
Məryəm cüzama tutulmuş, qar kimi ağarmışdı.
Harun Məryəmə baxdıqda gördü ki, o cüzama
tutulub. 11 Harun Musaya dedi: «Ey ağam, rica
edirəm ki, axmaqlıq və günah işlədiyimizə
görə bizi bu cəzanı çəkməyə qoyma. 12 Rica
edirəm, qoyma ki onun bədəni ananın
bətnindən çıxan ölü doğulmuş uşağın yarı
çürümüş bədəninə bənzəsin». 13 Musa Rəbbə

---

[2] **11:34** *Qivrot-Hattaava* – ibrani dilində *həsrət qəbirləri.*
***12:7*** *– İbr. 3:2,5*

fəryad edib dedi: «Yalvarıram, ay Allah, ona
şəfa ver!» 14 Rəbb Musaya dedi: «Əgər atası
onun üzünə tüpürmüş olsaydı, yeddi gün
gözdən düşməyəcəkdimi?» 15 Məryəm yeddi
gün düşərgədən kənar yerdə saxlandı. O geri
gətirilincəyə qədər camaat köçmədi.

16 Ondan sonra camaat Xaserotdan yola
düşdü və Paran səhrasında düşərgə saldılar.

### *Kən'an ölkəsinə nəzər salma*

*(Qanun. 1:19-33)*

13 1 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına verəcəyim Kən'an
torpağına nəzər salmağa adamlar göndər;
atalarının hər qəbiləsindən bir rəhbər göndər».

3 Musa Rəbbin əmrinə görə Paran
səhrasından onları göndərdi; hamısı İsrail
övladlarının başçılarındandır. 4 Adları
bunlardır:

Ruven qəbiləsindən Zakkur oğlu
Şammua;
5 Şimeon qəbiləsindən Xori oğlu Şafat;
6 Yəhuda qəbiləsindən Yefunne oğlu
Kalev;
7 İssakar qəbiləsindən Yusif oğlu İqal;
8 Efrayim qəbiləsindən Nun oğlu Huşə;
9 Binyamin qəbiləsindən Rafu oğlu Palti;
10 Zevulun qəbiləsindən Sodi oğlu
Qaddiel;
11 Yusif qəbiləsindən, yə'ni Menaşşe
qəbiləsindən Susi oğlu Qaddi;
12 Dan qəbiləsindən Gemalli oğlu
Ammiel;
13 Aşer qəbiləsindən Mikael oğlu Setur;
14 Naftali qəbiləsindən Vofsi oğlu Naxbi;
15 Qad qəbiləsindən Maki oğlu Geuel.

16 Ölkəni nəzərdən keçirmək üçün Musanın
göndərdiyi adamların adları belədir: Musa
Nun oğlu Huşəyə Yeşua adını verdi.

17 Musa onları Kən'an torpağını nəzərdən
keçirmək üçün göndərərkən dedi: «Bu yoldan
Negevə gedin və dağlığa çıxın. 18 Ölkənin
necə olduğunu görün. Orada yaşayan xalq
güclümü, zəifmi, azmı, çoxmu? 19 Yaşadıqları
ölkə necə, yaxşımı, pismi? Şəhərləri necə,
hasarlımı, istehkamsızmı? 20 Torpaq necə,
münbitmi, məhsulsuzmu? Orada ağac varmı,
yoxsa yox? Əlinizdən gələni edib ölkənin
meyvəsindən gətirin». O zaman üzüm yetişən
mövsüm idi.

21 Onlar yola düşdülər və Zin səhrasından
Xamat keçidindəki Rexova qədər ölkəni
nəzərdən keçirdilər. 22 Negevə çıxdılar və
Xevrona çatdılar; orada Anaqlı Aximan,
Şeşay və Talmay yaşayırdı. Xevron Misirdəki
Soan şəhərindən yeddi il əvvəl tikilmişdi.
23 Eşkol vadisinə çatanda bir salxım üzümü
olan bir tənək budağı kəsdilər və adamların
ikisi bir neçə nar və əncirlə birlikdə tənək
budağını aralarında bir şüvüldə aparırdılar.
24 İsrail oğullarının oradan kəsdikləri salxıma
görə o yerə Eşkol[3] vadisi deyildi.

25 Qırx gündən sonra ölkəni nəzərdən
keçirib qayıtdılar. 26 Paran səhrasındakı
Qadeşə, Musa ilə Harunun və bütün İsrail
övladları icmasının yanına gəldilər. Onlara və
bütün icmaya xəbər gətirdilər, sonra ölkənin
meyvələrini onlara göstərdilər. 27 Musaya belə
izah edərək dedilər: «Bizi göndərdiyin ölkəyə
çatdıq. Həqiqətən də, orada süd və bal axır.
Budur o torpağın meyvələri! 28 Lakin orada
yaşayan xalq çox güclüdür. Şəhərlər
istehkamlı və çox böyükdür. Hətta orada
Anaqlıları gördük. 29 Negev məntəqəsində
Amaleqlilər, dağlıqda Xetlilər, Yevuslular və
Emorlular, dəniz kənarında və İordan çayı
sahilində isə Kən'anlılar yaşayırlar».

30 Kalev Musanın önündə camaatı
sakitləşdirib dedi: «Gedib oranı ələ keçirək.
Çünki biz mütləq onların öhdəsindən gələrik».
31 Onunla gedən adamlar isə dedilər: «O xalqa
hücum edə bilmərik, çünki onlar bizdən
güclüdürlər». 32 Nəzərdən keçirdikləri torpaq
haqqında İsrail övladlarına pis xəbər gətirib
dedilər: «Gözdən keçirmək üçün içindən
keçdiyimiz torpaq öz əhalisinin başını yeyən
torpaqdır və orada gördüyümüz hər kəs uca
boyludur. 33 Orada nəhəng adamların
nəslindən olan Anaqlıları gördük. Onların
yanında özümüzü çəyirtkə boyda hiss etdik,
onlara da elə göründük».

### *Xalqın üsyanı*

14 1 Bütün icma uca səslə fəryad
qoparıb gecə boyu ağladı. 2 İsrail
övladları Musaya və Haruna qarşı deyindilər;
bütün icma onlara dedi: «Kaş Misir
torpağında və ya da bu səhrada öləydik! 3 Nə
üçün Rəbb bizi bu torpağa aparır? Yə'ni biz
qılıncla qırılaq? Arvadlarımız və uşaqlarımız
əsir olacaqlar. Misirə qayıtmaq bizim üçün

---

***12:14*** – *Say. 5:2-3*

[3] **13:24** *Eşkol* – ibrani dilində *salxım.*

daha yaxşı olmazdımı?» 4 Sonra bir-birlərinə
dedilər: «Özümüzə başçı seçək və Misirə
qayıdaq».
5 O zaman Musa ilə Harun orada toplanmış
bütün İsrail camaatının önündə üzüstə yerə
sərildi. 6 Ölkəyə nəzər salanlardan Nun oğlu
Yeşua və Yefunne oğlu Kalev paltarlarını
cırdılar; 7 bütün İsrail icmasına belə dedilər:
«Nəzərdən keçirmək üçün içərisindən
keçdiyimiz ölkə çox yaxşı bir ölkədir. 8 Əgər
Rəbb bizdən razı qalarsa, bizi o ölkəyə
aparacaq, süd və bal axan torpağı bizə
verəcək. 9 Ancaq Rəbbə asilik etməyin.
Ölkənin xalqından qorxmayın, onları məğlub
edə bilərik. Müdafiəçiləri onları atıb getmişdir,
amma Rəbb bizimlədir. Onlardan
qorxmayın!» 10 Lakin bütün icma «Onları
daşqalaq edin!» deyəndə Rəbbin izzəti Hüzur
çadırında bütün İsrail övladlarına göründü.
11 Rəbb Musaya belə dedi: «Nə vaxtadək bu
xalq Mənə hörmətsizlik edəcək? Aralarında
etdiyim əlamətləri görə-görə nə vaxta qədər
Mənə iman gətirməyəcəklər? 12 Onları vəba
ilə cəzalandıracağam. İrsdən məhrum
edəcəyəm. Onlardan çox böyük və güclü bir
milləti səndən törədəcəyəm».
13 Musa Rəbbə dedi: «O zaman Misirlilər
eşidəcək, çünki bu xalqı onların arasından
qüdrətinlə Sən çıxartdın. 14 Bunu ölkənin
əhalisinə anladacaqlar. Eşitdilər ki, Sən Rəbb
bu xalqın arasındasan. Çünki, ya Rəbb, Sən
onlarla üzbəüz görüşürsən, Sənin buludun
onların üzərində durur. Sən gündüz bulud
sütunu və gecə alov sütunu ilə onlara yol
göstərirsən. 15 Əgər bu xalqın hamısını bir
nəfər kimi öldürsən, sənin şöhrətini eşidən
millətlər belə deyəcəklər: 16 “Rəbb and içərək
və’d etdiyi ölkəyə bu xalqı apara bilmədiyi
üçün onları səhrada öldürdü”.
17 İstəyirəm ki, qoy indi Xudavəndin böyük
qüdrəti göstərilsin, necə ki, sən dedin:
18 “Rəbb hədsiz səbirli, bol məhəbbətli, cəzanı
və asiliyi bağışlayandır, lakin cəzasız da
qoymaz, ataların cəzasını üçüncü-dördüncü
nəslə çəkdirər”. 19 İstəyirəm ki, Misirdən
çıxdıqları gündən bu günə kimi bu xalqı necə
bağışladınsa, onların günahını böyük
məhəbbətinə görə bağışla».
20 Rəbb dedi: «Sənin ricana görə bağışladım,
21 amma varlığıma və Rəbbin bütün dünyanı
dolduran izzətinə and olsun ki, 22 izzətimi və
Misirdə, eləcə də səhrada etdiyim əlamətləri
görüb məni on dəfə sınayan, Mənim sözümü
dinləməyən bu adamların heç biri 23 atalarına
and içərək və’d etdiyim torpağı görməyəcək
və Mənə hörmətsizlik edənlərin heç biri oranı
görməyəcək. 24 Ancaq qulum Kalevdə başqa
ruh var. O bütün qəlbi ilə ardımca getdi. Onu
gəzdiyi torpağa aparacağam və onun nəsli
oranı irs olaraq alacaq. 25 Amaleqlilər və
Kən’anlılar dərədə yaşayırlar. Ona görə sabah
qayıdın və Qırmızı dənizin yolu ilə səhraya
gedin».
26 Rəbb Musaya və Haruna dedi: 27 «Nə
vaxta qədər bu pis camaat Mənə qarşı
deyinəcək? İsrail oğullarının Mənə
deyinmələrini eşitdim. 28 Onlara de ki, Rəbb
deyir: “Varlığıma and olsun ki, Mənə qarşı
dediklərinizin eynisini sizə edəcəyəm.
29 Meyitləriniz bu səhraya səriləcək. Mənə
deyinən iyirmi və ondan yuxarı yaşda olub
siyahıya alınanların hamısı səhrada öləcəklər,
30 sizi sakin edəcəyimə əlimi qaldırıb and
içdiyim torpağa girməyəcəksiniz. Oraya
yalnız Yefunne oğlu Kalev və Nun oğlu
Yeşua girəcək. 31 Lakin “əsir olacaqlar”
dediyiniz uşaqlarınızı oraya aparacağam və
sizin rədd etdiyiniz ölkəni onlar tanıyacaqlar.
32 Sizə gəldikdə isə meyitləriniz bu səhraya
səriləcək. 33 Övladlarınız qırx il səhrada
çobanlıq edəcəklər. Nə vaxta qədər ki siz
səhrada məhv olmamısınız, sizin
xəyanətinizin acısını çəkəcəklər. 34 Ölkəni
nəzərdən keçirdiyiniz günlərin sayına görə
qırx gün, hər gün üçün bir il olmaqla, qırx il
günahlarınızın cəzasını çəkəcəksiniz və
sizdən üz döndərdiyimi biləcəksiniz”. 35 Mən
Rəbb söylədim: “Həqiqətən, Mənə qarşı
birləşən bu pis camaata belə də edəcəyəm. Bu
səhrada ölüb tələf olacaqlar”».
36 Musanın ölkəni nəzərdən keçirmək üçün
göndərdiyi adamlar qayıdıb ölkə haqqında pis
xəbər gətirərək bütün icmanın Rəbbə qarşı
deyinməsinə səbəb oldular. 37 Ölkə haqqında

***14:9*** *– İbr. 3:16*
***14:13-19*** *– Çıx. 32:11-14*
***14:18*** *– Çıx. 34:6; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2*
***14:18*** *– Çıx. 20:5-6; 34:6-7; Qanun. 5:9-10; 7:9-10*
***14:21-23*** *– İbr. 3:18*
***14:24*** *– Yeşua 14:9-12*
***14:29*** *– 1Kor. 10:5; İbr. 3:17*
***14:33*** *– Həv. 7:36; 13:17-18*

pis xəbər gətirənlər Rəbbin önündə vəbadan
öldü. 38 Ölkəni nəzərdən keçirmək üçün
gedənlərdən yalnız Nun oğlu Yeşua və
Yefunne oğlu Kalev sağ qaldılar.
39 Musa bu sözləri bütün İsrail övladlarına
danışdı və xalq çox kədərləndi. 40 Onlar səhər
tezdən qalxıb dağın təpəsinə çıxaraq dedilər:
«Günah etmişik, indi Rəbbin və'd verdiyi
yerə çıxırıq». 41 Musa dedi: «Nə üçün Rəbbin
əmrinə qarşı çıxırsınız? Bunu bacara
bilməzsiniz. 42 Döyüşə çıxmayın, çünki Rəbb
aranızda deyil. Düşmənlərinizə məğlub
olacaqsınız. 43 Çünki Amaleqlilər və
Kən'anlılar orada önünüzdədir və qılıncla
öləcəksiniz; madam ki Rəbbin ardınca
getməkdən vaz keçdiniz, Rəbb sizinlə bərabər
olmayacaq». 44 Ancaq onlar özlərinə
güvənərək dağlığın ən yüksək təpəsinə
çıxdılar. Lakin nə Rəbbin Əhd sandığı, nə də
Musa düşərgədən ayrılmadı. 45 O zaman
həmin dağlıqda yaşayan Amaleqlilər və
Kən'anlılar enib onlara hücum etdilər və
Xorma şəhərinədək qovub məğlubiyyətə
uğratdılar.

### *Qurban haqqında qanunlar*

15 1 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə söylə: "Sakin olmaq
üçün sizə verəcəyim torpağa girib yaşadığınız
vaxt 3 əgər kimsə Rəbbin xoşuna gələn ətirli
təqdim gətirmək üçün yandırma qurbanı, əhd
qurbanı, könüllü qurban yaxud bayram
qurbanı olaraq mal-qaradan yaxud qoyun-
keçidən Rəbbə təqdim edirsə, 4 Rəbbə qurban
gətirən adam taxıl təqdimi kimi dörddə bir hin
zeytun yağı ilə yoğrulmuş efanın onda biri
qədər narın un gətirsin. 5 Yandırma qurbanı
yaxud digər növlü qurban üçün hər bir quzuya
tökülən maye təqdimi olaraq dörddə bir hin
şərab hazırlayın.
6 Qoç üçün taxıl təqdimi kimi hinin üçdə
biri qədər zeytun yağı ilə yoğrulmuş efanın
onda iki hissəsi qədər narın un və 7 maye
təqdimi kimi hinin üçdə biri qədər şərab
hazırlayın. Bunları Rəbbin xoşuna gələn ətirli
təqdim olaraq verin.
8 Rəbbə yandırma qurbanı, əhd qurbanı və
yaxud ünsiyyət qurbanı kimi bir buğa
kəsərkən 9 buğa ilə birlikdə taxıl təqdimi kimi
yarım hin zeytun yağı ilə yoğrulmuş efanın
onda üçü qədər narın un gətirin. 10 Maye
təqdimi kimi yarım hin şərab təqdim edin. Bu,
Rəbbin xoşuna gələn ətirli təqdimdir.
11 Hər buğa, qoç, quzu və yaxud keçi belə
hazırlansın. 12 Nə qədər heyvan kəssəniz, hər
biri ilə birlikdə eyni təqdimi gətirin. 13 Hər bir
yerli İsrail övladı Rəbbin xoşuna gələn ətirli
təqdim olaraq yandırma qurbanı gətirdiyi
zaman bu şeyləri belə etsin.
14 Müvəqqəti yaxud nəsildən-nəslə aranızda
yaşayan yadelli Rəbbin xoşuna gələn ətirli
təqdimi gətirərkən tam sizin etdiyiniz kimi
etsin. 15 Ey camaat, sizin üçün və sizinlə
yaşayan yadelli üçün qayda birdir, nəsillər
boyu daimi qaydadır, çünki Rəbb sizə də,
yadellilərə də bir gözlə baxır. 16 Sizin üçün və
sizinlə yaşayan yadellilər üçün eyni qanun və
eyni hökm olmalıdır"».
17 Rəbb Musaya belə dedi: 18 «İsrail
övladlarına belə söylə: "Mən sizi aparacağım
torpağa girib yaşadığınız vaxt 19 torpağın
çörəyindən yeyəndə onun müəyyən hissəsini
Rəbbə qaldırma təqdimi kimi verin. 20 İlk
xəmirinizdən bir yastı kökə gətirin, bunu
xırmanınızın qaldırma təqdimi kimi verin.
21 İlk xəmirinizdən edilən bu qaldırma
təqdimini nəsildən-nəslə qədər Rəbbə verin.

### *Bilmədən işlənən günaha görə təqdim*

22 Əgər səhv edib Rəbbin Musaya
buyurduğu əmrlərin birinə – 23 Rəbbin əmr
etdiyi gündən başlayaraq nəsildən-nəslə Musa
vasitəsilə sizə buyurduğu hər hansı bir şeyə
əməl etmirsinizsə 24 və bu iş səhvən İsrail
icması tərəfindən bilmədən edilirsə, onda
bütün icma Rəbbin xoşuna gələn ətirli təqdim
olaraq qaydaya görə taxıl və maye təqdimləri
ilə birlikdə yandırma qurbanı olaraq bir buğa
və günah qurbanı olaraq bir təkə gətirsin.
25 Kahin bütün İsrail övladlarının icması üçün
kəffarə etsin. Beləcə onlar bağışlanacaqlar,
çünki səhv olmuşdur və bu səhv üçün də
Rəbbə təqdim olan qurbanlarını və Onun
hüzurunda günah qurbanlarını gətirmişlər.
26 Bütün İsrail icması və aralarında yaşayan
yadellilər bağışlanacaq, çünki bütün xalq səhv
etmişdir.
27 Əgər bir nəfər səhvən günah edərsə, qoy
günah qurbanı olaraq birillik dişi keçi gətirsin.
28 Kahin səhvən günah işlədən adam üçün
Rəbbin önündə kəffarə etsin ki, o bağışlansın.

---

***15:16*** *– Lev. 24:22*
***15:27-28*** *– Lev. 4:27-31*

Bağışlatma mərasimi keçiriləndə adam
bağışlanacaq. 29 İsrail övladları arasında yerli
olsun ya da yadelli olsun, səhvən günah
edənlər üçün qoy tə'limat bir olsun.
30 Lakin əgər yerli ya yadelli qəsdən günah
işlətsə, Rəbbə küfr etmişdir və xalqı arasından
qovulsun. 31 Çünki o, Rəbbin sözünə xor
baxıb və onun əmrini pozub. Belə adam
mütləq qovulsun və öz cəzasını çəksin"».

### *Şənbə gününü pozan adam*

32 İsrail övladları səhrada olarkən Şənbə
günündə odun yığan bir adama rast gəldilər.
33 Odun toplayan adamla rastlaşanlar onu
Musanın, Harunun və bütün icmanın qarşısına
gətirdilər. 34 O adamı həbs etdilər, çünki
onunla nə edəcəkləri hələ qərara alınmamışdı.
35 Rəbb Musaya dedi: «Bu adam
öldürülməlidir; qoy bütün icma onu
düşərgədən kənara aparsın və daşqalaq edərək
öldürsün». 36 İcma o adamı düşərgədən kənara
çıxarıb Rəbbin Musaya əmr etdiyi kimi
daşqalaq edərək öldürdü.

### *Qotazlar*

37 Rəbb Musaya belə dedi: 38 «İsrail
övladlarına de ki, nəsildən-nəslə geyimlərinin
ətəklərinə dörd tərəfdən qotaz tiksinlər. Hər
qotazın üzərinə bənövşəyi qaytan salsınlar.
39 Bu qotazlara baxanda Rəbbin bütün
əmrlərini xatırlayın və onlara əməl edin; öz
ürəyinizin və gözlərinizin istəklərinə qapılıb
Mənə xəyanət etməyin. 40 O zaman bütün
əmrlərimi yadda saxlayıb yerinə
yetirəcəksiniz və Allahınızın hüzurunda
müqəddəs olacaqsınız. 41 Allahınız olmaq
üçün sizi Misir torpağından çıxaran Allahınız
Rəbb Mənəm. Bəli, Allahınız Rəbb Mənəm!»

### *Qorah, Datan və Aviramın e'tirazı*

16 1 Levi oğlu Qohat oğlu İshar oğlu
Qorah qürurlanıb Ruven nəslindən
Eliav oğulları Datan ilə Aviram və Pelet oğlu
On ilə birlikdə 2 Musaya qarşı üsyan
qaldırdılar. İsrail övladlarından icmada
seçilmiş və ad qazanmış iki yüz əlli nəfər
icma rəhbəri onlara qoşuldu. 3 Birlikdə
toplanaraq Musa ilə Haruna qarşı çıxdılar və
onlara dedilər: «Artıq bəsdir! Çünki bütün
camaatın hamısı müqəddəsdir və Rəbb onların
arasındadır. Nə üçün siz özünüzü Rəbbin
icmasından üstün tutursunuz?»
4 Musa bunu eşidib üzüstə yerə sərildi.
5 Sonra Qorah ilə yoldaşlarına dedi: «Səhər
Rəbb kimin Ona məxsus, kimin müqəddəs
olduğunu göstərəcək və həmin adamın Öz
hüzuruna girməsinə izin verəcək. Rəbbin
seçdiyi adam hüzuruna girməsinə izin verdiyi
adamdır. 6 Ey Qorah və yoldaşları, özünüz
üçün buxurdanlar alın; 7 səhəri gün Rəbbin
hüzurunda onların içinə közərmiş kömür və
buxur qoyun. Beləliklə, Rəbb kimi seçibsə,
müqəddəs olan o olacaqdır. Ey Levililər, artıq
bəsdir!»
8 Musa Qoraha bunu da söylədi: «Ey
Levililər, mənə qulaq asın! 9 İsrailin Allahı
sizi İsrail icmasından seçib Öz hüzuruna
gəlməniz üçün imkan yaratdı ki, Rəbbin
məskənində iş görəsiniz və icmanın önündə
duraraq onlara xidmət edəsiniz. 10 Sizə və
bütün Levili qardaşlarınıza hüzuruna girmə
səlahiyyətini verdi. Bu sizə azmı gəlir? İndi
kahinliyi də istəyirsiniz? 11 Deməli, ey Qorah,
sən və bütün yoldaşların belə toplanaraq
Rəbbə qarşı çıxırsınız. Harun kimdir ki, ona
qarşı deyinirsiniz?»
12 Musa Eliav oğulları Datanı və Aviramı
çağırtdırdı və onlar dedi: «Gəlməyəcəyik!
13 Bizi səhrada öldürmək üçün süd və bal axan
ölkədən çıxardığın bəs deyil, hələ özünü
üzərimizdə başçı etmək istəyirsən? 14 Bundan
başqa, bizi süd və bal axan bir ölkəyə
gətirmədin, irs olaraq bizə tarlalar və bağlar
vermədin. Bu adamların gözündən pərdə
asmaq istəyirsən? Gəlməyəcəyik!»
15 Musa çox qəzəblənib Rəbbə dedi:
«Onların təqdimlərinə əhəmiyyət vermə;
onlardan bir eşşək belə, almadım və onların
heç birinə pislik etmədim».
16 Musa Qoraha dedi: «Sən və yoldaşların,
sabah Rəbbin hüzurunda olun – sən, onlar və
Harun. 17 Hər biriniz öz buxurdanınızı götürüb
üzərinə buxur qoyun. Sonra iki yüz əlli
nəfərin hər biri buxurdan götürüb Rəbbin
hüzuruna gətirsin. Sən və Harun da
buxurdanınızı gətirin». 18 Hər kəs öz
buxurdanını götürüb içinə közərmiş kömür və
buxur qoydu. Sonra Musa və Harunla birgə
Hüzur çadırının girişində durdular. 19 Qorah
Musa ilə Haruna qarşı çıxmaq üçün bütün
yoldaşlarını Hüzur çadırının girişinə

***15:38*** *– Qan.Tək. 22:12*
***16:1-2*** *– Yəhuda 11*

toplayanda Rəbbin izzəti bütün icmaya
göründü.
20 Rəbb Musaya və Haruna dedi: 21 «Bu
icmadan ayrılın ki, onları bir an içində məhv
edim». 22 Onlar üzüstə yerə sərildilər: «Ey
Allah, bütün bəşərə ruh verən Allah! Bir
adamın günahına görə bütün icmayamı
qəzəblənirsən?» 23 Rəbb Musaya dedi:
24 «İcmaya de: “Qorah, Datan və Aviramın
məskənlərinin ətrafından çəkilin!”»
25 Musa qalxıb Datanla Aviramın yanına
getdi. İsrailin ağsaqqalları da onun ardınca
getdilər. 26 Musa icmaya xəbərdarlıq edib dedi:
«Nə olar, bu pis adamların məskənlərindən
uzaqlaşın və onlara aid olan heç bir şeyə
toxunmayın. Yoxsa onların bütün günahlarına
görə siz məhv olarsınız». 27 Hamı Qorah,
Datan və Aviramın məskənlərindən uzaqlaşdı.
Datanla Aviram, arvadları, oğulları və körpə
uşaqları ilə çıxıb çadırlarının girişində
durdular. 28 Musa dedi: «Bütün bu işləri etmək
üçün məni Rəbbin göndərdiyini, özbaşıma
hərəkət etmədiyimi bununla biləcəksiniz.
29 Əgər bu adamlar hər kəsin öldüyü kimi
ölsələr və yaxud hər kəsin başına gələn
təcrübələrdən keçsələr, o halda Rəbb məni
göndərməmişdir. 30 Lakin Rəbb yeni bir şey
etsə, yer ağzını açaraq onları və onlara aid
olan hər şeyi udsa, onlar ölülər diyarına diri-
diri ensələr, bu adamların Rəbbi təhqir
etdiklərini anlayacaqsınız».
31 Musa bütün bu şeyləri danışıb qurtaran
kimi onların altındakı yer yarıldı. 32 Yer ağzını
açdı, onları, ailələrini, Qoraha aid olan bütün
adamları və bütün mallarını uddu. 33 Onlar və
onlara aid olanların hamısı diri-diri ölülər
diyarına endilər. Yer üzərlərinə qapandı və
camaat arasından yox oldular. 34 Onların
ətrafında olan bütün İsrail övladları onların
fəryadlarını eşidib: «Yer bizi də udmasın!»
deyərək qaçışdılar. 35 Rəbbin hüzurundan od
çıxdı və buxur təqdim edən iki yüz əlli nəfəri
məhv etdi.
36 Rəbb Musaya dedi: 37 «Kahin Harun oğlu
Eleazara de, buxurdanları yanmış adamların
üstündən götürsün, sən isə közləri kənara
dağıt, çünki buxurdanlar müqəddəsdir. 38 Öz
həyatı bahasına günah edən bu adamların
buxurdanlarından qurbangah üçün örtük
olaraq lövhələr düzəltsinlər. Çünki
buxurdanlar Rəbbə təqdim edildiyi üçün
müqəddəsdir. Qoy bu, İsrail övladlarına
əlamət olsun». 39 Yandırılan adamların təqdim
etmiş olduqları mis buxurdanları, kahin
Eleazar Rəbbin Musa vasitəsilə ona dediyi
kimi götürüb döydü və onlardan qurbangahı
örtmək üçün lövhələr düzəltdi. 40 Bu, İsrail
övladlarına bir xatirədir ki, Harunun
nəslindən olmayan bir kənar şəxs Rəbbin
hüzuruna gəlib buxur yandırmasın, yoxsa
Qorah və yoldaşları kimi məhv olar.
41 Ancaq ertəsi gün İsrailin bütün icması
Musaya və Haruna qarşı deyinərək dedilər:
«Rəbbin xalqını siz öldürdünüz». 42 İcma
Musaya və Haruna qarşı çıxmaq üçün
toplanıb Hüzur çadırına yönələndə qəflətən
bulud çadırı bürüdü və Rəbbin izzəti göründü.
43 Musa ilə Harun Hüzur çadırının önünə
gəldilər. 44 Rəbb Musaya dedi: 45 «Bu icmanın
arasından çıxın ki, onları bir anda məhv
edim». Musa ilə Harun üzüstə yerə sərildilər.
46 Sonra Musa Haruna dedi: «Öz buxurdanını
götür, içinə qurbangahdan közərmiş kömür və
buxur qoy. Tez icmaya apar, onlar üçün
kəffarə et, çünki Rəbb qəzəbini tökdü. Vəba
başladı». 47 Musanın dediyi kimi Harun
buxurdanı götürdü və camaatın arasına qaçdı.
Gördü ki, xalq arasında vəba başlamışdır.
Buna görə buxuru təqdim edərək xalq üçün
kəffarə etdi. 48 Harun ölülərlə dirilər arasında
duranda vəba dayandı. 49 Qorah əhvalatında
ölənlərdən başqa vəbadan ölənlər on dörd min
yeddi yüz nəfər idi. 50 Vəba dayandığına görə
Harun Musanın yanına Hüzur çadırının
girişinə qayıtdı.

### *Harunun əsası*

17 1 Rəbb Musaya belə dedi: 2 «İsrail
övladlarına de və hər qəbilə üçün bir
əsa götür. Qəbilə rəhbərlərinin hər birindən
alınan on iki əsa olacaq. Hər birinin adını öz
əsasının üzərinə yaz. 3 Harunun adını Levi
əsasının üzərinə yaz ki, hər qəbilə başçısı
üçün bir əsa olsun. 4 Əsaları sizinlə
görüşdüyüm yerə, Hüzur çadırındakı Şəhadət
sandığının qarşısına qoy. 5 O zaman
seçəcəyim adamın əsası tumurcuqlayacaq və
İsrail övladlarının sizə qarşı sürəkli
deyinmələrinə son qoyacağam». 6 Musa İsrail
övladları ilə danışdı. Onların bütün rəhbərləri
ona bir əsa verdilər. Hər qəbilə rəhbəri üçün
biri olmaqla on iki əsa var idi. Harunun əsası

---

***16:41-49** – 1Kor. 10:10*

da onların əsaları arasında idi. 7 Musa əsaları
Şəhadət çadırında Rəbbin önünə qoydu.
8 Ertəsi gün Musa Şəhadət çadırına girdi və
gördü ki, Levi nəslini təmsil edən Harunun
əsası tumurcuqlayıb. Budur, tumurcuq
qönçələnmiş, çiçək açmış və badam
yetişdirmişdi. 9 Musa əsaların hamısını Rəbbin
hüzurundan bütün İsrail övladlarının qarşısına
çıxardı. Əsalara baxdılar və hər kəs öz əsasını
götürdü.
10 Rəbb Musaya dedi: «Üsyan edənlərə
qarşı əlamət olaraq saxlamaq üçün Harunun
əsasını Şəhadət sandığının önünə qoy. Bu
onların mənim üçün deyinmələrinə son
qoyacaq ki, ölməsinlər». 11 Musa Rəbbin əmr
etdiyinə əməl etdi.
12 İsrail övladları Musaya dedilər: «Yox
olacağımız bəllidir! Məhv olacağıq! Hamımız
həlak olacağıq! 13 Rəbbin məskəninə
yaxınlaşan hər kəs ölür. Doğrudanmı hamımız
öləcəyik?»

### *Kahinlərlə Levililərin vəzifəsi*

18 1 Rəbb Haruna dedi: «Sən,
övladların və atanın nəsli müqəddəs
məkanla əlaqədar hər hansı bir günah üçün
məs'uliyyət daşıyacaqsınız. Kahinliklə
əlaqədar günahlar üçün məs'uliyyəti yalnız
sən və oğulların daşıyacaqsınız. 2 Atanın
qəbiləsi olan Levi qəbiləsinə mənsub olan
soydaşlarınızı da özünlə götür ki, sən və
övladların Şəhadət çadırının önündə ikən sənə
qoşulub kömək etsinlər. 3 Sənin qarşında
cavabdehlik daşıyaraq çadırın bütün işlərinə
baxsınlar. Ancaq müqəddəs yerin əşyalarına
və qurbangaha yaxınlaşmasınlar ki, həm onlar,
həm də siz ölməyəsiniz. 4 Sənə qoşulsunlar və
Hüzur çadırının işlərinə, çadırdakı bütün
xidmətlərə cavabdeh olsunlar. Başqa heç
kimsə sizə yaxınlaşmamalıdır. 5 Müqəddəs
yerə və qurbangaha cavabdeh olun ki, İsrail
övladları bir də qəzəbimə düçar olmasınlar.
6 Budur, Mən İsrail övladları arasından Levili
soydaşlarınızı sizə hədiyyə olaraq seçdim.
Onlar Rəbbə Hüzur çadırında xidmət etmək
üçün həsr olunmuşlar. 7 Lakin qurbangaha və
pərdənin iç tərəfinə aid olan hər şeyə yalnız
sən və oğulların kahin kimi xidmət edin.
Kahinlik xidmətinizi sizə hədiyyə olaraq
verirəm. Sizdən başqa müqəddəs yerə kim
yaxınlaşarsa, öldürülsün».

### *Kahinlə Levililərin payı*

8 Rəbb Haruna dedi: «Budur, Mənə gətirilən
təqdimlərə nəzarət etməyi sənə tapşırdım.
İsrail övladlarının bütün müqəddəs
təqdimlərini əbədi pay olaraq sənə və
övladlarına verirəm. 9 Qurbangahda
yandırılmayan ən müqəddəs təqdimlərdən
bunlar sənin olsun: taxıl təqdimləri, günah
qurbanları və təqsir qurbanları – Mənə
gətirilən ən müqəddəs təqdimlərin hamısı
sənin və övladlarının olsun. 10 Bu ən
müqəddəs şeyləri ye. Kişi cinsindən hər kəs
onlardan yeyə bilər. Onları müqəddəs say.
11 Bunlar, İsrail övladlarının xüsusi hədiyyə
olaraq gətirdikləri yellətmə təqdimlərinin
hamısı sənindir. Onları sənə və oğullarınla
qızlarına əbədi pay olaraq verdim. Sənin
ailəndə pak olan hər kəs onu yeyə bilər.
12 Rəbbə verdikləri ilk məhsulları, zeytun
yağının ən yaxşısının hamısını, təzə şərabın
və buğdanın ən yaxşısının hamısını sənə
verdim. 13 Torpaqlarında bitən nübardan
Rəbbə gətirdiklərinin hamısı sənin olsun.
Sənin ailəndə pak olan hər kəs onu yeyə bilər.
14 İsraildə Rəbbə həmişəlik həsr olunan hər
şey sənin olsun. 15 Hər bətndən ilk doğulan,
Rəbbə həsr olunan bütün oğlanlar və bütün
heyvan balaları sənin olsun. Ancaq hər ilk
oğlanın əvəzini mütləq ödə, hər murdar
heyvanın ilk balasının da əvəzini ödə. 16 Onlar
bir aylıq olanda sənin qoyduğun qiymətə görə
iyirmi gera ağırlığında olan Müqəddəs
yerdəki şekelə görə beş şekel gümüşlə
əvəzlərini ödə. 17 Ancaq inəyin, qoyunun və
yaxud da keçinin ilk balasının əvəzini ödəmə.
Onlar müqəddəsdirlər. Qanlarını qurbangah
üzərinə səp və piylərini tüstülədib yandır ki,
Rəbbin xoşuna gələn ətirli təqdim olsun.
18 Yellədilən döş əti və sağ budu kimi onların
əti də sənin olsun. 19 İsrail övladlarının Mənə
qaldırma təqdimi kimi gətirdikləri müqəddəs
təqdimlərin hamısını Mən Rəbb sənə və
oğullarınla qızlarına əbədi pay olaraq verdim.
Bu, Rəbbin səninlə və nəslinlə kəsdiyi əbədi
və pozulmaz əhddir».[4]

***17:8-10*** *– İbr. 9:4*
***18:2-6*** *– İbr. 9:6*

***18:14*** *– Lev. 27:28*
[4] **18:19** *Əbədi və pozulmaz əhd* – hərfi tərcümədə *əbədi duz əhdi.*

20 Rəbb Haruna dedi: «Onların torpağında sənin irsin olmayacaq və onlar arasında heç bir payın olmayacaq. İsrail övladları arasında sənin payın və irsin Mənəm. 21 Levililərə isə İsraildə olan bütün varidatın onda birinin irs olaraq verdim. Bu, xidmətlərinin Hüzur çadırında etdikləri xidmətin əvəzidir. 22 Artıq İsrail övladları Hüzur çadırına yaxınlaşmasınlar ki, günahlarının cəzasını çəkib ölməsinlər. 23 Lakin Hüzur çadırının xidmətini Levililər etsinlər və çadırla əlaqədar günahlarının cəzasını çəksinlər. Bu, nəsildən-nəslə qədər sizin üçün əbədi qaydadır. İsrail övladları arasında onların irsi olmayacaq. 24 Bunun yerinə Levililərə irs olaraq İsrail övladlarının Rəbbə qaldırma təqdimi kimi verdikləri onda birini verdim. Buna görə Levililər üçün dedim ki, İsrail övladları arasında onların irsi olmayacaq».

25 Rəbb Musaya dedi: 26 «Levililərə belə söylə: "İsrail övladlarının məhsullarından irsiniz olaraq sizə verdiyim onda bir hissəni aldığınız vaxt bu hissənin onda birini qaldırma təqdimi kimi verin. 27 Təqdiminiz xırmanda döyülən taxıl yaxud üzümsıxandan çıxan məhsul kimi sayılacaq. 28 Beləliklə, İsrail övladlarından alacağınız onda birlərinizin hamısından Rəbbə qaldırma təqdimini gətirib kahin Haruna verin. 29 Bütün hədiyyələrinizdən Rəbbə qaldırma təqdimi verin. Hər təqdim onun təqdis olunmuş ən yaxşı hissəsindən olsun". 30 Bunun üçün onlara deyin: "Ondan ən yaxşısını təqdim etdiyiniz zaman bu, Levililər üçün xırman məhsulu yaxud üzümsıxan məhsulu kimi sayılacaq. 31 Siz və ev xalqınız hər yerdə onu yeyəcəksiniz, çünki o, haqqınız, Hüzur çadırında olan xidmətinizin əvəzidir. 32 Ondan ən yaxşısını təqdim edəndə ondan savayı günahın cəzasını çəkməmək üçün İsrail övladların müqəddəs təqdimlərini pozmayın ki, ölməyəsiniz"».

### *Qırmızı düyə və paklama suyu*

19

1 Rəbb Musaya və Haruna dedi: 2 «Bu, Rəbbin əmr etdiyi qanunun qaydasıdır: İsrail övladlarına deyin ki, qüsursuz, eyibsiz, üzərində heç vaxt boynuna bir boyunduruq taxılmayan bir qırmızı düyə gətirsinlər. 3 Onu kahin Eleazara verin. Düyə düşərgənin bayırına çıxarılsın və onun önündə kəsilsin. 4 Kahin Eleazar barmağı ilə onun qanından götürərək Hüzur çadırının önünə doğru yeddi dəfə çiləsin. 5 Onun gözləri önündə düyə yandırılsın. Dərisi, əti və qanı, bağırsağı ilə birgə yansın. 6 Kahin sidr ağacının budağını, züfa otunu və al rəngli ipi götürüb yandırılan düyənin üstünə atsın. 7 Kahin geyimlərini yusun, bədənini su ilə yusun, sonra düşərgəyə girsin. O, axşama qədər murdar sayılsın. 8 Qoy düyəni yandıran adam da geyimlərini yusun, bədənini də su ilə yusun və axşama qədər murdar sayılsın. 9 Düyənin külünü pak adam toplayıb düşərgənin bayırında pak bir yerə qoysun və İsrail icması naminə paklama suyu düzəltmək üçün saxlanılsın. Bu, günah qurbanıdır. 10 Düyənin külünü toplayan adam geyimlərini yusun və axşama qədər murdar sayılsın. Bu, İsrail övladları üçün və aralarında yaşayan yadellilər üçün də əbədi bir qaydadır.

11 Hər hansı bir insan meyitinə toxunan yeddi gün murdar olacaq. 12 Üçüncü və yeddinci gün özünü paklama suyu ilə paklasın ki, pak olsun. Əgər üçüncü və yeddinci gün özünü paklamasa, pak olmayacaq. 13 Bir ölüyə, hər hansı bir insan meyitinə toxunan və özünü pak etməyən adam Rəbbin məskənini murdar edər, o şəxs İsraildən qovulsun. Paklama suyu onun üzərinə çilənmədiyi üçün murdar sayılsın. Onun murdarlığı hələ üzərində qalır.

14 Çadırda ölən adam üçün tə'limat belədir: çadıra girən və çadırda olan hər kəs yeddi gün murdar sayılsın. 15 İplə bağlanmış qapağı olmayan hər açıq qab murdar sayılsın. 16 Çöldə qılıncla öldürülmüş olana, bir ölüyə yaxud bir insan sümüyünə yaxud da qəbrə toxunan şəxs yeddi gün murdar sayılsın. 17 Murdar adam üçün yanmış günah qurbanı külündən götürüb onun üzərinə axar su tökün. 18 Pak bir adam züfa otunu götürüb, o suya batırsın və çadırın, bütün qabların və orada olanların üzərinə çiləsin. Sümüyə, öldürülən adama, meyitə yaxud da qəbrə toxunan adamın üzərinə də çiləsin. 19 Pak adam murdar adamın üzərinə üçüncü gün və yeddinci gün çiləsin və yeddinci gün bu pak olacaq. O, geyimlərini yusun, su ilə yuyunsun və axşam pak sayılsın.

20 Ancaq murdar olub özünü pak etməyən adam camaat arasından qovulsun, çünki

---

***18:21*** *– Lev. 27:30-33; Qanun. 14:22-29; İbr. 7:5*

***19:9*** *– İbr. 9:13*

Rəbbin müqəddəs məkanını murdarlayıb.
Onun üzərinə paklama suyu çilənmədiyi üçün
o murdar sayılsın. [21] Bu onlara əbədi qayda
olsun: paklama suyu çiləyən adam
geyimlərini yusun və paklama suyuna
toxunan adam axşama qədər murdar sayılsın.
[22] Murdar adamın toxunduğu hər şey murdar
sayılsın. O şeyə toxunan adam axşama qədər
murdar sayılsın».

### *Qayadan çıxan su*

20 [1] Birinci ay bütün İsrail övladlarının
icması Zin səhrasına gəldi. Onlar
Qadeşdə dayandılar. Məryəm oradaca öldü və
elə orada da basdırıldı.

[2] İsrail icması üçün su yox idi, ona görə
Musa və Haruna e'tiraz etmək üçün
toplandılar. [3] Xalq Musaya narazılıq edib dedi:
«Kaş ki biz də soydaşlarımızla birgə Rəbbin
önündə öləydik! [4] Rəbbin camaatını bu
səhraya nə üçün gətirdiniz? Bizim və
heyvanlarımızın burada ölməsi üçünmü? [5] Nə
üçün bizi Misirdən çıxarıb belə pis yerə
gətirdiniz? Bura nə əkin, nə əncir, nə bağ, nə
də nar yeridir. İçməyə belə, su yoxdur».

[6] Musa ilə Harun camaatın önündən Hüzur
çadırının girişinə getdilər və üzüstə yerə
sərildilər. Rəbbin izzəti onlara göründü.
[7] Rəbb Musaya dedi: [8] «Əsanı götür, sən və
qardaşın Harun icmanı toplayın və onların
gözü önündə qayaya su versin deyə söyləyin.
Qayadan onlara su çıxart, icmaya və
heyvanlarına içirt». [9] Musa əmr olunduğu
kimi əsanı Rəbbin önündən götürdü.

[10] Musa ilə Harun camaatı qayanın önünə
topladılar və onlara dedilər: «Ey dönük
olanlar, indi dinləyin; bu qayadan sizə su
çıxaraqmı?» [11] Musa əlini qaldırdı və əsası ilə
iki dəfə qayaya vurdu, qayadan bol su çıxdı.
Bütün icma və onların heyvanları su içdilər.

[12] Lakin Rəbb Musaya və Haruna dedi:
«Madam ki İsrail övladlarının gözü önündə
Mənim müqəddəsliyimi göstərərək Mənə
iman etmədiniz, bu icmanı onlara verdiyim
ölkəyə aparmayacaqsınız». [13] Bu sulara
Meriva suları deyilir, çünki bu yerdə İsrail
övladları Rəbb ilə mübahisə etdilər və Rəbb
onlara Öz müqəddəsliyini göstərdi.

### *Edom padşahının İsrail övladlarına e'tirazı*

[14] Musa Qadeşdən Edom padşahına bu
xəbərlə qasidlər göndərdi: «Qardaşın İsrail
belə deyir: "Çəkdiyimiz zəhmətin hamısını
bilirsən. [15] Atalarımız Misirə köçdülər və biz
bir xeyli vaxt Misirdə yaşadıq. Misirlilər
bizimlə və atalarımızla pis rəftar etdilər.
[16] Rəbbə fəryad etdik, O da səsimizi eşitdi və
bir mələk göndərdi, bizi Misirdən çıxardı.
İndi biz sənin sərhədinə yaxın bir şəhər olan
Qadeşdəyik. [17] Sənə rica edib torpağından
keçmək üçün izin istəyirəm. Biz tarladan və
bağdan keçməyəcəyik, heç bir quyudan su
içməyəcəyik. Padşah yolu ilə sənin
torpaqlarından keçənədək sağa və sola
dönməyəcəyik"». [18] Lakin Edomlular ona
dedilər: «Torpağımızdan keçməyin, yoxsa
qarşınıza qılıncla çıxarıq». [19] İsrail övladları
onlara dedilər: «Biz əsas yolla getmək
istəyirik. Əgər biz və sürülərimiz sularından
içəriksə, dəyərini ödəyərik; yalnız piyada
getməkdən başqa heç nə istəmirik».
[20] Edomlular dedilər: «Keçmək olmaz». Sonra
Edomlular böyük və güclü bir ordu ilə onların
qarşısına çıxdılar. [21] Edomlular ölkəsindən
İsrail övladlarının keçməsinə izin verməyəndə
İsraillilər onların torpaqlarından çəkildilər.

### *Harunun ölümü*

[22] Bütün İsrail icması Qadeşdən yola düşüb
Hor dağına gəldi. [23] Rəbb Edom torpağı
sərhədində Hor dağında Musa ilə Haruna belə
dedi: [24] «Harun ölüb öz xalqına qovuşacaq,
çünki Meriva sularında sözümə asi olduğunuz
üçün İsrail övladlarına və'd etdiyim ölkəyə
girməyəcək. [25] Harunu və oğlu Eleazarı götür,
onları Hor dağına apar. [26] Harunun paltarlarını
çıxar və onları oğlu Eleazara geyindir, Harun
isə oradaca ölüb xalqına qovuşacaq».

[27] Musa Rəbbin əmr etdiyi kimi etdi və
bütün icmanın gözü önündə Hor dağına
çıxdılar. [28] Musa Harunun kahinlik
geyimlərini çıxarıb oğlu Eleazara geyindirdi.
Harun orada dağın təpəsində öldü. Musa ilə
Eleazar dağdan endilər. [29] Bütün icma
Harunun öldüyünü bildi. Bütün İsrail xalqı
onun üçün otuz gün yas tutdu.

---

***20:2-13*** *– Çıx. 17:1-7; 1Kor. 10:4*

***20:28*** *– Çıx. 29:29*
***20:28*** *– Say. 33:38; Qanun. 10:6*

### *Arad şəhərinin yox edilməsi*

21 [1] Negevdə yaşayan Kən'anlı Arad
padşahı İsrail övladlarının Atarim
yolundan keçdiyini eşitdi. O, İsrail övladları
ilə vuruşaraq bir neçə nəfəri əsir tutdu. [2] İsrail
övladları Rəbbə əhd edib dedilər: «Əgər,
həqiqətən, bu xalqı bizə təslim etsən, o zaman
onların şəhərlərini tamamilə yox edəcəyik».
[3] Rəbb İsraillilərin səsini eşitdi. Kən'anlıları
onlara təslim etdi. İsraillilər də onları və
şəhərlərini tamamilə yox etdilər və beləliklə,
o yerin adı Xorma[5] qoyuldu.

### *Tunc ilan*

[4] Xalq Hor dağını tərk edib, Edom
torpağının ətrafından keçmək üçün Qırmızı
dəniz yolundan keçdilər. Yolda onların səbri
tükəndi. [5] Onlar Allaha və Musaya qarşı
deyinirdilər: «Nə üçün siz bizi Misirdən
çıxardınız? Səhrada ölmək üçünmü? Axı
burada nə çörək, nə də su var. Bu dadsız
yeməkdən də iyrənirik».

[6] O zaman Rəbb xalqın arasına zəhərli
ilanlar göndərdi. İlanlar xalqı sancdı və İsrail
övladlarından çox adam öldü. [7] Xalq gəlib
Musaya dedi: «Biz günah etdik, çünki Rəbbə
və sənə qarşı deyindik. İndi isə ilanları bizdən
uzaqlaşdırmaq üçün Rəbbə yalvar». Musa
xalqı xilas etmək üçün Rəbbə yalvardı. [8] Rəbb
Musaya dedi: «Özünə bir ilan düzəlt və onu
uzun dəyənəyin üzərinə qoy. İlan vuran adam
ona baxdıqda sağalsın». [9] Musa tuncdan bir
ilan düzəltdi və dəyənəyin üzərinə qoydu, ilan
vuran hər adam tunc ilana baxan kimi
sağalırdı.

### *Moav səfəri*

[10] İsrail övladları yola düşüb Ovotda
düşərgə saldılar. [11] Ovotdan köç edib Moavın
şərqindəki səhrada İye-Avarimdə dayandılar.
[12] Oradan da yola düşdülər və Zered vadisində
dayandılar. [13] Oradan da yola düşüb
Emorluların sərhədindən çıxan səhradakı
Arnon dərəsinin o tayında dayandılar, çünki
Arnon dərəsi Moavlılarla Emorlular
arasındakı sərhəddir. [14] Bu barədə «Rəbbin
Döyüşləri» kitabında yazılmışdır:
«Sufada olan Vahev və vadilər, Arnon,
[15] Arın məskəninə uzanıb
Moav sərhədinə çatan vadilərin
yamacları…»
[16] Oradan Beerə[6] yola düşdülər; Rəbbin
Musaya «xalqı topla, onlara su verəcəyəm»
dediyi quyu budur. [17] O zaman İsrail övladları
bu nəğməni oxudular:
«Ey quyu, suların fışqırsın,
Ona nəğmə oxuyun,
[18] O quyu ki onu başçıların açdı,
Xalqın əsilzadələri
Əsa ilə, dəyənəklə qazdı».
Sonra səhradan Mattanaya yollandılar.
[19] Mattanadan Naxalielə, Naxalieldən Bamota,
[20] Bamotdan isə Moav torpağında olan dərəyə,
çölə baxan Pisqa dağının yamaclarına getdilər.

### *Padşah Sixonun və padşah Oqun məğlub olması*

*(Qanun. 2:26-3:11)*

[21] İsrail Emorluların padşahı Sixona
qasidlər göndərib dedi: [22] «Rica edirəm, sənin
torpağından keçmək üçün bizə izin verəsən.
Nə tarlaya, nə də bağa girəcəyik. Quyularının
suyundan belə, içməyəcəyik. Sənin
sərhədindən keçənədək yalnız padşah yolu ilə
gedəcəyik».
[23] Lakin Sixon İsraili öz sərhədlərindən
buraxmayaraq bütün ordusunu topladı və
İsrail övladları ilə vuruşmaq üçün səhraya
çıxdı. Yahsaya çatanda İsraillilərə hücum etdi.
[24] İsrail övladları onu qılıncdan keçirdilər,
Arnondan Yabboqa və Ammonluların
sərhədinə qədər uzanan torpaqlarını aldılar.
Çünki Ammon sərhədinin möhkəm istehkamı
var. [25] İsrail övladları bu şəhərlərin hamısını
ələ keçirdilər. Xeşbon və ətrafındakı
qəsəbələr daxil olmaqla Emorluların bütün
şəhərlərinə yerləşdilər. [26] Çünki Xeşbon
Emorluların padşahı Sixonun şəhəri idi. Sixon
Moavın əvvəlki padşahı ilə döyüşmüş və
Arnona qədər uzanan bütün torpaqlarını ələ
keçirmişdi.
[27] Bunun üçün şairlər belə deyirlər:
«Xeşbona gəlin;
Qoy yenidən qurulsun,
Sixonun şəhəri bərpa edilsin.
[28] Çünki Xeşbondan atəş,
Sixonun şəhərindən alov çıxdı;
Moavın Ar şəhərini,

***21:1** – Say. 33:40*
[5] **21:3** *Xorma* – ibrani dilində *tamamilə yox etmək.*
***21:4** – Qanun. 2:1*
***21:5-6** – 1Kor. 10:9*
***21:9** – 2Pad. 18:4; Yəh. 3:14*
[6] **21:16** *Beer* – ibrani dilində *quyu.*
***21:28-29** – Yer. 48:45-46*

Arnonun təpələrinin başçılarını
Yandırıb məhv etdi.
29 Vay halına, ey Moav!
Ey Kemoşun xalqı, yox oldun!
Kemoş övladları Emorluların padşahı
Sixonun qarşısından qaçdı,
Qızları əsir aparıldı.
30 Lakin biz onları məğlub etdik,
Xeşbondan Divona qədər məhv oldular,
Medvaya uzanan Nofahadək
Hər tərəfi viran etdik».
31 İsraillilər Emorluların torpağında
məskunlaşdı. 32 Musa Yazeri nəzərdən
keçirmək üçün adamlar göndərdi. İsrail
övladları ətraf qəsəbələri ələ keçirərək orada
yaşayan Emorluları qovdular.
33 Sonra istiqaməti dəyişib Başana
yollandılar. Başan padşahı Oq bütün ordusu
ilə bərabər Edreidə onlarla döyüşə çıxdı.
34 Rəbb Musaya dedi: «Ondan qorxma, çünki
Mən onu, bütün xalqını və torpağını sənə
təslim edirəm. Xeşbonda yaşayan Emorluların
padşahı Sixonun başına gətirdiyini onun da
başına gətir». 35 İsraillilər onu, övladlarını və
bütün xalqını bir nəfər qalmayana qədər
qırdılar və torpağını ələ keçirdilər.

### *Balaqın Bilamı çağırması*

22 1 İsrail övladları yola düşüb Moav
düzənliyində, İordanın şərqində
Yerixonun qarşısında dayandılar.
2 İsrailin Emorluların başına gətirdiyi hər
şeyi Sippor oğlu Balaq görmüşdü. 3 Camaatı
gördükdə Moavlılar bərk qorxdular, çünki
İsrail xalqı çox idi. Moav sakinləri İsrail
övladlarından vahiməyə düşdü. 4 Moavlılar
Midyan ağsaqqallarına dedilər: «Öküz çöl
otunu yediyi kimi bu camaat da indi bütün
ətrafımızı yeyib qurtaracaq». O vaxtlar Sippor
oğlu Balaq Moav padşahı idi. 5 Beor oğlu
Bilamı çağırmaq üçün Fərat çayının
kənarındakı Petora, onun vətəninə qasidlər
göndərib dedi: «Budur, Misirdən bir xalq
çıxıb, yer üzünü bürüyərək yaxınlığımda
yerləşmişdir. 6 Xahiş edirəm, indi gəl, mənim
xeyrimə bu xalqa lə'nət oxu, çünki onlar
məndən güclüdür. Bəlkə onda mən onları
məğlub edib ölkədən qova bildim. Sənin
xeyir-dua verdiyin xeyir-dualı, lə'nətlədiyin
lə'nətli olduğunu bilirəm».

7 Moav ağsaqqalları ilə Midyan ağsaqqalları
fala baxmaq haqqını əllərinə götürüb Bilamın
yanına getdilər və Balaqın sözlərini ona
söylədilər. 8 Bilam onlara dedi: «Bu gecəni
burada keçirin ki, Rəbb mənə söyləyəcəyini
sizə deyim». Beləliklə, Moav başçıları
Bilamın yanında qaldılar.
9 Allah Bilamın yanına gəlib dedi:
«Evindəki bu adamlar kimdir?» 10 Bilam
Allaha dedi: «Moav padşahı Sippor oğlu
Balaq mənim yanıma adam göndərib dedi:
11 "Budur, Misirdən çıxan xalq yer üzünü
bürüyür. İndi gəl, mənim xeyrimə görə ona
lə'nət oxu, bəlkə döyüşüb onları qova
bildim"». 12 Allah Bilama dedi: «O adamlarla
getmə, o xalqa lə'nət etmə, çünki xeyir-dualı
xalqdır». 13 Bilam səhər tezdən durdu və
Balaqın başçılarına dedi: «Torpağınıza
qayıdın, çünki Rəbb sizinlə birgə getməyə
mənə izin vermir». 14 Moav başçıları qalxdılar
və Balaqın yanına gəlib dedilər: «Bilam
bizimlə birgə gəlmək istəmədi».
15 Yenə Balaq əvvəlkilərdən daha çox və
daha e'tibarlı başçılar göndərdi. 16 Bilamın
yanına gəlib ona dedilər: «Sippor oğlu Balaq
belə deyir: "Xahiş edirəm, yanıma gəlməkdən
imtina etmə. 17 Çünki sənə çox mükafat
verəcəyəm və nə desən, hamısını edəcəyəm.
İndi xahiş edirəm, gəl, mənim xeyrimə görə
bu xalqa lə'nət oxu"». 18 Bilam cavab verib
Balaqın adamlarına dedi: «Balaq evini qızıl
və gümüşlə dolu mənə versə belə, Allahım
Rəbbin sözündən yan keçib, nə kiçik, nə də
böyük iş görə bilərəm. 19 İndi xahiş edirəm,
siz də bu gecə burada qalın və görüm Rəbb
mənə başqa nə deyəcək». 20 Allah gecə ikən
Bilama görünüb ona dedi: «Əgər bu adamlar
səni çağırmaq üçün gəliblərsə, qalx onlarla
get, ancaq mənim sənə söyləyəcəyim şeyləri
et».

### *Bilamın eşşəyi*

21 Bilam səhər tezdən qalxaraq eşşəyinə
palan vurub Moav başçıları ilə birgə getdi.
22 O getdiyi üçün Allahın qəzəbi alovlandı və
Rəbbin mələyi ona qarşı çıxmaq üçün yolda
durdu. Bilam eşşəyinə minmişdi və onunla
bərabər iki nökəri də vardı. 23 Eşşək siyrilmiş
qılıncı əlində yolda duran Rəbbin mələyini
gördü və yoldan dönərək tarlaya girdi. Bilam
yoluna döndərmək üçün eşşəyi vurdu.
24 Rəbbin mələyi bağların arasında dar bir
yolda durdu. Hər iki tərəf divar idi. 25 Eşşək

***22:5** – 2Pet. 2:15-16; Yəhd. 11*

Rəbbin mələyini görüb divara sıxıldı və
Bilamın ayağını divara sıxışdırdı. O yenə
eşşəyi vurmağa başladı. 26 Rəbbin mələyi irəli
çıxdı və sağa-sola dönmək üçün yol olmayan
dar bir yerdə durdu. 27 Eşşək Rəbbin mələyini
gördü və Bilamın altında çökdü. Bilamın
qəzəbi alovlandı, dəyənəklə eşşəyi vurdu.
28 Rəbb eşşəyin dilini açdı və o, Bilama dedi:
«Sənə nə etdim ki, məni üç dəfə vurdun?»
29 Bilam eşşəyə dedi: «Çünki mənimlə
əyləndin. Kaş ki əlimdə bir qılınc olaydı, indi
səni öldürərdim». 30 Eşşək Bilama dedi:
«Ömrünün əvvəlindən bu günə qədər belinə
mindiyin eşşəyin mən deyiləmmi? Mən sənə
heç belə edərdimmi?» Bilam dedi: «Xeyr».

31 Sonra Rəbb Bilamın gözlərini açdı. Bilam
əlində siyrilmiş qılınc olan Rəbbin mələyinin
yolda durduğunu gördü və başını əyib üzüstə
yerə sərildi. 32 Rəbbin mələyi ona dedi: «Nə
üçün eşşəyini üç dəfə vurdun? Budur, mən
sənə qarşı durmaq üçün çıxdım. Məncə
tezliklə yolun məhvə doğru gedir. 33 Eşşək
məni gördü, bu üç dəfədir ki, önümdən yana
döndü. Əgər yoldan dönməsəydi, həqiqətən,
indi səni öldürərdim və onu sağ buraxardım».
34 Bilam Rəbbin mələyinə dedi: «Günah etdim,
çünki sənin mənə qarşı yolda durduğunu
bilmədim. İndi əgər bu sənin gözündə pis
görünürsə, qoy evimə qayıdım». 35 Rəbbin
mələyi Bilama dedi: «Bu adamlarla get, ancaq
yalnız sənə deyəcəyim sözü de». Bilam
Balaqın başçıları ilə bərabər getdi.

36 Balaq Bilamın gəldiyini eşitdikdə onu
qarşılamaq üçün Arnon çayının kənarında,
torpağının ən uzaq sərhədində olan İr-Moav
şəhərinə getdi. 37 Balaq Bilama dedi: «Səni
çağırtdırmaq üçün adam göndərmədimmi? Nə
üçün mənim yanıma gəlmədin? Məgər mən
sənə mükafat verə bilmirəmmi?» 38 Bilam
Balaqa dedi: «Budur, indi sənin yanına
gəldim! Amma nə deyə bilərəm ki? Ancaq
Allahın dilimə qoyacaq sözü söyləyəcəyəm».
39 Bilam Balaqla birgə getdi və Qiryat-Xusota
gəldilər. 40 Balaq mal-qaranı və qoyun-keçini
qurban kəsdi. Bilama və onunla birgə olan
başçılara ət göndərdi. 41 Bundan sonra səhəri
gün Balaq Bilamı götürdü və onu Bamot-
Baala çıxartdı. Bilam oradan İsrail xalqının
bir hissəsini gördü.

### *Bilamın birinci dəfə gələcəkdən xəbər vermәsi*

23 1 Bilam Balaqa dedi: «Burada mənə
yeddi qurbangah düzəlt və mənim
üçün burada yeddi buğa və yeddi qoç hazırla».
2 Balaq Bilamın dediyi kimi etdi. Balaq ilə
Bilam hər qurbangahda bir buğa və bir qoç
təqdim etdilər. 3 Bilam Balaqa dedi: «Sən
yandırma qurbanının yanında dur, mən gedim.
Bəlkə Rəbb məni qarşılamağa gələcək və
mənə nə göstərsə, sənə bildirərəm». Sonra
çılpaq bir təpəyə çıxdı.

4 Allah Bilamla qarşılaşdı və Bilam Ona
dedi: «Yeddi qurbangah hazırladım və hər
qurbangahda bir buğa ilə bir qoç təqdim
etdim». 5 Rəbb Bilamın vasitəsilə bir kəlam
dedi: «Balaqın yanına qayıdıb belə de».
6 Bilam Balaqın yanına qayıtdı. Gördü ki,
Balaq və Moavın bütün başçıları yandırma
qurbanlarının yanında durublar. 7 Bilam
gələcəkdən xəbər verib dedi:

«Balaq məni Aramdan,
Moav padşahı məni şərq dağlarından
gətirdi,
"Gəl, mənim xeyrimə görə Yaquba
lə'nət oxu,
Gəl İsrailə qarğış et" dedi.
8 Allahın lə'nət etmədiyinə mən necə
lə'nət edim?
Rəbbin qarğış etmədiyinə mən necə
qarğış edim?
9 Qayaların zirvəsindən onları görürəm
mən,
Təpələrdən onlara baxıram.
Müstəqil yaşayan,
Ellərdən özünü ayıran
Bir xalq görürəm.
10 Kim Yaqubun tozunu saya bilər?
İsrailin dörddə birini
Axı kim hesablar?
Qoy saleh adamların ölümü ilə ölüm!
Onlar necə olubsa, sonum elə olsun!»

11 Balaq Bilama dedi: «Mənə nə etdin?
Düşmənlərimə lə'nət etmək üçün səni
gətirdim, budur, sən onlara xeyir-dua verdin!»
12 Bilam cavab verdi: «Rəbbin dilimə
qoyduğunu söyləməyə diqqət etməli
deyiləmmi?»

### *Bilamın ikinci dəfə gələcəkdən xəbər vermәsi*

[13] Balaq ona dedi: «Xahiş edirəm, mənimlə
gəl, başqa bir yerə gedək, oradan onları
görəcəksən. Onların hamısını yox, bir qismini
görəcəksən. Oradan mənim xeyrimə onlara
lə'nət oxu». [14] Onu Pisqa təpəsindəki Sofim
yaylağına apardı, yeddi qurbangah düzəltdi və
hər qurbangahda bir buğa, bir qoç təqdim etdi.
[15] Bilam Balaqa dedi: «Bir az irəlidə Rəblə
görüşə gedirəm. Sən burada yandırma
qurbanının yanında dur». [16] Rəbb Bilama
görünüb nə deyəcəyini ona bildirərək dedi:
«Balaqın yanına qayıt və belə de». [17] Beləliklə,
Bilam Balaqın yanına gəldi. Gördü ki, Balaq
yandırma qurbanının yanında durub. Moav
başçıları da onunla bərabər idi. Balaq ondan
soruşdu: «Rəbb nə dedi?» [18] Bilam gələcəkdən
xəbər verib dedi:

«Ey Balaq, oyan və dinlə;
Ey Sippor oğlu, mənə qulaq as.
[19] Allah insan deyil ki,
Yalan söyləsin,
Bəşər oğlu deyil ki,
Fikrini dəyişdirsin.
Dediyini həyata keçirməzmi?
Verdiyin sözü yerinə yetirməzmi?

[20] Budur, xeyir-dua üçün əmr aldım;
O, xeyir-dua vermişdir,
Mən onu dəyişə bilmərəm.
[21] Yaqubda bədbəxtlik üz verməyəcək.
İsraildə bəla olmayacaq.
Özlərinin Allahı Rəbb onlarladır,
Onları padşah kimi alqışlayırlar.
[22] Allah onları Misirdən çıxardı;
Onların çöl öküzü kimi qüvvəti vardır.
[23] Yaqub üçün edilən baxıcılıq baş
tutmaz,
İsrail üçün edilən falçılıq alınmaz.
Bax indi deyiləcək:
"Yaqub və İsrail üçün
Allah nələr etdi!"
[24] Budur, xalq dişi aslan tək oyanır,
Şir kimi qalxır,
Şikarını yeməyincə,
Ölənlərin qanını içməyincə yatmayacaq».

[25] Balaq Bilama dedi: «Onlara nə lə'nət oxu,
nə də xeyir-dua ver». [26] Ancaq Bilam Balaqa
cavab verib dedi: «Məgər sənə demədim ki,
Rəbb nə desə, hamısını etməliyəm?»

### *Bilamın üçüncü dəfə gələcəkdən xəbər vermәsi*

[27] Balaq Bilama dedi: «Xahiş edirəm gəl,
səni başqa bir yerə aparım; bəlkə Allahın
gözünə xoş gələr ki, oradan onlara mənim
xeyrimə görə lə'nət oxuyasan». [28] Balaq
Bilamı çölə baxan Peor təpəsinə apardı.
[29] Bilam Balaqa dedi: «Burada mənə yeddi
qurbangah düzəlt və burada mənim üçün
yeddi buğa və yeddi qoç hazırla». [30] Balaq
Bilamın dediyi kimi etdi. Hər qurbangahda bir
buğa və bir qoç təqdim etdi.

24 [1] Bilam Rəbbin gözündə İsrailə
xeyir-dua verməyin yaxşı olduğunu
gördükdə əvvəlki kimi baxıcılıq etmədi,
amma üzünü səhraya doğru çevirdi. [2] Bilam
gözlərini qaldırdı və İsraili qəbilələrinə görə
yerləşmiş görəndə onun üzərinə Allahın Ruhu
endi. [3] O, gələcəkdən xəbər verib dedi:

«Budur, Beor oğlu Bilamın kəlamı,
Uzaq görən adamın kəlamı,
[4] Allahın sözlərini eşidən,
Külli-İxtiyarın görüntüsünü görən,
Gözləri açıq, yerə sərilən adamın kəlamı:
[5] "Ey Yaqub, sənin çadırların,
Ey İsrail, məskənlərin nə gözəldir!
[6] Yayılırlar vadilər tək,
Çay kənarındakı bağ-bağçalar tək,
Rəbbin bitirdiyi əzvay ağacları tək,
Çay kənarındakı sidr ağacları tək.
[7] Satıllarından sular axacaq,
Toxumları bol su ilə sulanacaq,
Padşahları Aqaqdan böyük olacaq,
Səltənətləri ucalacaq.
[8] Allah onları Misirdən çıxartdı;
Onların çöl öküzü kimi qüvvəti var.
Onlar düşmən millətləri yeyib
qurtaracaq.
Sümüklərini qıracaq,
Oxları ilə onları dələcək.
[9] Onlar pusub şir kimi yatar,
Dişi aslana oxşar.
Onları oyandırmağa kim cür'ət edər?
Sizə xeyir-dua verən xeyir-dualı olsun,
Sizə lə'nət oxuyan qoy lə'nətli olsun!"»

[10] Bilama qarşı Balaqın qəzəbi alovlandı.
Balaq əllərini bir-birinə vurdu və Bilama dedi:
«Səni düşmənlərimə lə'nət etmək üçün
çağırdım və budur, üçüncü dəfədir ki, onlara

---

***24:9*** *– Yar. 49:9; Vəhy 5:5*
***24:9*** *– Yar. 12:3*

ancaq xeyir-dua verirsən. 11 İndi tez get,
yerinə qayıt. Demişdim ki, səni çox
mükafatlandıracağam, amma Rəbb səni
mükafatdan məhrum etdi». 12 Bilam Balaqa
dedi: «Yanıma göndərdiyin qasidlərə
demədimmi, 13 Balaq mənə qızıl və gümüşlə
dolu evini versə belə, Rəbbin sözündən bilə-
bilə yan keçib yaxşılıq yaxud pislik edə
bilmərəm. Rəbb nə desə, onu deyəcəyəm.
14 İndi mən xalqımın yanına qayıdıram. Qoy
mən bu xalqın gələcəkdə sənin xalqının
başına nə gətirəcəyini bildirim».

### *Bilamın dördüncü dəfə gələcəkdən xəbər verməsi*

15 Sonra Bilam gələcəkdən xəbər verib dedi:
«Budur, Beor oğlu Bilamın kəlamı,
Uzaq görən adamın kəlamı,
16 Allahın sözlərini eşidən,
Haqq-Taalanın biliyinə qovuşan,
Külli-İxtiyarın görüntüsünü görən,
Gözləri açıq, yerə sərilən adamın kəlamı:
17 "Onu mən görürəm, amma indi deyil,
Mən ona baxıram, amma yaxından deyil.
Yaqubdan bir ulduz çıxacaq,
İsraildən bir Əsa[7] ucalacaq,
Moavlıların alınlarını,
Şet övladlarının başlarını əzəcək.
18 Onun düşməni Edomla Seir təslim
olacaq,
İsrail isə get-gedə güclənəcək.
19 Yaqubun nəslindən olan o adam
Səltənət sürəcək,
Şəhərdə sağ qalanları məhv edəcək"».

### *Bilamın sonuncu dəfə gələcəkdən xəbər verməsi*

20 Bilam Amaleqliləri görəndə gələcəkdən
xəbər verib belə dedi:
«Amaleq millətlərin birincisi idi,
Ancaq axırda məhv olacaq».
21 Qenliləri görəndə gələcəkdən xəbər verib
belə dedi:
«Məskəniniz möhkəm,
Yuvanız qayada qurulub.
22 Amma, ey Qenlilər, Aşşurlular sizi
əsir alanda
Yanıb yox olacaqsınız».
23 Bilam gələcəkdən xəbər verməyə belə
davam etdi:
«Vay, Allah bunu etdiyi zaman kim
yaşaya biləcək?
24 Kittim sahillərindən gəmilər gələcək,
Aşşur ilə Everi ram edəcək,
Amma onlar da məhv olacaq».
25 Bundan sonra Bilam yola çıxıb evinə
qayıtdı. Balaq da öz yoluna davam etdi.

### *İsrail övladlarının Peorda günaha batması*

25 1 İsrail xalqı Şittimdə yaşayarkən
kişiləri Moav qızları ilə zina etməyə
başladı. 2 Bu qadınlar allahlarına qurban
kəsəndə İsrail xalqını da də'vət edirdilər.
İsrail xalqı qurban ətindən yedi və onların
allahlarına səcdə etdi. 3 İsrail övladları
Peordakı Baal bütünə səcdə edənlərə
qoşuldular və Rəbbin qəzəbi İsraillilərə qarşı
alovlandı.
4 Rəbb Musaya dedi: «Xalqın bütün
başçılarını götürüb gündüz Rəbbin önündə dar
ağacından asdır. Beləliklə, qoy Rəbbin qızğın
qəzəbi İsraildən dönsün». 5 Buna görə Musa
İsrailin hakimlərinə dedi: «Hər biriniz öz
adamlarınız arasında Peordakı Baala səcdə
edənlərə qoşulanları öldürün».
6 Bu an İsrail övladlarından olan bir nəfər
gəldi, Musanın və Hüzur çadırının girişində
ağlaşan bütün İsrail icmasının gözü önündə
qohumlarına Midyanlı bir qadın gətirdi.
7 Kahin Harun oğlu Eleazar oğlu Pinxas bunu
görən kimi camaatın arasından qalxdı və əlinə
bir nizə götürdü. 8 İsrailli adamın ardınca
çadırın içinə girdi, nizəni İsrailli kişinin və
qadının qarnına soxdu. Beləliklə, İsrail
övladlarını qıran vəba dayandı. 9 Vəbadan
ölənlərin sayı iyirmi dörd min nəfər idi.
10 Rəbb Musaya dedi: 11 «Kahin Harun oğlu
Eleazar oğlu Pinxas Mənim qəzəbimi İsrail
övladlarından döndərdi, çünki aralarında
yalnız o Mənim qeyrətimi çəkdi. Beləliklə,
Mən qeyrətimə görə İsrail övladlarını məhv
etmədim. 12 Buna görə söylə: "Budur, Mən
onunla sülh əhdi bağlayıram. 13 Bu onun üçün
və ondan sonra gələn nəsli üçün əbədi
kahinlik əhdi olacaq. Çünki Allahının
qeyrətini çəkib İsrail övladları üçün kəffarə
etdi"».
14 Midyanlı qadınla birgə öldürülən İsrailli
kişinin adı Salu oğlu Zimri idi. O,

---

[7] **24:17** *Əsa* – burada *başçı* mə'nasında işlənir.

***25:1-18*** – *1Kor. 10:8*

Şimeonlular arasında bir nəsil rəhbəri idi.
[15] Öldürülən Midyanlı qadının adı Sur qızı
Kozbi idi. Sur Midyanda bir nəsil başçısı idi.
[16] Rəbb Musaya dedi: [17] «Midyanlıları
düşmən hesab edin və onları qırın. [18] Çünki
onlar hiylə ilə sizə düşmənçilik etdilər. Peor
hadisəsində və Peorda baş verən vəba
günündə öldürülən bacıları Midyanlı bəyin
qızı Kozbi məsələsində sizi aldatdılar».

### *İkinci siyahıyaalma*

26 [1] Vəbadan sonra Rəbb Musaya və
kahin Harun oğlu Eleazara dedi:
[2] «Bütün İsrail icmasını, ailələrinə görə iyirmi
və ondan yuxarı yaşda döyüşə qabil olan İsrail
övladlarını sayın». [3] Musa ilə kahin Eleazar
İordan çayı yanında, Yerixo qarşısında Moav
düzənliyində onlarla danışıb dedi: [4] «Rəbbin
Musaya əmr etdiyi kimi iyirmi və ondan
yuxarı yaşda olanları siyahıya alın!»

Misir torpağından çıxan İsrail övladları
bunlardır:

[5] İsrailin ilk oğlu Ruven, Ruvenlilər
bunlardır:
Xanok soyundan Xanok nəsli;
Pallu soyundan Pallu nəsli;
[6] Xesron soyundan Xesron nəsli;
Karmi soyundan Karmi nəsli.

[7] Ruvenlilərin nəsilləri bunlardır, sayları 43
730 nəfər idi.

[8] Palunun oğlu Eliav, [9] Eliavın oğulları
Nemuel, Datan və Aviram idi. Bunlar o
Datanla Aviramdır ki, icma tərəfindən seçildi
və Rəbbə üsyan edən Qorahın tərəfdarlarına
qoşulub Musa ilə Haruna zidd getdilər.
[10] Qorahla 250 yoldaşını od yandırıb yox
edəndə yer yarıqları onları uddu. Qorahla
birlikdə ölənlər başqalarına da bir ibrət oldu.
[11] Qorahın nəsli isə ölmədi.

[12] Nəsillərinə görə Şimeonlular bunlardır:
Nemuel soyundan Nemuel nəsli;
Yamin soyundan Yamin nəsli;
Yakin soyundan Yakin nəsli;
[13] Zerah soyundan Zerah nəsli;
Şaul soyundan Şaul nəsli;

[14] Şimeon nəsilləri bunlardır, sayları 22 200
nəfərdir.

[15] Nəsillərinə görə Qadlılar bunlardır:
Sefon soyundan Sefon nəsli;
Haqqi soyundan Haqqi nəsli;
Şuni soyundan Şuni nəsli;
[16] Ozni soyundan Ozni nəsli;
Eri soyundan Eri nəsli:
[17] Arod soyundan Arod nəsli;
Areli soyundan Areli nəsli.

[18] Qad nəsilləri bunlardır, sayları 40 500
nəfərdir.

[19] Yəhudanın iki oğlu var idi: Er və Onan.
Onlar Kən'an torpağında öldülər.

[20] Nəsillərinə görə Yəhudalılar bunlardır:
Şela soyundan Şela nəsli;
Peres soyundan Peres nəsli;
Zerah soyundan Zerah nəsli.
[21] Peres övladları bunlardır:
Xesron soyundan Xesron nəsli;
Xamul soyundan Xamul nəsli.

[22] Yəhuda nəsilləri bunlardır, sayları 76 500
nəfərdir.

[23] Nəsillərinə görə İssakar övladları
bunlardır:
Tola soyundan Tola nəsli;
Puva soyundan Puva nəsli;
[24] Yaşuv soyundan Yaşuv nəsli;
Şimron soyundan Şimron nəsli.

[25] İssakar nəsilləri bunlardır, sayları 64 300
nəfərdir.

[26] Nəsillərinə görə Zevulunlular bunlardır:
Sered soyundan Sered nəsli;
Elon soyundan Elon nəsli;
Yaxleel soyundan Yaxleel nəsli.

[27] Zevulun nəsilləri bunlardır, sayları 60 500
nəfərdir.

[28] Nəsillərinə görə Yusifin oğulları:
Menaşşe və Efrayim.

[29] Menaşşe övladları bunlardır:
Makir soyundan Makir nəsli, Makir
Gileadın atası idi;
Gilead soyundan Gilead nəsli;
[30] Gilead övladları bunlardır:
İezer soyundan İezer nəsli;
Xeleq soyundan Xeleq nəsli;
[31] Asriel soyundan Asriel nəsli;
Şekem soyundan Şekem nəsli;
[32] Şemida soyundan Şemida nəsli;
Xefer soyundan Xefer nəsli.

[33] Xefer oğlu Selofxadın oğlu olmadı, amma
Maxla, Noa, Xoqla, Milka və Tirsa adında
qızları var idi.

[34] Menaşşe nəsilləri bunlardır, sayları 52 700
nəfərdir.

***26:1-51** – Say. 1:1-46*

35 Nəsillərinə görə Efrayim övladları
bunlardır:
Şutelah soyundan Şutelah nəsli;
Beker soyundan Beker nəsli;
Taxan soyundan Taxan nəsli;
36 Şutelah övladları bunlardır:
Eran soyundan Eran nəsli.
37 Efrayim övladlarının nəsilləri bunlardır,
sayları 32 500 nəfərdir. Nəsillərinə görə Yusif
övladları bunlardır.
38 Nəsillərinə görə Binyaminlilər bunlardır:
Bela soyundan Bela nəsli;
Aşbel soyundan Aşbel nəsli;
Axiram soyundan Axiram nəsli;
39 Şufam soyundan Şufam nəsli;
Xufam soyundan Xufam nəsli.
40 Belanın oğulları Ardla Naaman nəslindən
törənənlər bunlardır:
Ard soyundan Ard nəsli;
Naaman soyundan Naaman nəsli.
41 Nəsillərinə görə Binyamin övladları
bunlardır, sayları 45 600 nəfərdir.
42 Nəsillərinə görə Dan övladları bunlardır:
Şuxam soyundan Şuxam nəsli.
Bunlar Dan nəslindən törənən nəsillərdir.
43 Hamısı Şuxam nəslindəndir, sayları 64 400
nəfərdir.
44 Nəsillərinə görə Aşerlilər bunlardır:
İmna soyundan İmna nəsli;
İşvi soyundan İşvi nəsli;
Beria soyundan Beria nəsli.
45 Beria övladları bunlardır:
Xever soyundan Xever nəsli;
Malkiel soyundan Malkiel nəsli.
46 Aşerin Serah adında bir qızı var idi.
47 Aşer övladları bunlardır, sayı 53 400
nəfərdir.
48 Nəsillərinə görə Naftali övladları
bunlardır:
Yaxseel soyundan Yaxseel nəsli;
Quni soyundan Quni nəsli;
49 Yeser soyundan Yeser nəsli;
Şillem soyundan Şillem nəsli.
50 Naftali nəsilləri bunlardır, sayları 45 400
nəfərdir.
51 Sayılan İsrail övladlarının cəmi 601 730
kişi idi.
52 Rəbb Musaya belə dedi: 53 «Adamların
sayına görə ölkə bunlara irs olaraq bölünsün.
54 Sayı çox olana böyük, sayı az olana az pay
verəcəksən. Siyahıya yazılanların sayına görə
hər birinə düşən pay verilsin. 55 Ancaq torpaq
püşklə bölünsün. Hər kəsin payı atalarının aid
olduğu qəbilələrin adına görə olacaq. 56 Kiçik
ya böyük – hər qəbilənin payı püşklə
bölünsün».
57 Nəsillərinə görə sayılan Levililər
bunlardır:
Gerşon soyundan Gerşon nəsli;
Qohat soyundan Qohat nəsli;
Merari soyundan Merari nəsli.
58 Bunlar da Levi nəsilləridir:
Livni nəsli,
Xevron nəsli,
Maxli nəsli,
Muşi nəsli,
Qorah nəsli.
Qohat Amramın atası idi.
59 Amramın arvadının adı Yokeved idi. O,
Misirdə Levi nəslindən doğulmuşdu.
Amramdan Harun, Musa və bacıları Məryəm
doğuldu. 60 Harunun Nadav, Avihu, Eleazar,
İtamar adlı uşaqları oldu. 61 Nadavla Avihu
Rəbbin önündə haram od təqdim edərkən
öldülər. 62 Levililərdən sayılan bir aylıq və
ondan yuxarı yaşda bütün kişi cinsindən
olanlar 23 000 nəfər idi. Bunlar o biri İsrail
övladları ilə birlikdə siyahıya alınmışdı.
Çünki İsrail övladları arasında onlara miras
verilməmişdi.
63 İsrail övladlarının siyahısı İordan çayının
yanında, Yerixo qarşısındakı Moav
düzənliyində Musa və kahin Eleazar
tərəfindən tutuldu. 64 Amma Musa ilə kahin
Harunun Sina səhrasında saydığı İsrail
övladlarından heç kim bu siyahıda olmadı.
65 Ona görə ki Rəbb o vaxt siyahıya alınan
İsrail övladlarının səhrada öləcəyini qətiyyətlə
söyləmişdi. Onlardan Yefunne oğlu Kalevlə
Nun oğlu Yeşuadan başqa kimsə sağ
qalmamışdı.

### *Selofxadın qızları*

27 1 Menaşşe oğlu Makir oğlu Gilead
oğlu Xefer oğlu Selofxadın qızları

***26:52-56*** *– Say. 34:13; Yeşua 14:1-2*
***26:60*** *– Say. 3:2*
***26:61*** *– Lev. 10:1-2; Say. 3:4*
***26:65*** *– Say. 14:26-35*

Yusif oğlu Menaşşenin nəsillərinə mənsub idi.
Qızların adları belədir: Maxla, Noa, Xoqla,
Milka və Tirsa. 2 Onlar Musanın, kahin
Eleazarın və rəhbərlərlə bütün icmanın
önündə, Hüzur çadırının girişində durub
dedilər: 3 «Atamız səhrada öldü, lakin Qorahın
tərəfini tutub Rəbbə qarşı üsyan edənlərin
arasında deyildi. O öz günahına görə öldü və
oğulları olmadı. 4 Oğlu olmadığına görə onun
adı öz nəsli arasından nə üçün silinməlidir?
Atamızın qardaşları arasında bizə bir mülk
verin».

5 Musa onların işini Rəbbin önünə qoydu.
6 Rəbb Musaya dedi: 7 «Selofxadın qızları
doğru deyirlər: mütləq onlara atalarının
qardaşları arasında mülk ver və atalarının
mirasını onlara keçir. 8 İsrail övladlarına de ki,
əgər bir adam ölərsə və onun oğlu yoxdursa, o
zaman mirası onun qızına keçir. 9 Əgər onun
qızı yoxdursa, onda mirasını onun
qardaşlarına ver. 10 Əgər qardaşları yoxdursa,
onda mirasını atasının qardaşlarına ver.
11 Əgər atasının qardaşları yoxdursa, o zaman
mirasını nəslindən ona ən yaxın olan
qohumuna ver ki, mülk onun olsun. Bu,
Rəbbin Musaya əmr etdiyi kimi İsrail
övladlarına qanun və hökm olsun».

### *Yeşuanın Musanın yerinə tə’yin olunması*

*(Qanun. 31:1-8)*

12 Rəbb Musaya dedi: «Bu Avarim dağına
çıx və İsrail oğullarına verdiyim ölkəni gör.
13 Onu gördükdən sonra qardaşın Harun nə
cür xalqına qovuşdusa, sən də elə ölüb,
xalqına qovuşacaqsan. 14 Çünki Zin çölündə
əmrimə qarşı çıxdınız. İcma Mənə üsyan
edəndə sulara görə onların gözləri önündə
Mənim müqəddəsliyimi e’tiraf etmədiniz».
Bunlar Zin çölündə Qadeşdə olan Meriva
sularıdır.

15 Musa Rəbbə dedi: 16 «Rəbb – bütün bəşər
ruhlarının Allahı, icma üzərinə bir adam nəsib
etsin, 17 o da onların önündə girib-çıxsın,
onların önündə döyüşə gedib-gəlsin. Qoy
Rəbbin icması çobansız sürü kimi olmasın».

18 Rəbb Musaya dedi: «İçində Ruh olan bir
adamı – Nun oğlu Yeşuanı yanına gətirərək
əlini onun üzərinə qoyacaqsan. 19 Onu kahin
Eleazar və bütün icma qarşısında dayandırıb
onların gözləri önündə ona vəzifə tapşır.
20 Ona öz səlahiyyətindən ver ki, bütün İsrail
icması ona itaət etsin. 21 O göstəriş almaq
üçün kahin Eleazara müraciət etməlidir.
Eleazar isə Urim[8] vasitəsilə Rəbdən
soruşmalıdır. Yeşua ilə bütün İsraillilər icması
Eleazarın əmri ilə döyüşə gedib gəlsinlər».

22 Musa Rəbbin ona əmr etdiyi kimi etdi:
Yeşuanı götürüb kahin Eleazarın və bütün
icmasının önündə dayandırdı. 23 Rəbbin Musa
vasitəsilə əmr etdiyi kimi əllərini onun
üzərinə qoyaraq ona vəzifə tapşırdı.

### *Gündəlik təqdimlər*

*(Çıx. 29:38-46)*

28 1 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr edib de: “Mənim
payımı – Mənim xoşuma gələn ətirli
təqdimlərini müəyyən vaxtlarda təqdim
etməyə diqqət edin”. 3 Onlara de: “Rəbbə
verəcəyiniz təqdim budur: daimi yandırma
qurbanı olaraq hər gün iki birillik qüsursuz
erkək toğlu. 4 Toğlulardan birini səhər, o birini
isə axşamçağı təqdim edin. 5 Toğlu ilə birlikdə
taxıl təqdimi olaraq dörddə bir hin çəkilmiş
zeytun yağı ilə yoğrulmuş efanın onda biri
narın un təqdim edin. 6 Bu, daimi yandırma
qurbanı, Sina dağında buyurulan, Rəbbin
xoşuna gələn ətirli təqdimdir. 7 Hər toğlu ilə
birlikdə maye təqdimi olaraq dörddə bir hin
kefləndirən içkini Rəbbin adına müqəddəs
yerdə tökün. 8 O biri toğlunu axşamçağı
təqdim edin. Səhərki kimi taxıl təqdimi və
maye təqdimi ilə birlikdə onu təqdim edin. Bu,
Rəbbin xoşuna gələn ətirli təqdimdir.

### *Şənbə təqdimləri*

9 Şənbə günündə iki birillik qüsursuz erkək
toğlu və taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda iki efa narın un və onun
maye təqdimini təqdim edin. 10 Daimi
yandırma qurbanı və onun maye təqdimindən
başqa hər Şənbənin yandırma qurbanı olan
təqdim budur.

***27:7*** *– Say. 36:2*
***27:12-14*** *– Qanun. 3:23-27; 32:48-52*
***27:17*** *– 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36; Mrk. 6:34*
***27:18*** *– Çıx. 24:13*

[8] **27:21** *Urim* – kahin döşlüyünün içində olub, Rəbbin iradəsini bilmək üçün püşk kimi atılan daş.
***27:23*** *– Qanun. 31:23*
***28:9-10*** *– Mat. 12:5*

### *Təzə Ay təqdimləri*

11 Hər ayın başında Rəbbə yandırma
qurbanı olaraq qüsursuz iki buğa və bir qoç,
birillik yeddi erkək toğlu təqdim edin. 12 Hər
buğa üçün taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda üç efa narın un və tək qoç
üçün taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda iki efa narın un, 13 hər toğlu
üçün taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda bir efa narın un təqdim edin.
Bu, yandırma qurbanı Rəbbin xoşuna gələn
ətirli təqdimdir. 14 Onların maye təqdimləri,
bir buğa üçün yarım hin, qoç üçün üçdə bir
hin və bir toğlu üçün dörddə bir hin şərab
olacaq. İl boyu hər yeni ayda veriləcək
yandırma qurbanı budur. 15 Daimi yandırma
qurbanı və onun maye təqdimlərindən başqa
Rəbbə günah təqdimi olaraq bir təkə də
təqdim edin.

### *Pasxa bayramının təqdimləri*

*(Lev. 23:5-14)*

16 Birinci ayın on dördüncü günü Rəbbin
pasxa bayramıdır. 17 Bu ayın on beşinci günü
bayram olsun, yeddi gün mayasız çörək
yeyilsin. 18 Birinci gün müqəddəs toplantı
keçirin, gündəlik işlərinizi görməyin. 19 Rəbbə
yandırma qurbanı olaraq iki buğa, bir qoç və
birillik yeddi erkək toğlu təqdim edin; hamısı
qüsursuz olsun. 20 Hər buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş onda üç efa,
qoç üçün onda iki, 21 yeddi toğludan hər toğlu
üçün onda bir efa narın un təqdim edin.
22 Özünüzü kəffarə etmək üçün günah qurbanı
olaraq bir təkə təqdim edin. 23 Hər səhər
təqdim edəcəyiniz daimi yandırma qurbanına
əlavə olaraq bunları da təqdim edin.
24 Beləliklə, hər gün Rəbbin payını, Onun
xoşuna gələn ətirli təqdimi yeddi gün təqdim
edin. Daimi yandırma qurbanı ilə maye
təqdiminə əlavə olaraq təqdim edin.
25 Yeddinci gün müqəddəs toplantı keçirin,
gündəlik işlərinizi görməyin.

### *Həftələr bayramının təqdimləri*

*(Lev. 23:15-22; Qanun. 16:9-12)*

26 Nübarın yığılma günü Həftələr
bayramında Rəbbə təzə taxıl təqdimi
gətirəndə müqəddəs toplantı keçirin, gündəlik
işlərinizi görməyin. 27 Rəbbin xoşuna gələn
ətirli təqdimini yandırma qurbanı olaraq iki
buğa, bir qoç və birillik yeddi erkək toğlu
təqdim edin. 28 Hər buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş onda üç efa,
tək qoç üçün onda iki efa, 29 yeddi toğludan
hər toğlu üçün isə onda bir efa narın un
təqdim edin. 30 Özünüzü kəffarə etmək üçün
bir təkə də təqdim edin. 31 Daimi yandırma
qurbanı taxıl və maye təqdimlərinə əlavə
olaraq bunları gətirin. Qurban etdiyiniz
heyvanlar qüsursuz olmalıdır.

### *Şeypur çalma gününün təqdimləri*

*(Lev. 23:23-25)*

29 1 Yeddinci ayda, ayın birində
müqəddəs toplantı keçirin, heç bir
gündəlik işlərinizi görməyin. O gün sizin
üçün şeypur çalma günü olacaq. 2 Rəbbin
xoşuna gələn ətirli təqdimini yandırma
qurbanı olaraq qüsursuz bir buğa, bir qoç və
birillik yeddi erkək toğlu verin. 3 Buğa üçün
taxıl təqdimi olaraq zeytun yağı ilə yoğrulmuş
onda üç efa, qoç üçün onda iki efa, 4 yeddi
toğludan hər toğlu üçün onda bir efa narın un
təqdim edin. 5 Özünüzü kəffarə etmək üçün
günah qurbanı olaraq bir təkə də təqdim edin.
6 Aylıq və gündəlik yandırma qurbanları ilə
lazımi taxıl və maye təqdimlərindən əlavə
olaraq bunları gətirin. Bu, Rəbbin xoşuna
gələn ətirli təqdimdir.

### *Kəffarə gününün təqdimləri*

*(Lev. 23:26-32)*

7 Həmin yeddinci ayın onunda müqəddəs
toplantı keçirin; özünüzü hər şeydən məhrum
edin və heç bir iş görməyin. 8 Rəbbə xoş ətir
kimi yandırma qurbanı olaraq bir buğa, bir
qoç, birillik yeddi erkək toğlu təqdim edin.
Onlar qüsursuz olmalıdır. 9 Buğa üçün taxıl
təqdimi olaraq zeytun yağı ilə yoğrulmuş
onda üç efa, qoç üçün onda iki efa, 10 yeddi
toğludan hər toğlu üçün onda bir efa narın un
təqdim edin. 11 Günah qurbanı olaraq bir təkə
də təqdim edin. Kəffarələr günah qurbanına,
daimi yandırma qurbanına, onun taxıl
təqdiminə və onların maye təqdimlərinə əlavə
olaraq bunları gətirin.

### *Çardaqlar bayramının təqdimləri*

*(Lev. 23:33-44)*

12 Yeddinci ayın on beşinci günündə
müqəddəs toplantı keçirin; heç bir gündəlik

---

***28:16*** – *Çıx. 12:1-13; Qanun. 16:1-2*

***29:7*** – *Lev. 23:27*
***29:12*** – *Lev. 23:34-35*

işlərinizi görməyin. Rəbbin şərəfinə yeddi
gün bayram keçirin. 13 Rəbbin xoşuna gələn
ətirli təqdimi yandırma qurbanı olaraq
qüsursuz on üç buğa, iki qoç və birillik on
dörd erkək toğlu verin. Onlar qüsursuz
olmalıdır. 14 Hər buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş onda üç efa,
hər qoç üçün onda iki efa, 15 on dörd toğludan
hər toğlu üçün onda bir efa narın un təqdim
edin. 16 Günah qurbanı olaraq bir təkə də
təqdim edin. Daimi yandırma qurbanı ilə taxıl
və maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

17 İkinci gün qüsursuz on iki buğa, iki qoç,
birillik on dörd erkək toğlu təqdim edin.
18 Buğa, qoç və toğluların sayına görə onların
lazımi taxıl və maye təqdimlərini gətirin.
19 Günah qurbanı olaraq bir təkə də təqdim
edin. Daimi yandırma qurbanı ilə taxıl və
maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

20 Üçüncü gün qüsursuz on bir buğa, iki qoç,
birillik on dörd erkək toğlu təqdim edin.
21 Buğa, qoç və toğluların sayına görə onların
lazımi taxıl və maye təqdimlərini gətirin.
22 Günah qurbanı olaraq bir təkə də təqdim
edin. Daimi yandırma qurbanı ilə taxıl və
maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

23 Dördüncü gün qüsursuz on buğa, iki qoç,
birillik on dörd erkək toğlu təqdim edin.
24 Buğa, qoç və toğluların sayına görə onların
lazımi taxıl və maye təqdimlərini gətirin.
25 Günah qurbanı olaraq bir təkə də təqdim
edin. Daimi yandırma qurbanı ilə taxıl və
maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

26 Beşinci gün qüsursuz doqquz buğa, iki
qoç, birillik on dörd erkək toğlu təqdim edin.
27 Buğa, qoç və toğluların sayına görə lazımi
taxıl və maye təqdimlərini gətirin. 28 Günah
qurbanı olaraq bir təkə də təqdim edin. Daimi
yandırma qurbanı ilə taxıl və maye
təqdimlərindən əlavə olaraq bunları gətirin.

29 Altıncı gün qüsursuz səkkiz buğa, iki qoç,
birillik on dörd erkək toğlu təqdim edin.
30 Buğa, qoç və toğluların sayına görə onların
lazımi taxıl və maye təqdimlərini gətirin.
31 Günah qurbanı olaraq bir təkə də təqdim
edin. Daimi yandırma qurbanı ilə taxıl və
maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

32 Yeddinci gün qüsursuz yeddi buğa, iki
qoç, birillik on dörd erkək toğlu təqdim edin.
33 Buğa, qoç və toğluların sayına görə onların
lazımi taxıl və maye təqdimlərini gətirin.
34 Günah qurbanı olaraq bir təkə də təqdim
edin. Daimi yandırma qurbanı ilə taxıl və
maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

35 Səkkizinci gün özünüz üçün təntənəli
toplantı keçirin, heç bir gündəlik işlərinizi
görməyin. 36 Rəbbin xoşuna gələn ətirli
təqdim olan yandırma qurbanı kimi qüsursuz
bir buğa, bir qoç və birillik yeddi erkək toğlu
təqdim edin. 37 Buğa, qoç və toğluların sayına
görə onların lazımi taxıl və maye təqdimlərini
gətirin. 38 Günah qurbanı olaraq bir təkə də
təqdim edin. Daimi yandırma qurbanı ilə taxıl
və maye təqdimlərindən əlavə olaraq bunları
gətirin.

39 Əhdə görə və könüllü təqdimlərinizdən
əlavə tə'yin olunan bayramlarınızda Rəbbə bu
yandırma qurbanlarınızı, taxıl təqdimlərinizi,
maye təqdimlərinizi və ünsiyyət qurbanınızı
təqdim edin"».

40 Musa Rəbbin ona əmr etdiyi hər şeyi
İsrail övladlarına bildirdi.

### *Əhdlər*

30 1 Musa İsrail övladlarının qəbilə
başçılarına dedi: «Rəbb belə əmr
etmişdir: 2 bir kişi Rəbbə əhd edərək yaxud
and içərək öhdəsinə nə isə götürərsə, verdiyi
sözü pozmasın, ağzından çıxan hər şeyi yerinə
yetirsin.

3 Əgər atasının evində yaşayan gənc qız
Rəbbə əhd edib öhdəsinə nə isə götürərsə,
4 lakin atası onun əhdini və öhdəsinə
götürdüyü şeyi eşidəndə ona qarşı çıxmazsa,
qızın etdiyi əhdlər və öhdəsinə götürdüyü
şeylərin hamısı qüvvədə qalar. 5 Amma atası
bunları eşidən gün mane olarsa, qızın etdiyi
əhdlər və öhdəsinə götürdüyü şeylər
qüvvədən düşər. Rəbb onu bağışlayar, çünki
atası mane olmuşdur.

6 Əgər qız əhd yaxud düşünmədən öhdəsinə
bir şey götürdükdən sonra ərə gedərsə, 7 bunu
eşidən əri həmin gün ona qarşı çıxmazsa,
onun etdiyi əhdlər və düşünmədən öhdəsinə
götürdüyü şeylər qüvvədə qalar. 8 Amma əri

---

***29:35*** *– Lev. 23:36*
***30:2*** *– Qanun. 23:21-23; Mat. 5:33*

bunu eşidən gün mane olarsa, gəlinin etdiyi
əhdlər və öhdəsinə götürdüyü şeylər
qüvvədən düşər. Rəbb onu bağışlayar.
9 Dul yaxud boşanan qadının əhdi və
öhdəsinə götürdüyü hər şey qüvvədə qalar.
10 Əgər ərli bir qadın əhd edər yaxud
öhdəsinə nə isə götürərsə, 11 əri bunu eşidəndə
ona qarşı çıxmayıb mane olmazsa, qadının
bütün əhdləri yaxud öhdəsinə götürdüyü
şeylər qüvvədə qalar. 12 Amma əri bunları
eşidən gün ona mane olarsa, qadının bütün
əhdləri və öhdəsinə götürdüyü şeylər
qüvvədən düşər. Əri mane olduğu üçün Rəbb
qadını bağışlayar. 13 Əri qadının özünü
məhrum etmək üçün etdiyi əhdləri yaxud and
içərək öhdəsinə götürdüyü şeyləri təsdiq edə
bilər ya da mane ola bilər. 14 Əgər əri bir gün
içində bu barədə ona qarşı çıxmazsa, bütün
əhdləri yaxud öhdəliklərini təsdiqləmiş olur.
Onları eşidən gün qadına qarşı çıxmamaqla
təsdiqləmiş sayılar. 15 Əgər onları eşitdikdən
bir müddət sonra mane olursa, qadının
cəzasını əri çəkər».
16 Kişi ilə arvadı, atası ilə onun evində
yaşayan gənc qızı arasında münasibət barədə
Rəbbin Musaya əmr etdiyi qaydalar bunlardır.

### *Midyanlılardan qisas alma*

31 1 Rəbb Musaya belə dedi: 2 «İsrail
övladlarının qisasını Midyanlılardan
al. Sonra isə ölüb öz xalqına qovuşacaqsan».
3 Buna görə Musa xalqa belə dedi:
«Aranızdan bə'zi adamları silahlandırın ki,
Midyanlılarla döyüşə çıxıb Rəbbin qisasını
onlardan alsınlar. 4 İsrail qəbilələrinin hər
birindən döyüşə min nəfər göndərin».
5 Beləliklə, İsrailin tayfalarından, hər
qəbilədən min nəfər olmaqla döyüşə hazır on
iki min nəfər seçildi. 6 Musa hər qəbilədən
min nəfəri kahin Eleazarın oğlu Pinxasla
birlikdə döyüşə göndərdi. Pinxas özü ilə
müqəddəs yerə aid bə'zi əşyaları və işarə
vermək üçün kərənayları götürdü. 7 Onlar
Rəbbin Musaya əmr etdiyi kimi Midyanlılarla
döyüşüb bütün kişiləri qırdılar. 8 Qırılanlar
arasında Midyanın beş padşahı vardı: Evi,
Reqem, Sur, Xur və Reva. Beor oğlu Bilamı
da qılıncla öldürdülər.
9 Sonra İsraillilər bütün Midyan qadınları
ilə uşaqlarını əsir götürüb onların bütün naxır
və sürülərini, bütün əşyalarını talan etdilər.
10 Midyanlıların yaşadıqları bütün şəhərlərə,
obalara od vurdular. 11 İnsanları, heyvanları,
bütün qəniməti, talan mallarını götürdülər.
12 Əsirləri, qəniməti, talan mallarını İordan
çayının şərqində, Yerixonun qarşısında, Moav
düzənliyindəki düşərgədə olan Musa ilə kahin
Eleazarın və İsrail icmasının yanına gətirdilər.
13 Musa, kahin Eleazar və icma rəhbərləri
onları qarşılamaq üçün düşərgənin kənarına
çıxdılar. 14 Musa döyüşdən qayıdan
sərkərdələrə – minbaşılara və yüzbaşılara
qəzəblənib 15 «Bütün qadınları nə üçün sağ
saxladınız?» dedi. 16 «Bunlar həmin
qadınlardır ki, Bilamın verdiyi nəsihətə uyub
Peor hadisəsində İsrail övladlarının Rəbdən
dönməsinə səbəb oldular. Ona görə Rəbbin
icması arasında vəba törəndi. 17 İndi bütün
oğlan uşaqlarını və kişi ilə yaxınlıq etmiş
qadınları öldürün. 18 Yalnız kişi ilə yaxınlıq
etməmiş cavan qızları özünüz üçün sağ
saxlayın.
19 Aranızda kimisə öldürən yaxud meyitə
toxunan hər kəs yeddi gün düşərgənin
kənarında qalsın. Üçüncü və yeddinci gün
özünüzü, həm də əsirlərinizi pak edin. 20 Hər
paltarı, dəridən, keçi tükündən və ağacdan
düzələn nə varsa, hamısını pak edin».
21 Bundan sonra kahin Eleazar döyüşdən
qayıdan əsgərlərə dedi: «Rəbbin Musaya əmr
etdiyi qanunun qaydası belədir. 22 Qızılı,
gümüşü, tuncu, dəmiri, qalayı, qurğuşunu,
23 oda davamlı hər şeyi alovdan keçirin ki, pak
sayılsın. Lakin paklama suyu ilə də paklansın.
Oda davamsız şeyləri isə sudan keçirin.
24 Yeddinci gün geyimlərinizi yuyun, onda
pak olacaqsınız, sonra düşərgəyə girin».

### *Talan malının bölünməsi*

25 Rəbb Musaya dedi: 26 «Sən, kahin Eleazar
və icmanın nəsil başçıları ələ keçirilən
insanları, heyvanları, talan mallarını sayın.
27 Talan mallarını döyüşə çıxan igidlərlə
icmanın qalan qismi arasında yarı bölün.
28 Döyüşə gedən igidlərə düşən insan, mal-
qara, eşşək, qoyun-keçi payından vergi olaraq
beş yüzdə birini Rəbbə ayırın. 29 Bu vergini
igidlərə bölünən paydan götürüb Rəbbə ianə
olaraq təqdim etmək üçün kahin Eleazara
verin. 30 O biri İsrail övladlarına düşən paydan
insan, mal-qara, eşşək, qoyun-keçi və başqa
heyvanlardan əllidə birini götürüb Rəbbin
məskəninə cavabdeh olan Levililərə verin».

---

***31:16*** *– Say. 25:1-9*

31 Musa ilə kahin Eleazar Rəbbin Musaya əmr
etdiyinə əməl etdilər.
32 Döyüşə gedən igidlərin götürdüyü talan
malından bu qənimətlər qalmışdı: 675 000
qoyun-keçi, 33 72 000 mal-qara, 34 61 000
eşşək, 35 kişi ilə yaxınlıq etməmiş 32 000 qız.
36 Bunların yarısı döyüşə gedən igidlərə pay
düşdü: 337 500 qoyun-keçi, 37 bunlardan
Rəbbə vergi olaraq 675 qoyun-keçi verildi;
38 36 000 mal-qara, bunlardan 72 mal-qara
Rəbbə vergi olaraq ayrıldı; 39 30 500 eşşək,
bunlardan 61 eşşək Rəbbə vergi olaraq ayrıldı;
40 16 000 nəfər, bunlardan 32 nəfər Rəbbə
vergi olaraq ayrıldı. 41 Musa Rəbbin ona əmr
etdiyi kimi Rəbbə vergi olaraq ayrılanları
kahin Eleazara verdi.
42 Musanın döyüşə gedən igidlərdən
ayırdığından İsrail övladlarına düşən payın
yarısı bunlardır: 43 İcmaya düşən yarı pay 337
500 qoyun-keçi, 44 36 000 mal-qara, 45 30 500
eşşək, 46 16 000 insan. 47 Rəbbin ona əmr
etdiyi kimi Musa İsrail övladlarının payından
hər əlli nəfərdən və heyvandan birini seçib
Rəbbin məskəninə cavabdeh olan Levililərə
verdi.
48 Ordu bölmələrində hökm verən
sərkərdələr – minbaşılar və yüzbaşılar
Musanın yanına gedib dedilər: 49 «Biz qulların
hökm etdiyimiz döyüşçülərin sayını öyrəndik.
Onlardan heç kim əskik deyildir. 50 Ona görə
də hər birimiz əldə etdiyimiz qızıl əşyaları –
xalxalları, bilərzikləri, üzükləri, sırğaları,
boyunbağıları təqdim olaraq Rəbbə gətirdik ki,
Rəbbin önündə özümüz üçün kəffarə edək».
51 Musa ilə kahin Eleazar qızılı və hər cür
bəzək əşyalarını onlardan aldı;
52 minbaşılardan və yüzbaşılardan Rəbbə ianə
olaraq gətirdikləri qızıl cəmi 16 750 şekel[9]
ağırlığında idi. 53 Döyüşə gedən igidlərin hər
biri özləri üçün talan edilmiş maldan
götürmüşdü. 54 Musa ilə kahin Eleazar
minbaşılardan və yüzbaşılardan qızılı alıb
İsrail övladları üçün Rəbbin önündə bir xatirə
olaraq Hüzur çadırına gətirdilər.

### *Ruvenlilərlə Qadlıların Gileadda məskunlaşması*

*(Qanun. 3:12-22)*

32 1 Ruvenlilərlə Qadlıların çoxlu
heyvanları var idi. Onlar Yazer ilə
Gilead torpaqlarını görəndə heyvan otarmaq
üçün bu yerlərin münasib olduğunu başa
düşdülər. 2 Qadlılarla Ruvenlilər gəlib Musaya,
kahin Eleazara və icmanın rəhbərlərinə
dedilər: 3 «Atarot, Divon, Yazer, Nimra,
Xeşbon, Elale, Sevam, Nevo və Beon,
4 Rəbbin İsrail icmasına təslim etdiyi bu ölkə
heyvan otarmaq üçün münasib yerdir;
qullarının da heyvanları var». 5 Sonra əlavə
etdilər: «Əgər biz sənin gözündə lütf
tapmışıqsa, qoy bu torpaq mülk olaraq biz
qullarına verilsin. Bizi İordandan o taya
keçirməyin».
6 Musa cavab verdi: «İsrailli qardaşlarınız
döyüşməyə gedərkən siz buradamı qalmaq
niyyətindəsiniz? 7 Nə üçün çayı keçib Rəbbin
onlara verdiyi torpağa getmək üçün İsrail
övladlarını ruhdan salırsınız? 8 Qadeş-
Barneadan o torpağı gözdən keçirməyə
göndərdiyim atalarınız da belə hərəkət etdilər.
9 Onlar Eşkol vadisinə çatıb torpağı gördülər,
lakin İsrail övladlarını ruhdan saldılar ki,
Rəbbin verdiyi torpağa girməsinlər. 10 O gün
Rəbbin qəzəbi alovlandı və and içib dedi:
11 "Misirdən çıxan iyirmi və ondan yuxarı
yaşda olan adamların heç biri İbrahimə,
İshaqa və Yaquba and içib və'd etdiyim
torpağı heç vaxt görməyəcək, çünki onlar
Mənim yolumda sədaqətlə getmədilər.
12 Ancaq Qenizli Yefunne oğlu Kalev və Nun
oğlu Yeşua bu torpağı görəcək, çünki onlar
yolumda sədaqətlə getdilər". 13 Rəbbin qəzəbi
İsrailə qarşı alovlandı və Rəbb gözündə pislik
etmiş nəsil ölənə qədər onları qırx il səhrada
gəzdirdi. 14 Budur, atalarınızın yerinə siz –
günahlılar nəsli qalxaraq Rəbbin qızğın
qəzəbini İsrailə qarşı daha da alovlandırırsınız.
15 Əgər siz indi Rəbbin ardınca getməkdən
dönsəniz, O bütün bu xalqı yenə də səhrada
atacaq, siz də onların ölümünə səbəb
olacaqsınız».
16 Ruvenlilərlə Qadlılar Musaya yaxınlaşıb
dedilər: «Burada sürülərimiz üçün ağıllar,
övladlarımız üçün şəhərlər tikəcəyik. 17 Biz isə
silahlanıb İsrail övladlarının qabağında
getməyə hazırıq. Onlar və'd olunmuş torpağa
daxil olana qədər onları tərk etmərik.
Uşaqlarımız isə qoy möhkəmlənmiş
şəhərlərdə qalsınlar ki, bu torpağın

[9] **31:52** *16 750 şekel* – təqribən 190 kq.

***32:8-9*** – *Say. 13:17-33*
***32:10-13*** – *Say. 14:26-35*

sakinlərindən qorunsunlar. [18] İsrail
övladlarından hər biri öz irsini alana qədər
evlərimizə qayıtmayacağıq. [19] Biz onlarla
birlikdə İordanın o biri tayındakı torpaqdan
irs istəməyəcəyik, çünki bizim payımız
İordanın şərq tərəfinə düşdü».
[20] Musa onlara belə cavab verdi: «Əgər siz
belə hərəkət edib silahlanaraq Rəbbin
hüzurunda döyüşə getsəniz [21] və Rəbb
düşmənlərini hüzurundan qovana qədər
hamınız Onun hüzurunda İordanın o biri
tayına silahlı olaraq keçsəniz, [22] bu torpaq
Rəbbin önündə sizə tabe olarsa, onda qayıda
bilərsiniz. Rəbbin və İsrailin qarşısında
borclarınızı yerinə yetirmiş olarsınız. Onda bu
torpaq Rəbbin təsdiqi ilə sizin mülkünüz
olacaq. [23] Lakin əgər belə etməsəniz, budur,
Rəbbə qarşı günah etmiş olursunuz və bilin ki,
günahınıza görə cəza alacaqsınız.
[24] Uşaqlarınız üçün şəhərlər, sürüləriniz üçün
ağıllar düzəldin. Lakin və'dinizi yerinə
yetirin».
[25] Qadlılarla Ruvenlilər Musaya dedilər:
«Ağamız necə buyurursa, biz qulların elə də
edərik. [26] Arvadlarımız, uşaqlarımız, qoyun-
keçi və mal-qaramız, burada – Gilead
şəhərlərində qalacaq. [27] Sənin qulların –
hamımız silahlanaraq, ağamız buyurduğu
kimi çayı keçib Rəbbin əmri ilə döyüşə
çıxacağıq».
[28] Musa onların haqqında kahin Eleazara,
Nun oğlu Yeşuaya və İsrail övladlarının
qəbilə başçılarına əmr etdi. [29] Musa onlara
dedi: «Əgər Qadlılarla Ruvenlilər silahlanaraq
Rəbbin əmri ilə sizinlə İordan çayının o biri
tayına keçərlərsə, torpaq zəbt olunarsa, onda
Gilead torpağını onlara mülk olaraq verin.
[30] Fəqət əgər onlar silahlanıb sizinlə çayın o
biri tayına keçməsələr, onlar sizin aranızda –
Kən'an torpağında miras alacaqlar».
[31] Qadlılar və Ruvenlilər belə cavab verdilər:
«Rəbb sənin qullarına necə deyibsə, biz də elə
edərik. [32] Biz Rəbbin hüzurunda silahlanıb
çaydan Kən'an torpağına keçəcəyik, lakin
bizim miras aldığımız torpaq İordanın bu
tayında olsun».
[33] Musa Emorlular padşahı Sixonun ölkəsini,
Başan padşahı Oqun ölkəsini bütün ətraf
şəhərləri və torpaqları ilə birlikdə Ruvenlilərlə
Qadlılara və Menaşşe qəbiləsinin yarısına
verdi. [34] Qadlılar möhkəmlənmiş şəhərlər
olaraq Divonu, Atrotu, Aroeri, [35] Atrot-Şofanı,
Yazeri, Yoqbohanı, [36] Bet-Nimranı və Bet-
Haranı bərpa etdilər və sürülər üçün ağıllar
düzəltdilər. [37] Ruvenlilər isə Xeşbonu, Elaleni,
Qiryatayimi, [38] Nevonu, Baal-Meonu – onların
adları sonra dəyişdirildi – və Sivmanı bərpa
etdilər. Yenidən tikdikləri şəhərlərə başqa
adlar qoydular. [39] Menaşşe oğlu Makirin
övladları Gileada girib oradakı Emorluları
qovdular və oranı ələ keçirdilər. [40] Musa
Gileadı Menaşşe oğlu Makirin nəslinə verdi.
Onlar orada məskən saldılar. [41] Menaşşe
nəslindən olan Yair gedib Emorluların
kəndlərini alaraq adlarını Xavvot-Yair qoydu.
[42] Novah isə gedib Qenatı və ətrafdakı
qəsəbələri aldı. Oranı da öz adı ilə Novah
adlandırdı.

### *Misirdən Moava qədər köçlər*

33 [1] Musa və Harunun başçılığı ilə
ordular halında Misir torpağından
çıxan İsrail övladlarının köçləri bunlardır.
[2] Musa Rəbbin əmrinə görə onların köçlərini
və dayanacaqlarını qeyd etdi. Onların köçləri
və qaldıqları yerlər bunlardır:
[3] İsrail övladları Pasxa bayramının səhəri,
birinci ayın on beşində Misirlilərin gözü
qarşısında vüqarla Ramsesdən yola düşdü. [4] O
vaxt Misirlilər Rəbbin qırdığı bütün ilk
oğlanları basdırırdılar. Rəbb onların
allahlarını da Öz hökmünə mə'ruz qoymuşdu.
[5] İsrail övladları Ramsesdən yola çıxıb
Sukkotda düşərgə saldılar.
[6] Sukkotu tərk edib səhra kənarındakı
Etamda düşərgə saldılar.
[7] Etamı tərk edib Baal-Sefonun şərqində Pi-
Haxirota qayıtdılar və Miqdol yaxınlığında
düşərgə saldılar.
[8] Pi-Haxirotu tərk edib dənizin ortasından
keçərək səhraya çıxdılar. Etam səhrasında üç
gün gəzib dolanandan sonra Marada düşərgə
saldılar.
[9] Maranı tərk edib on iki su çeşməsi və
yetmiş xurma ağacı olan Elimə gedərək orada
düşərgə saldılar.
[10] Elimi tərk edib Qırmızı dəniz kənarında
düşərgə saldılar.
[11] Qırmızı dənizin kənarından ayrılıb Sin
səhrasında düşərgə saldılar.

***32:28-32** – Yeşua 1:12-15*

***33:9** – Çıx. 15:27*

12 Sin səhrasını tərk edib Dofqada düşərgə
saldılar.
13 Dofqanı tərk edib Aluşda düşərgə saldılar.
14 Aluşu tərk edib Refidimdə düşərgə
saldılar. Orada xalq üçün içməyə su yox idi.
15 Refidimi tərk edib Sina səhrasında
düşərgə saldılar.
16 Sina səhrasını tərk edib Qivrot-
Hattaavada düşərgə saldılar.
17 Qivrot-Hattaavanı tərk edib Xaserotda
düşərgə saldılar.
18 Xaserotu tərk edib Ritmada düşərgə
saldılar.
19 Ritmanı tərk edib Rimmon-Peresdə
düşərgə saldılar.
20 Rimmon-Peresi tərk edib Livnada
düşərgə saldılar.
21 Livnanı tərk edib Rissada düşərgə saldılar.
22 Rissanı tərk edib Qehelatda düşərgə
saldılar.
23 Qehelatı tərk edib Şefer dağında düşərgə
saldılar.
24 Şefer dağını tərk edib Xaradada düşərgə
saldılar.
25 Xaradadan ayrılıb Maqhelotda düşərgə
saldılar.
26 Maqhelotu tərk edib Taxatda düşərgə
saldılar.
27 Taxatdan ayrılıb Terahda düşərgə saldılar.
28 Terahı tərk edib Mitqada düşərgə saldılar.
29 Mitqanı tərk edib Xaşmonada düşərgə
saldılar.
30 Xaşmonadan ayrılıb Moserotda düşərgə
saldılar.
31 Moserotu tərk edib Bene-Yaaqanda
düşərgə saldılar.
32 Bene-Yaaqandan ayrılıb Xor-
Haqqidqadda düşərgə saldılar.
33 Xor-Haqqidqadı tərk edib Yotvatada
düşərgə saldılar.
34 Yotvatanı tərk edib Avronada düşərgə
saldılar.
35 Avronanı tərk edib Esyon-Geverdə
düşərgə saldılar.
36 Esyon-Geveri tərk edib Zin səhrasında,
yə'ni Qadeşdə düşərgə saldılar.
37 Qadeşdən ayrılıb Edom torpağının
sərhədindəki Hor dağında düşərgə saldılar.
38 Kahin Harun Rəbbin əmrinə görə Hor
dağına çıxdı. İsraillilərin Misirdən çıxmasının
qırxıncı ilində, beşinci ayın birinci günündə
orada öldü.
39 Harun Hor dağında öləndə yüz
iyirmi üç yaşında idi.
40 Kən'an ölkəsinin Negev bölgəsində
yaşayan Kən'anlı Arad padşahı eşitdi ki, İsrail
övladları gəlib.
41 İsrail övladları Hor dağından ayrılıb
Salmonada düşərgə saldılar.
42 Salmonanı tərk edib Punonda düşərgə
saldılar.
43 Punonu tərk edib Ovotda düşərgə saldılar.
44 Ovotu tərk edib Moav sərhədindəki İye-
Avarimdə düşərgə saldılar.
45 İye-Avarimi tərk edib Divon-Qadda
düşərgə saldılar.
46 Divon-Qaddan ayrılıb Almon-
Divlataymada düşərgə saldılar.
47 Almon-Divlataymanı tərk edib Nevo
yaxınlığında olan Avarim dağlıq bölgəsində
düşərgə saldılar.
48 Avarim dağlıq bölgəsindən ayrılıb İordan
çayı yanında, Yerixo qarşısında olan Moav
düzənliyində düşərgə saldılar.
49 İordan çayı
boyunca Bet-Yeşimotdan Avel-Şittimə qədər
Moav düzənliyində düşərgə saldılar.
50 Orada, İordan çayı yanında, Yerixo
qarşısındakı Moav düzənliyində Rəbb
Musaya belə dedi:
51 «İsrail övladlarına de:
"İordan çayından Kən'an ölkəsinə keçəndə
52 ölkədə yaşayan bütün əhalini qovun. Oyma
daşlarının, tökmə bütlərinin hamısını yox edin.
Onların bütün səcdəgah yerlərini dağıdın.
53 Ölkəni ələ keçirib orada
məskunlaşacaqsınız, çünki mülk almaq üçün
oranı sizə verdim.
54 Püşklə ölkəni nəsilləriniz
arasında bölün. Böyük nəslə böyük torpaq
payı, kiçik nəslə kiçik torpaq payı verin.
Kimin püşkünə nə çıxsa, qoy ora onun olsun.
Paylarınızı atalarınızın qəbilələrinə görə irs
alın.
55 Amma yerli əhalini qovmasanız, qalanlar
böyrünüzü kol kimi dolayıb tikan kimi
gözünüzə girəcək. Yaşadığınız ölkədə sizə
əziyyət verəcək.
56 Mən də onlara nə etməyi
düşünsəm, onu sizə edəcəyəm"».

---

***33:38*** *– Say. 20:22-28; Qanun. 10:6*
***33:40*** *– Say. 21:1*
***33:54*** *– Say. 26:54-56*

### *Kən'an ölkəsinin sərhədləri*

34 1 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et və onlara de:
"Kən'an ölkəsinə girdiyiniz zaman irs olaraq
sizə düşən torpağın – Kən'an torpağının
sərhədləri belə olacaq:
3 Cənub tərəfiniz Zin səhrasından Edom
sərhədi boyunca uzanacaq. Cənub sərhədiniz
şərqdə Duz dənizinin ucundan başlayacaq.
4 Sərhədiniz Aqrabbim keçidinin cənubundan
dolaşaraq Zin səhrasına keçəcək və oradan
Qadeş-Barneanın cənubuna qədər uzanacaq.
Oradan Xasar-Addara uzanıb Asmona
keçəcək. 5 Sərhəd Asmondan Misir vadisinə
qədər dolaşacaq və onun ucu dənizin yanında
olacaq.
6 Qərb sərhədiniz Böyük dənizi və onun
kənarı olacaq, qərb sərhədiniz belə olacaq.
7 Şimal sərhədiniz bu olacaq: Böyük
dənizdən Hor dağına qədər nişan
qoyacaqsınız. 8 Hor dağından da Xamat
keçidinə qədər nişan qoyacaqsınız. Sərhədin
ucu Sedadda olacaq. 9 Sərhəd Zifrona
uzanacaq və onun ucu Xasar-Enanda olacaq.
Bu, şimal sərhədiniz olacaq.
10 Şərq sərhədinizə Xasar-Enandan Şefama
qədər nişan qoyacaqsınız. 11 Sərhəd Şefamdan
Ayinin şərq tərəfində olan Rivlaya enəcək və
oradan Kinneret dənizinin şərq kənarındakı
yamaclara çatacaq. 12 Sonra sərhəd İordan çayı
boyunca enəcək və onun ucu Duz dənizinin
yanında olacaq.

Hər tərəfdən ölkənizin sərhədləri bunlar
olacaq"».
13 Musa İsrail övladlarına əmr edib dedi:
«Bu o torpaqdır ki, siz onu püşk vasitəsilə
bölməlisiniz. Rəbbin göstərişi ilə onu doqquz
yarım qəbilə arasında bölməlisiniz. 14 Çünki
Ruven qəbiləsinin nəsilləri, Qad qəbiləsinin
nəsilləri və Menaşşe qəbiləsinin o biri yarısı
öz irsini aldılar. 15 Bu iki yarım qəbilə
Yerixonun qarşısında İordan çayının şərq
tərəfində irsini aldılar».
16 Rəbb Musaya dedi: 17 «Torpaqları sizə irs
olaraq böləcək adamların adları belədir: kahin
Eleazar və Nun oğlu Yeşua. 18 Torpaqları
bölmək üçün hər qəbilədən bir nəfər rəhbər
götürün. 19 Bu adamlar bunlardır: Yəhuda
qəbiləsi üçün Yefunne oğlu Kalev; 20 Şimeon
qəbiləsi üçün Ammihud oğlu Şamuel;
21 Binyamin qəbiləsi üçün Kislon oğlu Elidad;
22 Dan qəbiləsi üçün rəhbər olan Yoqli oğlu
Buqqi; 23 Yusif oğullarından Menaşşe qəbiləsi
üçün rəhbər olan Efod oğlu Xanniel;
24 Efrayim qəbiləsi üçün rəhbər olan Şiftan
oğlu Qemuel; 25 Zevulun qəbiləsi üçün rəhbər
olan Parnak oğlu Elisafan; 26 İssakar qəbiləsi
üçün rəhbər olan Azzan oğlu Paltiel; 27 Aşer
qəbiləsi üçün rəhbər olan Şelomi oğlu Axihud;
28 Naftali qəbiləsi üçün rəhbər olan Ammihud
oğlu Pedahel».
29 Kən'an torpağında İsrail övladlarına irs
torpaqları bölmək üçün Rəbbin əmr etdiyi
adamlar bunlardır.

### *Levililərə ayrılan şəhərlər*

35 1 İordan çayının yanında, Yerixo
qarşısında olan Moav düzənliyində
Rəbb Musaya dedi: 2 «İsrail övladlarına əmr et
ki, mülk etdikləri torpaqda yaşamaq üçün
Levililərə şəhərlər versinlər. Sən şəhərlərin
ətrafında Levililərə otlaqlar da ver. 3 Beləliklə,
Levililərin yaşamaq üçün şəhərləri və onların
mal-qaraları, sürüləri və digər heyvanları
üçün otlaqları olsun. 4 Levililərə verəcəyiniz
şəhərlərin ətrafındakı otlaqlar şəhər
divarından min qulac uzanacaq. 5 Şəhər ortada
olaraq şəhərin bayırından şərq tərəfini iki min
qulac, cənub tərəfini iki min qulac, qərb
tərəfini iki min qulac və şimal tərəfini iki min
qulac ölçün. Bu onlar üçün şəhər otlaqları
olsun.
6 Levililərə verəcəyiniz şəhərlərdən altı
sığınacaq şəhər olsun ki, kimisə öldürən oraya
qaça bilsin. Bunlardan başqa qırx iki şəhər də
verin. 7 Levililərə verəcəyiniz şəhərlərin cəmi
qırx səkkiz şəhər olsun. Onları otlaqları ilə
birgə verin. 8 Levililərə verəcəyiniz şəhərlər
hər qəbiləyə düşən payın nisbətində alınsın,
çox şəhəri olan qəbilədən çox şəhər, az şəhəri
olan qəbilədən az şəhər alın».

### *Sığınacaq şəhərlər*

*(Qanun. 19:1-13; Yeşua 20:1-4)*

9 Sonra Rəbb Musaya dedi: 10 «İsrail
övladlarına de: "Siz İordan çayını keçib
Kən'an torpağına girəndə 11 sığınacaq şəhərlər
olaraq bə'zi şəhərlər seçin ki, səhvən adam
öldürən oraya qaçsın. 12 Qisas alandan

---

***34:3-5*** *– Yeşua 15:2-4*
***34:13*** *– Say. 26:52-56*
***34:13-15*** *– Yeşua 14:1-5*

***35:1-8*** *– Yeşua 21:1-42*

sığınacaq şəhərləriniz bunlar olsun ki, adam
öldürən şəxs camaatın önündə hökm alana
qədər öldürülməsin. 13 Verəcəyiniz bu altı
şəhər sizin üçün sığınacaq şəhərlər olsun.
14 İordan çayının o biri tayında üç şəhər və
Kən'an torpağında üç şəhər verin. Bunlar
sığınacaq şəhərlər olsun. 15 Bu altı şəhər İsrail
övladlarına, aralarında yaşayan yadellilərə və
qəriblərə sığınacaq şəhərləri olacaq. Belə ki
bilmədən birini öldürən hər kəs oraya qaça
bilsin.

16 Əgər biri dəmir bir alətlə başqa birini
vurub öldürmüşsə, o adam qatildir. Qatil
öldürülməlidir. 17 Əgər kimsə əlində insanın
ölə biləcəyi bir daşla kimisə vurmuşsa və o
adam ölmüşsə, onda o adam qatildir. Qatil
öldürülməlidir. 18 Yaxud əlində adam öldürə
bilən ağac bir alətlə birini vurub öldürmüşsə,
o adam qatildir. Qatil öldürülməlidir.
19 Tökülən qanın qisasını alan özü qatili
öldürsün, onunla rastlaşdığı zaman öldürsün.
20 Əgər onu kinlə itələyib yaxud pusquda
duraraq ona tərəf bir şey atıb öldürmüşsə 21 ya
da ədavətə görə onu əli ilə vurub öldürmüşsə,
vuran mütləq öldürülməlidir. O qatildir,
tökülən qanın qisasını alan adam qatilə rast
gəldiyi zaman onu öldürsün.

22 Ancaq ədavəti olmayaraq birini qəflətən
itələmişsə yaxud pusquda durmadan ona bir
şey atmışsa 23 və yaxud da onu görmədən
üstünə adam öldürə bilən bir daş düşürüb
öldürmüşsə, onda ölən şəxsi-qərəzi
olmadığından və ona ziyan vurmaq
istəmədiyindən 24 adam öldürənlə tökülən
qanın qisasını alan arasında bu hökmlərə görə
icma hökm çıxaracaq. 25 İcma tökülən qanın
qisasını alanın əlindən adam öldürəni
qurtaracaq, qaçdığı sığınacaq şəhərə geri
göndərəcək və o, müqəddəs yağla məsh
olunmuş baş kahinin ölümünə qədər orada
qalacaq. 26 Əgər adam öldürən qaçdığı
sığınacaq şəhərin sərhədini keçərsə, 27 tökülən
qanın qisasını alan adam öldürəni sığınacaq
şəhərin sərhəd kənarında taparsa və onu
öldürərsə, o qatil sayılmayacaq. 28 Çünki adam
öldürən baş kahinin ölümünə qədər sığındığı
şəhərdə qalmalı idi. Ancaq baş kahinin
ölümündən sonra öz mülkü olan torpağına
qayıda bilər.

29 Bunlar nəsildən-nəslə bütün yaşadığınız
yerlərdə qanun və hökm olacaq.

30 Bir adam bir adamı öldürsə, şahidlərin
ifadəsi ilə öldürülsün. Lakin heç bir qatil tək
şahidin ifadəsi ilə öldürülməsin. 31 Ölüm
cəzasına layiq qatilin canı üçün kəffarə
almayın, çünki o öldürülməlidir. 32 Sığınacaq
şəhərinə qaçan üçün kəffarə almayın ki,
kahinin ölümündən əvvəl torpağında
yaşamağa qayıtsın. 33 Beləcə olduğunuz ölkəni
murdarlamayın. Çünki qan tökmək ölkəni
murdar edər və ölkədə tökülən qanın əvəzi
ancaq onu tökənin qanı ilə kəffarə oluna bilər.
34 Yaşadığınız, Mənim də olduğum ölkəni
ləkələməyin. Çünki İsrail övladları arasında
yaşayan Rəbb Mənəm"».

### *Selofxadın qızlarının irsi*

36 1 Yusif övladlarının nəsillərindən
Menaşşe oğlu Makir oğlu Gilead
nəslinin ailə başçıları yaxınlaşıb Musanın
önündə və İsrail nəsil başçıları olan
rəhbərlərin önündə belə danışdılar: 2 «Rəbb
ölkəni irs olaraq püşk ilə İsrail övladları
arasında bölüşdürməyi ağamıza əmr etdi.
Soydaşımız Selofxadın irsini onun qızlarına
vermək ağamıza Rəbb tərəfindən əmr olundu.
3 Əgər Selofxadın qızları başqa bir İsrail
qəbiləsinə mənsub kişilərə ərə getsələr,
onların irsi bizim irsimizdən götürülüb
mənsub olacaqları qəbilənin irsinə qatılar.
Beləliklə, püşklə bizə düşən pay azalar. 4 İsrail
övladlarının Azadlıq ili gələndə qızların irsi
ərlərinin mənsub olduqları qəbilənin irsinə
əlavə olunar. Beləliklə, qızların irsi
atalarımızın qəbiləsinə düşən irsdən alınar».

5 Musa Rəbbin əmrinə görə İsrail
övladlarına əmr edib dedi: «Yusif nəslinin
qəbiləsi doğru söyləyir. 6 Selofxadın qızları
haqqında Rəbbin əmr edib dediyi söz budur:
onlar öz istədikləri kişiyə ərə gedə bilər,
ancaq atalarının mənsub olduğu qəbilədən
olan nəsil içində ərə getməlidirlər ki, 7 İsrail
övladlarının irsi qəbilədən qəbiləyə keçməsin.
İsrail övladlarının hər biri ataları qəbiləsinin
irsinə bağlı qalsın. 8 İsrail qəbilələrindən hər
hansı birində irsə malik olan hər qız atasının
mənsub olduğu qəbilədən və nəsildən bir
nəfərə ərə getməlidir ki, hər bir İsrail övladı
atalarının irsinə malik olsun. 9 İrs bir
qəbilədən başqa qəbiləyə keçməsin. Hər bir
İsrail qəbiləsi öz irsinə bağlı qalsın».

---

***35:30*** *– Qanun. 17:6; 19:15*
***36:2*** *– Say. 27:7*

10 Rəbbin Musaya əmr etdiyinə əməl edərək
Selofxadın qızları 11 Maxla, Tirsa, Xoqla,
Milka və Noa əmisi oğlanlarına ərə getdilər.
12 Onlar Yusif oğlu Menaşşe nəsillərinə
mənsub kişilərə ərə getdilər. Ona görə də irsi
atalarının mənsub olduğu qəbilə və nəsil
içində qaldı.

13 Rəbbin Musa vasitəsilə İordan çayının
yanında Yerixo qarşısındakı Moav
düzənliyində İsrail övladlarına verdiyi əmr və
hökmlər bunlardır.